**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

**ADPU-100**

# Tarix, insan və cəmiyyət

**Elmi-nəzəri və elmi-metodikjurnal**

**2021, 3 (33)**

**BAKI-2021**

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 3 (33), 2021

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2020-ci ildən tarix və antropologiya elmi istiqamətləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Tarix elmləri doktoru, professor Abbas Seyidov** *(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Xəqani Məmmədov**
**Tarix üzrə elmlər doktoru, professor Fəzail Vəliyev**
**Antropologiya üzrə elmlər doktoru, professor Əliağa Məmmədli**
**Tarix üzrə elmlər doktoru Eynulla Mədətli**
**Tarix üzrə elmlər doktoru, dosent Sevinc Əliyeva**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yasin Qaraməmmədli**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Ərəstun Mehdiyev**
**Tarix üzrə fəlsəfə doktoru Kərəm Məmmədov**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədova** *(məsul katib)*

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2021, 3 (33), s.3-14

# HERALDİKANIN DİGƏR PREDMETLƏRİ : KARTUŞLAR

**Afiq Nəsrəddin oğlu Abdullayev**
**AMEA arxeologiya, etnoqrafiya və antropologiya institutu**
**afigabdullayev@mail.ru**

**Açar sözlər:** *heraldika, kartuş, qrotesk, serex, şeen*

*Məqalədə heraldikanın elementlərindən, heraldika elminin tədqiqat sahələrindən və simvolik xarakter daşıyan maddi mədəniyyət nümunələrindən bəhs edilir. Xüsusilə də, heraldika elminin predmetinə daxil olan kartuşların inkişaf tarixi və müxtəlif dövrlərdə müxtəlif şəkildə istifadə edilməsi ardıcıl araşdırıulmışdır. Həmçinin, Bakı Şəhər Dumasının binası üzərində heraldik elementlər daşıyan bəzəklər və qabartmalar heraldik baxımdan tədqid edilərək onların izahı verilmişdir.*

## ДРУГИЕ ПРЕДМЕТЫ ГЕРАЛЬДИКИ : КАРТУШИ

**Афиг Насреддин оглы Абдуллаев**

**Ключевые слова:***геральдика, картуш, гротеск, серех, шеен*

*В статье описывается об элементах геральдики, областях исследований геральдической науки и образцах материальной культуры носящих символический характер. В частности, последовательно изучалась история развития картушей которые входят в предмет геральдической науки и их использование по-разному в разные периоды. Также, были изучены с геральдической точки зрения украшения и рельефы несущие геральдические элементы на здании Бакинской Городской Думы и дано их объяснение.*

## OTHER İTEMS OF HERALDRY : CARTOUCHES

**Afig Nasreddin oglu Abdullayev**

**Key words:***heraldry, cartouche, grotesque, serekh, sheen*

*The article deals the elements of heraldry, research areas of heraldic science and samples of material culture that have a symbolic character. In particular, the history of the development of cartouches that are included in the subject of heraldic science and their use in differently in different periods was*

*consistently studied. Also, the decorations and reliefs bearing heraldic elements on the building of the Baku City Duma were studied from the heraldic point of view and explained them.*

Əvvəla qeyd etmək lazımdır ki, heraldika tarix elminin köməkçi elmi tədqiqat sahəsidir. Tarixi hadisələrin araşdırılması zamanı rəmzi əlamət və ya simvolik xarakter daşıyan heraldik elementlərin istifadə edildiyi müxtəlif maddi mədəniyyət nümunələri (tuğralar, tumarlar, damğalar, döymələr, bullalar, möhürlər, monetlər, markalar, medallar, rozetlər, ordenlər, gerblər, emblemlər, sancaqlar, bayraqlar, kartuşlar, amuletlər, talismanlar, skeptronlar, ekslibrislər, miniatürlər, uniformalar, monoqramlar, anaqramlar, digər əşyalar, alətlər və s.) heraldikanın predmetinə və ya tədqiqat sahəsini daxil olur. "Heraldik elementlər" dedikdə isə əsasən rəmzi əlamət və ya simvolik xarakter daşıyan daşlar, metallar, rənglər, hərflər, rəqəmlər, təsvirlər (astral, həndəsi, insani, nəbati, heyvani və s.), müxtəlif işarələr, fiqurlar və s. nəzərdə tutulur [2, s.11]. Bu heraldik elementlər həm də "heraldikanın əlifbası" sayılır.

Heraldika elmi mahiyyət etibarilə rəmzi əlamət və ya simvolik xarakter daşıyan heraldik elementlərin əks olunduğu maddi mədəniyyət nümunələrinə əsasən insanların məfkurəsinə, mədəniyyətinə, mənsubiyyətinə, ideologiyasına, mifologiyasına və qnesologiyasına aid məlumatları araşdırmağa və aşkarlamağa yönəlmiş elmi tədqiqat sahəsidir[1, s.46]. Heraldika təkcə tarix elminin köməkçi sahəsi deyil, həm də memarlıq və incəsənət sahəsi kimi təzahür edir.

## Kartuşlar

Hələ qədim Misirdə kartuşa bənzər hökmdar lövhələri mövcud olub ki, onların üzərində fironun ismi, rütbəsi və ləqəbi, həmçinin fironu himayə edən tanrılarının adları yazılırdı və ya təsviri verilirdi. Bəzən bu cür kartuşlara qədim Misirdə saray və məbəd girişlərində, möhür və saxsı üzərində, hətta stellalar üzərində də rast gəlmək olur[3, p.36]. Həmçinin bu cür kartuşlar çox vaxt fironların məzarı üzərində yerləşdirilirdi və amulet sayılırdı[11, c.153]. Qədim Misirdə bu cür kartuşlar əvvəl "serex (qədim qıptı dilində "fasad")", sonra "şeen (qədim qıptı dilində "çevrə")", XIX sülənin dövründə (e.ə.XIII əsrdə) isə "meneş" ("oval") adlanmışdır[10, c.107, 287]. Belə ki, aşkar edilən ilk serex nümunəsi III Sülalənin son fironu olan firon Huni üçün hazırlansa da, IV Sülalənin I fironu Senefru zamanında serexlərdən rəsmi olaraq dövlət səviyyəsində istifadə edilməyə başlanıldı[3, p.123, 124; şəkil 1]. Zaman keçdikcə kartuşlar daha görkəmli şəkildə hazırlanmışdır[4; şəkil 2].

Misir kartuşları Antik dövrdə Yunan və Latın mədəniyyətinə inteqrasiya etmiş, nəticədə daha sonralar kartuşların stelizə edilmiş daha mürəkkəb fərqli formaları müşahidə edilmişdir. XIV-XVI əsrlərdə Avropada cərəyan edən İntibah Mədəniyyəti dövründə maddi mədəniyyət nümunəsinə çevrilən və heraldik elementlər daşıyan bu kartuşların formaları dəyişdirilərək zənginləşdirilsədə, onların ümumi mahiyyəti dəyişilmədi. “Kartuş” ifadəsi də



**Şəkil 1.** *IV Sülalənin II Fironu Xeopsa aid kartuş*



**Şəkil 2.** *XIX*

məhz bu dövrdə geniş istifadə edilmişdir. İtalyan dilində “carta” sözü “kağız” mənası verirsə, “cartoccio” sözü “bükülmüş kağız” və ya “kağız tomarı (rulonu)” mənası verir. İntibah Mədəniyyəti dövründən sonra da Avropada heraldik elementlər daşıyan kartuşlar evlərin girişində və içərisində, hətta bəzi əşyaların üzərində də memarlıq və sənətkarlıq nümunəsi kimi hazırlanırdı. Evlərin girişində olan kartuşlar üzərində gerb, deviz, binanın inşa edildiyi tarix və s. həkk edilirdi[14, c.158; şəkil 3, 4, 5].



**Şəkil 5.***Sankt-Peterburq*



**Şəkil 3.**



**Şəkil 4.** *Amsterdam şəhəri, Rozengraxt küçəsi, 187. Bir evin divarına asılmış kartuş nümunəsi*

XIX əsrin sonlarında və XX əsrin əvvəllərində yaşamış Rusiyalı arxitektor V.Q.Baronovski yeddi cilddən ibarət "Arxitektura Ensiklopediyası (1902-1908)" adlı əsərinin yeddinci cildində Avropada və Rusiyada istifadə edilən bir neçə formada kartuş nümunəsini öz kitabında əks etdirmişdir [7, c.56, 57; şəkil 6, 7].



**Şəkil6**



**Şəkil 7**

Kartuşların istifadə edilməsi daha geniş yayılsa da, Orta Əsrlərdə Azərbaycan kimi müsəlman mədəniyyəti yayılan ölkələrin kartuş tipli memarlıq nümunələrindən istifadə etməsinə nadir halda rast gəlinmişdir. Belə nadir nümunələrdən biri kimi Mərkəzi Asiyada Özbəkistan ərazisində

Səmərqənd şəhəri yaxınlığında XI əsrə aid edilən qəbirdə oxluq (ox qabı) üzərində həkk edilmiş ornamentlər və fantastik antropomorf təsvirlər ilə yanaşı kartuş içərisində ərəb əlifbası ilə yazılar aşkar edilmişdir[12, c. 63].

Sənaye İnqilabından sonra isə bütün dünyada sürətlə qloballaşan svilizasiya ölkələrin həm daha multikultural olmağa, həm də daha sinkretik kulturasiya proseslərinə yönəlməsi ilə nəticələnmişdir. XIX əsrin əvvələrindən etibarən Azərbaycan Rusiya imperiyasının tərkibinə daxil olmuşdur. Məhz Bakı şəhərində də neft sənayesinin sürətli inkişafı, Rusiyalı və Avropalı şirkətlərin iqtisadi fəaliyyət üçün Bakı şəhərinə gəlməsi İntibah Mədəniyyətinin memarlıq nümunələrinin Bakı şəhərində yayılması ilə müşahidə edilmişdir. Belə memarlıq nümunələrindən biri dəBakı Şəhər Dumasının binası və binanın üzərində kartuş tipli memarlıq nümunələri sayılmalıdır.

1900-1904-cü illərdə Bakı Şəhər Duması üçün bina inşa edilərkən baş memar və mühəndis olan İ.Qoslavski Avropa İntibah Mədəniyyəti nümunəsi kimi barokko stilində bina inşa edilməsini tövsiyə etmişdir. Hazırda Bakı şəhəri İcra Hakimiyyətinin binası kimi istifadə edilən bu binanın üzərində kartuş tipli qabartmalar vardır. Bu kartuş tipli qabartmalar heraldik elementlər daşıyır. Əsasən binanın ön hissəsində pəncərə plyastrlarının və portiklərinin ortasında kartuş tipli qabartmalar müxtəlif mövzularda hazırlanmışdır. Bu kartuşlarda bəzən mistik simvollar istifadə edilsə də, bu mistik simvollar pablik ( ümumi mənası olan) simvollar sayılır, sakral (məxfi mənası olan) simvollar deyildir.

**Kartuş 1.**Üzərindəqanadlarını açmış əsa şəklində məşələ dolanan iki ilan qabartması var. Bu cür əsa Yunan-Latın mifologiyasında rast gəlinən Hermes (Merkur) adlı tanrının simvoludur. Hermes idrakı, idmanı, ticarəti, zənginliyi himayə edən tanrı sayılırdı [şəkil 8].



**Şəkil 8**

**Kartuş 2.** Üzərində lövbər və lövbərə dolanmış ilana bənzər dəniz əjdahası, iki vazə içində meyvələr qabartması var. Bu kartuş dənizçilik və meyvəçilik sahəsində məhsuldarlığı simvolizə edir [şəkil 9].



**Şəkil 9**

**Kartuş 3.** Üzərindəçəkic, külüng, pərgar, xətkeş (bucaqlıq, transportir),kəpənəkli qalstuk qabartması var**.** Bu kartuşinşaatı, sənətkarlığı və zəhmetkeşliyi simvolizə edir [şəkil 10].



**Şəkil 10**

**Kartuş 4.** Üzərində kitab və qlobus qabartması var. Bu kartuş elmi və təhsili simvolizə edir[şəkil 11].



**Şəkil 11**

**Kartuş 5.** Üzərində qədəhə sarılan ilan qabartması var. Bu qabartma əslində Yunan-Latın mədəniyyətində tanrı və həkim sayılan, təbabəti təmsil edən Eskulapın və onun təmizliyi təmsil edən qızı Gigeyanın simvoludur. Bu simvol tibbin, təbabətin, təmizliyin, sağlamlığın simvoludur. "Gigiyena" sözü də məhz Gigeyanın adından götürülmüşdür[şəkil 12].



**Şəkil 12**

**Kartuş 6.**Üzərində çarx, çəkic, balta, zindan qabartması var. Bu qabartma inşaatı və sənətkarlığı simvolizə edir[şəkil 13].



**Şəkil 13**

**Kartuş 7.** Üzərində Bakı Şəhər Dumasının yaranması tarixi əks etdirilən qabartma var. Bakı Şəhər Duması məhz 1870-ci ildə yaradılmışdır[şəkil 14].

**Kartuş 8.**ÜzərindəBakı şəhərinin gerbinin həkk edildiyi qabartma var. Kartuşun üst hissəsində taca bənzər formada qala bürcü düzəldilib. Bu cür rəmz




**Şəkil 14**

(simvol) həm mərkəzi hakimiyyətin olmasını, həm də müdafiə möhkəmliyi təsəvvürü yaradır. Kartuşun alt hissəsində isə Azərbaycanın gerbində heraldik elementlərdən ölkənin möhkəmliyini təmsil edən palıd budaqları və ölkənin məhsuldarlığını təmsil edən taxıl sümbülləri qabartması vardır. Kartuşun mərkəzində Bakı şəhərinin gerbi qabardılmışdır. Dəniz sahilində yerləşən və sahilini üç tərəfdən dalğalar yuyan Bakı şəhəri üçün üç dalğa və üç od məbədi (Pirallahı, Suraxanı, Səbayıl) simvol kimi istifadə edilir[şəkil 15, 16].



**Şəkil 15**



**Şəkil 16**

Bu binanın üzərindəki kartuşların üst hissəsində əjdaha (drokon) başı fiquru yonulub. Əjdaha əslində rəmzi olaraq əfsanəvi heyvandır. Əjdaha rəsmi çəkilərkən və ya fiquru hazırlanarkən adətən heyvanların bütün ortaq özəlliklərini nəzərə alırlar. Belə ki, əjdaha həm üzən, həm uçan, həm yeriyən, həm də sürünən heyvan kimi təsvir edilir. Həmçinin, əksər xalqların mifologiyasında əjdaha təbiəti təşkil edən 4 ünsürün (od, su, hava, kara (torpaq)) də daşıyıcısı sayılıbdır[6, s. 79]. Ümumiyyətlə, əjdahaobrazı kainat və təbiət arasında ahəngi də təmsil edir. Qəribə deyil ki, əjdahalar həm yaradıcı, həm də dağıdıcı obraz kimi əfsanəyə çevrilərək bəzi əjdahalar xeyri, bəzi əjdahalar şərri təmsil edirlər. Bunun üçün əjdaha rəsminin və ya fiqurunun simvolik xarakter daşıyan bəzi elementlərinə diqqət etmək lazımdır. Məsələn, əjdahanın başının hansı heyvanın başına bənzədilməsi həmin əjdaha rəsmini və ya fiqurunu hazırlayanlar üçün hansı heyvanın obraz, metafora, simvolika və

alleqoriya kimi daha çox əhəmiyyət daşımasından asılıdır. Bakı Şəhər Dumasında əjdaha qabartmaları daha çox aslan başına bənzər formada hazırlanıbdır[şəkil 17].Hətta ön balkonun (qapalı eyvanın) altında dirsək üçün inşa edilən korbelə diqqət ediləndə, orada da kartuş tipli lövhəsi olan korbelin üzərində ön pəncələri zəncirlənmiş aslan başı fiquru vardır[şəkil 18].Ümumiyyətlə, aslan rəsmi və ya fiquru alleqorik obraz kimi qüdrəti və qüvvəti, şücaəti və rəşadəti təmsil etsə də, dövlət səviyyəsində aslan simvol kimi hakimiyyətin rəmzidir[8, c.145]. Əgər aslan oturaq haldadırsa, aslan qorumaq rəmzidir. Əgər aslan ön pəncələrini qaldırıbsa, bu aslan simvol kimi yönətmək rəmzidir.

Bakı Şəhər Dumasının binasının ön hissəsində pəncərə plyastrlarının və portiklərinin ortasında, pəncərənin hər iki yuxarı hissəsində ilan-əjdaha qabartmaları da vardır. Bu stelizə edilmiş fiqur mifologiyada həm ilanın, həm də əjdahanın obraz, metafora və alleqoriya kimi simvolik əlamətlərini daşıyır. İlan obrazına və fiquruna bir simvol kimi bütün xalqların mifologiyasında rast gəlmək mümkündür. Heraldik element kimi ilan simvolu əksər halda bilgəliyi, qorumanı, yenilənməni, əbədi həyatı, bəzən də yeraltı və yerüstü yaşamı təmsil etmişdir [5, p. 279; şəkil 17].



**Şəkil 17**



**Şəkil 18**

Bu binanın ikinci mərtəbəsinin üst kənarı boyu uzanan karnizlərin dirsək (korbel) hissəsinin üzərində insan başı formasında qrotesk fiqurları düzülmüşdür[şəkil 19].Bu cür fiqurlar və obrazlar hələ qədim Misir, qədim Şumer, qədim Çin, qədim Hind, qədim İran mədəniyyətiləri üçün də xarakterik olubdur[13, c. 52]. Avropada da qədim xalqların mədəniyyətində qrotesk fiqurlara və obrazlara rast gəlinir. Antik dövrdə yunan və latın mədəniyyəti zamanı qroteksləRdən daha yüksək mədəni səviyyədə istifadə edilməyə başlandı. “Qrotesk” yunan dilində “gizli yer”, latın dilində isə “mağara” mənası verir. Qrotesk fiqurları həm zoomorf, həm də antropomorf formada düzəldilsə də, nə insana, nə də  heyvana tam bənzəmir. Qrotesklər əcaib sifəti və vücudu olan, qismən̈də fantastik və tragedikomik varlıqlar sayılırdıBunun üçün də qroteks varlıqların gizli yerlərdə və mağaralarda yaşadığı iddia edilirdi. Ümumi fikir isə bundan ibarətdir ki, qrotesklər apotropeik (şər ruhlardan qoruyucu) obraz kimi qəbul ediliblər. XV əsrdə İntibah Mədəniyyəti dövründə İtaliyada bu cür əcaib sifəti və vücudu olan varlıqlara “qrotesk” deyilirdi[9, c. 9]. Bu cür qrotesk fiqurlar Qotik memarlıq nümunəsi kimi Avropada artıq kilisə və məbəd divarlarında, şəhərin möhtəşəm binalarının dekorasiyasında istifadə edilirdi[şəkil 20].Avropa dövlətlərin mədəni, siyasi və iqtisadi imperializm dünyada yayıldıqca onların Avropada yaranan heraldika nümunələri də digər ölkələrin heraldikasına sirayət edirdi.Nəticə etibarilə demək olar ki, Azərbaycan heraldikası XIX əsrdən başlayaraq sürətlə Avropa heraldikasına inteqrasiya etmiş, daha zəngin heraldika nümunələri yaradılmışdır.



**Səkil 19**



**Şəkil 20.** *St .Helen kilisəsi,*

## Ədəbiyyat siyahısı


1. Abdullayev A.N. "Heraldika və onun inkişaf tarixi". "Tarix, insan və cəmiyyət" jurnalı, № 4 (27). Bakı, 2019
2. Abdullayev A.N. "Heraldikanın predmeti və elementləri". "Tarix, insan və cəmiyyət" jurnalı, № 2 (29). Bakı, 2020
3. Bard K. A. "Introduction to the archaeology of ancient Egypt". By "Blackwell Publishing Ltd", 2007
4. Cartouches of Pharaoh Seti I, from KV17 at the Valley of the Kings, Egypt. Neues Museum, Berlin.
5. Sümer N. "Dinsel ve mitolojik bir sembol olarak yılan". The Journal of Academic Social Science Studies. Spring I, 2016. p. 278-279
6. Wilkonson K. "Semboller ve işaretler". Ankara, 2010
7. Барановский Г. В. "Архитектурная энциклопедия второй половины XIX века: Детали". т.VII. М., 2015
8. Бидерманн Г. "Энциклопедия символов". М., 1996
9. Николаев Д. П. "Сатира Щедрина и реалистический гротеск". М., 1977
10. Рак И. В. "Египетская мифология". М., 2004
11. Хайке О. "Символы Египта". СПб., 2006
12. Шишкина Г. В. "Несторианское погребение в Согде Самаркандском". Книга "Из Истории древних культов Средней Азии – Христианство". Ташкент, 1994. с. 56-63
13. Ювалова Е. П."Гротеск в изобразительном искусстве готики". Из истории классического искусства Запада: Сб. статей по материалам конференции, приуроченной к 80-летию Е. И. Ротенберга. — М., 2003. с. 52—73
14. Юсупов Е.С. "Словарь терминов архитектуры". СПб., 1994

## Müasir mərhələdə Azərbaycanın Dağıstanla iqtisadi—ticarət əlaqələrində Azərbaycanın iş adamlarının rolu

**Ağca Baxşaliyeva**
**AMEA A.A.Bakıxanov adına Tarix institutu**
**bahshaliyeva@inbox.ru**

**Açar sözlər:** *azərbaycan-dağıstan əlaqələri, xarici yatırımlar, Dağıstan iqtisadiyyatı, Azərbaycanın iş adamları, iqtisadi layihələr*

*Azərbaycan Respublikasının davamlı iqtisadi inkişaf mərhələsinə qədəm qoyması daxili və xarici investisiya siyasətinin nizamlanmasına imkan yaratdı. Dağıstan və Azərbaycanın iqtisadi maraqları, investisiya axınının artmasına, maneələrin aradan qaldırılmasına yönəlib. Hazırda investisiyaların cəlb edilməsi üçün bir neçə istiqamətdə iş aparılır. Son dövrlərdəDağıstan hökuməti respublikaya investisiya axınını təmin etmək üçün bir sıra qərarlar qəbul edərək, əlverişli qanunvericilik bazası formalaşdırıb. Dağıstan Respublikası ərazisində yatırımlar baxımlndan Azərbaycanın iş adamlarının diqqətini aqrar, turizm sektoru daha çox cəlb edir və qeyd edək ki, Dağıstanın əmtəə dövriyyəsinin 50%-i hazırda Azərbaycanın payına düşür.*

*2016-cı ilin mayında Bakıda Dağıstan günlərinin açılışı zamanı Rusiya Federasiyasının Dağıstan Respublikası ilə Azərbaycan Respublikası arasında iqtisadi, ticarət və mədəni əlaqələrin inkişafı istiqamətində yeni layihələrin əsası qoyuldu.*

## The role of Azerbaijani businessmen in trade and economic relations between Azerbaijan and Dagestan at the present stage

**Agja Bahshaliyeva**

**Keywords:** *Azerbaijani-Dagestan relations, foreign investments, Dagestan economy, Azerbaijani businessmen, economic projects*

*The entry of the Republic of Azerbaijan into a stable economic cycle made it possible to streamline the domestic and foreign investment policy. The economic interests of Dagestan and Azerbaijan are aimed at increasing the inflow of investments and removing barriers. Currently, work is underway in several areas of attracting investment. Recently, the Government of Dagestan has made a number of decisions to ensure the inflow of investments into the republic, having formed a favorable legislative framework. From the point of view of investments in the territory of the Republic of Dagestan, the attention of*

*Azerbaijani businessmen is most attracted by the agricultural and tourism sector, and it should be noted that 50% of Dagestan's trade turnover currently falls on Azerbaijan.*

*During the opening of the Days of Dagestan in Baku in May 2016, the foundations of new projects aimed at developing economic, trade and cultural ties between the Republic of Dagestan of the Russian Federation and the Republic of Azerbaijan were laid.*

## Роль азербайджанских бизнесменов в торгово-экономических отношениях Азербайджана с Дагестаном на современном этапе

**Агджа Бахшалиева**

**Ключевые слова:***азербайджано-дагестанские связи, иностранные инвестиции, экономика Дагестана, бизнесмены Азербайджана, экономические проекты*

*Вступление Азербайджанской Республики в устойчивый экономический цикл позволило упорядочить внутреннюю и внешнюю инвестиционную политику. Экономические интересы Дагестана и Азербайджана направлены на увеличение притока инвестиций, устранение барьеров. В настоящее время ведется работа по нескольким направлениям привлечения инвестиций. В последнее время правительство Дагестана приняло ряд решений по обеспечению притока инвестиций в республику, сформировав благоприятную законодательную базу. Внимание бизнесменов Азербайджана с точки зрения инвестиций на территории Республики Дагестан больше всего привлекает аграрный, туристический сектор, и отметим, что 50% товарооборота Дагестана в настоящее время приходится на Азербайджан.*

*Во время открытия дней Дагестана в Баку в мае 2016 года были заложены основы новых проектов, направленных на развитие экономических, торговых и культурных связей между Азербайджанской Республикой и Республикой Дагестан Российской Федерации.*

**GİRİŞ.***Dövlətlər arasında iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafı millətlərarası münasibətlərin dinamikasına müsbət təsir göstərərək regionda sülhün və sabitliyin, qarşılıqlı hörmət və etibarın möhkəmləndirilməsinə xidmət edir. Xarici investisiya axını dövlətlər arasında mövcud olan bir sıra problemlərin həlli istiqamətində ciddi addımların atılmasını şərtləndirir. Belə*

*ki, aktiv investisiya siyasəti maliyyə vəsaitlərinin qoyulduğu dövlətdə münbit investisiya mühitinin yaradılmasını tələb edir.*

*Son bir neçə ildə Azərbaycanın xarici ticarət dövriyyəsində ciddi dəyişikliklər baş vermiş, iş adamları 195 ölkədə müxtəlif biznes layihələr reallaşdırmış, xarici ticarət dövriyyəsi 33 milyard ABŞ dolları ötmüşdür. Azərbaycandan ixrac olunan qeyri-neft məhsullarının həcmi artmağa başlamışdır.Dünya Bankının 2019-cu il üçün hesabatında Azərbaycanın "Doing Biznes" indeksi üzrə göstəriciləri Rusiya Federasiyasından yaxşı olmuş, biznesə başlamaq üçün əlverişli mühitin formalaşdığı qeyd edilmişdi [7, s.4]. Avropa Birliyinin Bisnes mühitinin mövcud səviyyəsinin təhlili ilə bağlı Azərbaycan üzrə 2018-ci il hesabatında ölkədə aparılan struktur islahatların effektivliyi, vergi siyasətinin liberallaşdırılması qeyd olunmuş, Avropa Birliyi şirkətlərinin 53%-nin ölkədə iqtisadi aktivliyi genişləndirmək niyyətində olduqları göstərilmişdi. Azərbaycanda biznesə malik Avropa şirkətləri rəhbərlərinin 63%-i Azərbaycanı investisiya ölkəsi olaraq seçdiklərindən məmnunluq ifadə etmişlər [6,s.28].*

*Rusiya Federasiyası və Azərbaycan Respublikasının uzun tarixi dövrdə vahid dövlətin tərkibində olması onların sosial-iqtisadi sahədə oxşar xüsusiyyətləri bölüşməsinə səbəb olmuşdur. Bu, özünü hər iki dövlətin investisiya siyasətində daha aydın göstərir. Dövlətin iqtisadiyyata əhəmiyyətli dərəcədə müdaxiləsi, həm bazar, həm də inzibati təsir mexanizmlərinin mövcudluğu, dünya iqtisadi böhranından asılılıq hazırkı dövrdə Rusiya və Azərbaycanın investisiya siyasətini müəyyənləşdirən amillərdəndir. Hər iki dövlət əlverişli biznes mühitinin formalaşdırılması, sahibkarlığın inkişafının stimullaşdırılması, dövlət üçün əhəmiyyət kəsb edən proqram və layihələrin reallaşdırılması, xarici investorların ölkə iqtisadiyyatına cəlb edilməsi üçün sadə, anlaşılan və şəffaf şəraitin yaradılması istiqamətində ciddi addımlar atırlar.*

*Müasir Azərbaycan iqtisadiyyatının investisiya siyasətinin əsasını dövlətin iqtisadiyyata kapital qoyuluşunu məhdudlaşdıraraq özəl investisiyaların genişləndirilməsi, xarici investisiyaların həcminin artırılması, vergi siyasətində investorlar üçün nəzərdə tutlmuş imtiyaz və güzəştlərin yaradılması, əlverişli gömrük tariflərinin tətbiq edilməsi ilə investorların fəaliyyətinin stimullaşdırılması, milli sahibkarlığın inkişaf etdirilməsi təşkil edir [2, s.233-234]. Azərbaycan iqtisadiyyatına böyük həcmli investisiyaların yatırılması, dinamik iqtisadi inkişaf 2005-ci ildən başlayaraq respublikanın investisiya ixrac edən ölkəyə çevrilməsinə imkan yaratmışdır. Son illər Azərbaycan xarici ölkələrə 6 milyard dollara yaxın investisiya yatırmışdı. Rusiya Federasiyasının Şimali Qafqaz regionu Azərbaycan dövləti və iş adamları üçün investisiya yatırımları baxımından əlverişli məntəqə hesab edilə bilər [1, s.3].*

*XXI əsrin ilk illərindən Rusiya Federasiyasının Şimali Qafqaz bölgəsində siyasi sabitliyin bərpası, Azərbaycan Respublikasının isə davamlı iqtisadi inkişaf mərhələsinə qədəm qoyması dövlətlərin daxili və xarici investisiya siyasətinin nizamlanmasına imkan vermiş, bu istiqamətdə hökumətlər prioritet maraqlarını müəyyənləşdirmişdir. 2001-ci ildə iki dövlət arasında iqtisadi əməkdaşlıq sahəsində bir sıra razılaşmaların əldə edilməsi Azərbaycandan Rusiyaya kapital axınının başlanğıcını qoydu. Azərbaycan Respublikasının Rusiya Federasiyası, o cümlədən Dağıstan Respublikasına aktiv investisya qoyuluşu 2005-ci ildən sürətlə artaraq 2008-ci ildə 115 milyon dollar təşkil etdi.*

*Azərbaycan kapitalı əsasən həmsərhəd bölgələrə yönəlib və Dağıstan Azərbaycanın investisiya siyasətində mühüm istiqamətlərdəndir. Dağıstan Azərbaycan üçün ilk növbədə tranzit region və əlverişli istehlak bazarı hesab edilir. Dağıstan ərazisindən keçən dəmiryolu, avtomobil və dəniz magistralları Azərbaycanı Avropa və Rusiyanın müxtəlif regionları ilə birləşdirir. Azərbaycanın özəl sektor təmsilçiləri Dağıstanda meyvə-tərəvəz ticarəti üçün mühüm əhəmiyyət kəsb edən istilik kompleksləri, logistik mərkəzlərin inşasında maraqlıdırlar. Bundan başqa Dağıstanın turizm potensialı təbii rekreasiya zonalarının, müalicə-sağlamlıq komplekslərinin inkişafı sahəsində geniş imkanları açır. Dərbənd şəhərində etnik azərbaycanlıların kompakt şəkildə yaşaması Azərbaycanın dövlət qurumlarının Dərbənd rayonuna xüsusi diqqət yetirməsini, böyük məbləğdə dövlət investisiyaların bu bölgəyə yönəldilməsini şərtləndirmişdi. Azərbaycan Respublikasının Dövlət İnvestisiya Fondu hazırladığı yeni investisiya strategiyasında yeni vasitələr hesabına investisiya risklərinin azaldılmasını, investisiya fəaliyytinin genişləndirilməsini və gücləndirilməsini nəzərdə tutur. 2004-cü ildə Rusiya, Azərbaycan və İran arasında elektrik şəbəkələrinin birləşdirilməsi haqqında razılığın imzalanması 330 kilovoltluq ikinci Dərbənd-Yaşma elektrik ötürücüsünün tikintisinə imkan yaratdı. Rusiya, Azərbaycan və İranın iştirak etdiyi ən böyük investisiya layihəsi isə "Şimal-Cənub" dəmiryol dəhlizinin tikintisindən ibarətdir. Bu dəhliz Xəzəryanı dövlətlərin dəmiryolu-dənizyolu marşrtunu birləşdirərək ağır yüklərin Rusiya ərazisindən və İran vasitəsilə Hind okeanı hövzəsinə çıxışını təmin etməli idi. Hazırda layihənin qərb qolu üzrə yüklərin Həştərxan-Mahaçqala-Samur istiqamətində daşınması həyata keçirilir, Azərbaycandan keçən yollar Astara sərhəd stansiyasına qədər uzanır.*

*Son 10 ildə hər iki respublikanın iqtisadi maraqları, sərhədyanı əməkdaşlığın inkişaf perspektivləri maneələrin aradan qaldırılmasına yönəlib. Azərbaycanla Dağıstan arasında sərhədyanı əməkdaşlıq ilk növbədə ticari əlaqələr və investisiya axınının artmasına imkan verib. Dağıstanın əmtəə dövriyyəsinin 50% hazırda Azərbaycanın payına düşür. Təqdirəlayiq haldır ki, əməkdaşlıq hər iki respublikanın təsərrüfat obyektləri arasında bağlanan*

*müqavilələr əsasənda həyata keçirilir. Lakin əvvəldə də qeyd edildiyi kimi Dağıstan Respublikası iqtisadiyyatının həddən artıq zəif olması, respublikanın ciddi şəkildə dotasiyalardan və federal büdcədən asılılığı malik olduğu iqtisadi potensialdan geniş şəkildə istifadə etməyə və böyük həcmdə investisiyalar cəlb etməyə imkanı vermir. Hazırda investisiyaların cəlb edilməsi üçün bir neçə istiqamətdə iş aparılır. Dağıstan Respublikasının Azərbaycandakı nümayəndəliyi respublika iqtisadiyyatına investisiyalar yatırmaq məqsədi ilə Azərbaycan iş adamları ilə birbaşa danışıqlar aparır, mövcud investorların qarşılaşdıqları maneələri aradan qaldırmaq üçün çalışır və potensial investorlar arasında regionun imicinin yaxşılaşdırılması isriqamətində ciddi səylər göstərirlər.*

*Dağıstan investisiya axınına imkan yaradacaq bir sıra rəqabətbaxımlı imkanlara malikdir və investisiya potensialına görə Rusiya Federasiyası subyektləri içərisində 29-cu yerdə durur. Bu imkanlar içərisində Xəzər dənizinin bioresursları, neft, qaz yataqları, nəqliyyatın infrastruktur şəbəkəsi qeyd olunmalıdır. Lakin bununla yanaşı regionda mövcud olan siyasi gərginlik, etnik münaqişə təhlükəsi, eyni zamanda klanlar arası münaqişələr və kölgə iqtisadiyyatının daxili qaydaları potensial investorları Dağıstan iqtisadiyyatına birbaşa investisiya yatırmaqdan çəkindirir. 2006-cı ildə Dağıstan Respublikasının dövlət reyestrində xarici investisiyalar əsasında yaradılmış 136 müəsssisə qeydə alınmışdı, lakin bu müəssisələrdən yalnış 10-u real fəaliyyət göstərirdi. 2006-cı ilin hesabatlarında Dağıstana investisiya yatıran ən aktiv ölkə Türkiyə və Azərbaycan olmuşdur. Türkiyə Dağıstanda 26, Azərbaycan isə 15 müştərək müəssisəyə malik idi [8].*

*Son dövrlərdəDağıstan hökuməti respublikaya investisiya axınını təmin etmək üçün bir sıra qərarlar qəbul edərək, əlverişli qanunvericilik bazası formalaşdırıb. 2008-ci ildə Dağıstan hökuməti respublikanı investorlar üçün cəlbedici regiona çevirmək məqsədi ilə "Dağıstan Respublikası ərazisində investisiya fəaliyyətinə dövlət dəstəyi haqqında" qanun qəbul etmişdi. Qanunda investorlara dövlət dəstəyinin göstərilməsi nəzərdə tutulmuş, investorların hüquqları və məsuliyyətləri ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirilmiş, sabit investisiya mühitinin formalaşdırılması üçün investorlara bir sıra vergi güzəştləri verilmişdir. İnvestorlara dövlət dəstəyinin gücləndirilməsi üçün investisiya vergi krediti, tərpənməz əmlakın icarəsi zamanı güzəştlər, hətta dövlət mənşəli maliyyələrdən investisiya ayrılması nəzərdə tutulmuşdu [3,s.17]. 2013-cü ilin dekabrında "2014-2016-cı illərdə Dağıstan Respublikası iqtisadiyyatına investisiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılması haqqında" dövlət proqramı və "2025-ci ilə qədər Dağıstan Respublikasının investisiya strategiyasının təsdiq edilməsi haqqında" qərar qəbul edilmişdi. Qərarda Dağıstan Respublikasına investisiya axınının qarşısını alan bir sıra problemlər təhlil edilmiş, problemlərin aradan qaldırılması üçün infrastruktur*

*sahələrdə, xüsusilə də elektrik enerjisi və nəqliyyat sahəsində modernləşdirmənin zəruriliyi qeyd edilmişdi [4].*

*2017-ci ilin dekabrında Dağıstan Respublikasının hökuməti investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı növbəti "İqtisadi inkişaf və innovativ iqtisadiyyat" dövlət proqramını təsdiq etdi. Sənəddə deyilirdi ki, proqramın əsas məqsədi Dağıstan Respublikasında investisiya fəaliyyətinin reallaşdırılması, kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılmasıdır. Proqramın qarşısında duran bir sıra məsələlər bilavasitə investisiya fəaliyyəti ilə məşğul olan subyetklərə dövlət tərəfindən dəstəyin göstərilməsi, investisiya layihələrinin dövlət-özəl sektor əməkdaşlığı vasitəsilə həyata keçirilməsi, investorlara respublikanın investisiya potensialı haqqında hərtərəfli məlumatın verilməsi ilə bağlı idi [5]. Hökumət dövlət proqramını 2018-2020-ci illərdə reallaşdırmağı planlaşdırır, proqram çərçivəsində həyata keçirilən investisiya layihələrinin sayının, əsas kapitala qoyulan investisiyanın həcminin, iş yerlərinin sayının artırılmasını, kiçik və orta sahibkarlığın dövriyyəsinin genişləndirilməsini və beləliklə də respublika büdcəsinə vergi daxilolmalarının həcminin artırılmasını nəzərdə tuturdu. 2018-ci ildə Dağıstan hökuməti vergilər sahəsində bir sıra mühüm qanunlar qəbul edərək investisiyalar üçün əlverişli mühitin formalaşdırılmasına nail olmuşdu.*

*2011-ci ildən kecirilən Rusiya-Azərbaycan İqtisadi Forumu Azərbaycan iş adamlarının Dağıstan Respublikasına yatırımları üçün olduqca əlverişli imkanlar açıb. 2013-cü ilin avqustunda Rusiya prezidenti V.Putinin Bakıya səfərindən sonra Azərbaycan iş adamlarının Dağıstan iqtisadiyyatına yatırımları artmağa başlayır. Bunun üçün Dağıstan tərəfi də bir sıra səmərəli addımlar atmış, əlverişli investisiya mühiti yaratmaq üçün R.Əbdülətipovun prezidentliyi dövründə 7 prioritet inkişaf layihəsi hazırlanmışdı. "İqtisadiyyatda şəffaflq", "İnkişaf nöqtəsi", "İnvestisiyalar və səmərəli ərazi inkişafı", "Yeni sənayeləşmə", "Səmərəli dövlət idarəçilyi", "Təhlükəsiz Dağıstan", "Səmərəli aqrosənaye kompleksi" və "İnsan kapitalı" adlı layihələr dövlət strukturlarının iqtisadi, xüsusilə də özəl sektora təzyiqini minimuma endirərək, maliyyə əməliyyatlarında şəffaflığın təmin edilməsi, investorlara imtiyazlı vergi soyasəti və gömrük tarifi tətbiq etməklə, regionda təhlükəsizliyi təmin edərək sabtiliyi məhkəmləndirməklə respublika iqtisadiyyatına yatırımların sayını və həcmini artırmağı hədəfləyir [3, s.8].*

*Dağıstanın əlverişli aqroiqlim şəraiti investisiyaların kənd təsərrüfatı sektoruna yönəldilməsi üçün geniş imkanlar açır. Azərbaycan da Dağıstandan böyük həcmdə kənd təsərrüfatı məhsulları idxal etdiyindən bu sahəyə yatırımlar hər iki tərəf üçün səmərəlidir. Azərbaycan iş adamlarının diqqətini cəlb edən ikinci sahə Dağıstanın çoxsahəli turizm imkanlarıdır. Turizm-rekreasiya komplekslərinin, müalicəvi-kurort zonalarının inkişaf etdirilməsi Azərbaycan investorlarının prioritet maraqlarına daxildir. 2014-cü ildə turizmin müxtəlif*

*növlərinin inkişaf etdirilməsi üçün Dağıstanda 16 investisiya sahəsi yaradılmışdı. Dərbənd rayonunun 60 hektar ərazisini təşkil edən "Darvaqçay" sahəsi bu layihələrdən biridir. 2015-ci ildə 2000 illiyini qeyd etməyə hazırlaşan qədim azərbaycan şəhəri Dərbəndin infrastrukturunun, tarixi abidələri və qədim küçələrinin inkişafı və bərpası ilə əlaqədar Azərbaycan hökuməti küllü miqdarda vəsait ayırmışdı. Azərbaycanlı investorlar Dərbənd rayonunda dostluq parkının, bir neçə mehmanxananın, 7 min nəfərlik futbol meydançasının, qapalı üzgüçülük hovuzunun, idman oyunları üçün zalın, tennis kortları, ticarət mərkəzi, məktəb və əyləncə məkanlarının inşasını nəzərdə tutan layihənin icrasına başlamışdılar. Dərbənd şəhərinin yubileyi ilə əlaqədar Azərbaycan hökuməti həmçinin N.Gəncəvi adına parkın tam bərpasını reallaşdırmış, prezident İ.Əliyevin göstərişi ilə şəhərin infrastrukturunun inkişafı üçün böyük həcmdə investisiyalar yatırılmışdır. Bundan başqa rayonun Narınqala adlı hissəsində milli parkın və kanat yolların salınması nəzərdə tutulmuşdu. Dərbən şəhərinin yubileyi ərəfəsində Azərbaycan iş adamlarının Dağıstanda konserv zavodunun, logistik mərkəzin, keramik plitə istehsalı və sement zavodunun inşasını da planlaşdırdığı bəyan edilmişdi. Azərbaycanlı investorlara turizmin inkişafı üzrə artıq mövcud olan bir sıra layihələrdə, müalicə-sağlamlıq komplekslərinin inşasında iştirak təklif edilmişdir.*

**NƏTİCƏ.***2016-cı ilin mayında Bakıda Dağıstan günlərinin açılışı zamanı Rusiya Federasiyası ilə Azərbaycan arasında iqtisadi, ticari və mədəni əlaqələrin inkişafı istiqamətində yeni layihələrin əsası qoyuldu. Dağıstan günlərində Azərbaycana səfər etmiş R.Əbdülətipov Azərbaycanlı iş adamlarının respublika iqtisadiyyatına yatırımları artırmaq məqsədilə 30-dan çox biznes layihələrin hazırlandığını qeyd etmişdi. Bu layihələr əsasən faydalı qazıntıların istehsalı və emalını nəzərdə tuturdu. Dağıstan sahibkarlıq və investisiyalar agentliyi rəhbərinin müavini, Z.Qurbanov Azərbaycanla Dağıstan arasında iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi, respublikaya iri həcmli investisiyaların cəlb olunması və sahibkarlığın inkişafı istiqamətində bir sıra maraqlı layihələrə start verildiyini qeyd etmiş, ağır vəziyyətdə olan Dağıstan iqtisadiyyatının yüksək səviyyəyə qaldırılması üçün maliyyə axınına olan tələbatı vurğulamışdı. Dağıstan hökuməti aqrar sektora ediləcək yatırımlar üçün ciddi güzəştlər nəzərdə tutmuş, bu sahədə yüksək gəlir əldə edildiyi halda qoyulan investisiyaların 30%-nin investorlara geri qaytarılacağına təminat vermişdi. Dağıstan iqtisadiyyatına ciddi yatırımlar qoyan şirkətlərdən biri Kaspian İnvest Qrupdur. 2016-cı ildə Bakıda keçirilən Azərbaycan-Rusiya biznes forumunda Kaspian İnvest Qrupun kommersiya direktoru N.Rəhimli şirkətin Dağıstan ərazisində 700 hektara yaxın istixana, logistik mərkəz və "Azərbaycan" ticarət evinin inşasını planlaşdırdığını bəyan etmişdir. Bununla əraqədar Kaspian Biznes Qrupla Dağıstan sahibkarlıq və investisiyalar agentliyi arasında razılıq imzalanmışdı.*

*Dağıstanın iqtisadi geriliyinin aradan qaldırılması regionun xarici investorları cəlb etmək üçün imicinin yaxşılaşdırılması ilə birbaşa əlaqəlidir. Bunun üçün Dağıstanın xarici iqtisadi inteqrasiyasının gücləndirilməsi, müştərək müəssisələrin, azad iqtisadi zonaların yaradılması, Xəzəryanı dövlətlərlə iqtisadi-ticarət, elmi-texniki əməkdaşlığın genişləndirilməsi lazımdır.*

**Ədəbiyyat**

1. Mustafayev Ş. 2011-ci il iqtisadi inkişafın daha bir uğurlu dövrü oldu. Maliyyə və uçot, 2012, N3, 2-9 s.
2. Nadirov A, Muradov Ş, Ələsgərov A., Nuriyev Ə., Hüseynov T. Azərbaycan iqtisadiyyatı. Bakı: Elm, 2003, 349 s.
3. Инвестиционный паспорт Республики Дагестан. Махачкала: Министерства промышленности, торговли и нвестиций, 2014, 59 s.
4. Об утверждении инвестиционной стратегии Республики Дагестан до 2026 года. Постановление Правительства Республики Дагестан от 24 декабря 2013 года, №704
5.Об утверждении государственной программы Республики Дагестан «Экономическое развитие и инновационная экономика». Правительство Республики Дагестан, постановление от 20 декабря 2017 года, №290
6. Business climate report. Azerbaijan. 2018. EU for business :2018,44 s.
7. Doing Business 2019. Training for reform. Economy Profile. Azerbaijan. World Bank Group, Washington DC, 2019, 59 s.
8. Rusiya Reyestr İdarəsinin Dağıstan Respublikası üzrə Məlumat portalı https://rosreestr.ru/site/about/struct/territorialnye-organy/upravlenie-rosreestra-po-respublike-dagestan/ –- müraciət tarixi 07.04.2021

# Zəngəzur dəhlizi və Qafqazda geosiyasi rəqabətin transformasiyasi

**A.B. Təhməzova**
*Azərbaycan Tibb Universiteti, İctimai fənlər kafedrası*
*(Səməd Vurğun, 167, Bakı, Nəsimi, AZ1022)*

**Yazışma üçün:**
Təhməzova Aida / e-mail: aida.bayram1958@gmail.com

**Xülasə**

Bu məqalədə Zəngəzur dəhlizinin strateji əhəmiyyəti, Azərbaycanın milli kimliyində önəmi Türkiyə, Rusiya və İranın məsələyə mövqeyi təhlil edilib. Məqalə, bu sahədə rəsmi qurumların təqdim etdiyi kitablar, elmi məqalələr və hesabatlar əsasında hazırlanıb. Məsələnin aktuallığını və son vaxtlar baş verdiyini nəzərə alaraq, mövcud vəziyyətə daha çox işıq salmaq üçün beynəlxalq medianın məlumatlarından da istifadə olunub.

**Açar sözlər:** Зангезурский коридор, Азербайджан, Турция, Южный Кавказ, Россия, Иран, Нахчыван, Вторая Карабахская война

# Зангезурский коридор и трансформация геополитической конкуренции на Кавказе

**А.Б. Тахмазова**
*Азербайджанский Медицинский Университет,*
*Кафедра социальных наук (Самеда Вургуна, 167, Баку, Насими, AZ1022)*

**Для переписки:**
Тахмазова Аида / e-mail: aida.bayram1958@gmail.com

**Аннотация**

В данной статье анализируется стратегическое значение Зангезурского коридора, значение его для национальной идентичности Азербайджана, позиция Турции, России и Ирана по данному вопросу. Статья основана на книгах, научных статьях и отчетах, представленных официальными органами в этой области. Учитывая актуальность вопроса и недавние события, информация международных СМИ была использована для того, чтобы пролить больше света на текущую ситуацию.

**Ключевые слова:** географические информационные системы (ГИС), космические снимки, дистанционное зондирование, NDVI, расшифровка площади, Агдам, оккупация.

## Zangazur Corridor and Transformation of Geopolitical Competition in the Caucasus

**A.B. Tahmazova**
Azerbaijan Medical University, Department of Social Sciences
(Samad Vurgun, 167, Baku, Nasimi, AZ1022)

**For correspondence:**
Tahmazova Aida / e-mail: aida.bayram1958@gmail.com

**Abstract**

This article analyzes the strategic importance of the Zangazur corridor, the importance of it in the national identity of Azerbaijan, the position of Turkey, Russia and Iran on the issue. The article is based on books, scientific articles and reports submitted by official bodies in this field. Given the urgency of the issue and its recent occurrence, information from international media has also been used to shed more light on the current situation.

**Keywords:** Zangazur corridor, Azerbaijan, Turkey, South Caucasus, Russia, Iran, Nakhchivan, the Second Karabakh War

### 1. GİRİŞ

Zəngəzur dəhlizi Azərbaycanın əsas hissəsini onun bir parçası olan Naxçıvan Muxtar Respublikası ilə birləşdirməli olan nəqliyyat dəhlizidir [1], (şək. 1)

1920-ci il 28 apreldə Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra bölgənin böyük hissəsi erməni qüvvələrinin faktiki nəzarəti altında idi. Azərbaycan SSR hökuməti 1920-ci il 30 aprel tarixli notasında Ermənistandan Zəngəzur və Qarabağı öz qoşunlarından təmizləməsini tələb edir.

10 avqust 1920-ci il tarixində Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) ilə Birinci Ermənistan Respublikası arasında bir müqavilə bağlanır. Müqavilənin şərtlərinə görə RSFSR-in Qırmızı Ordusu Ermənistanla Azərbaycan SSR arasında mübahisəli Qarabağ, Zəngəzur və Naxçıvan bölgələrini nəzarətə götürür. 1920-ci il 10 avqustda Rusiya Kommunist (bolşeviklər) Partiyasının (KP-nin) Qafqaz Bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini

Ermənistana vermək barədə qərar çıxarılır. Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan olunur. 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin qurulduğu elan olundu. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbacan KP MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olunur. Qərarda Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi Zəngəzur – əhalisinin bir hissəsi kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölmək təklif edilirdi. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış [2], 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmiş olur [3]. Bununlada Azərbaycan ilə onun bir hissəsi olan Naxçıvan arasında quru əlaqəsi kəsilir. Üstəlik 1929-cu il fevral ayının 18-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 9 kəndinin – Şərur dairəsinin Qurdqulaq, Xaçik, Horadiz, Şahbuz nahiyəsinin Oğbin, Sultanbəy, Ağxəç, Almalı, İtqıran kəndlərinin, Ordubad dairəsinin Qorçevan kəndinin, az sonra isə Kilit kəndinin (1930-cu ilin əvvəllərində) torpaqlarının bir hissəsinin əkin sahələri ilə birlikdə Ermənistan SSR-ə birləşdirilməsi haqqında qərar qəbul etmişdir [4]. Bununlada Azərbaycanın əraziləri arasında məsafə daha da artmışdır.

Zəngəzurun və digər torpaqlarımızın Azərbaycandan qoparılaraq zorla Ermənistana verilməsinin geosiyasi məqsədi Azərbaycanla Türkiyə, Türkiyə ilə Qafqaz və Türküstan arasında quru yolla əlaqələrin kəsilməsi və Azərbaycan dövlətçiliyinin və türk varlığının məhv edilməsi siyasətinin gerçəkləşdirilməsi olub.

2020-ci ilin noyabrında Azərbaycanın qələbəsi ilə başa çatan İkinci Dağlıq Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda balanslar dəyişdi. Müharibədən sonrakı dövr yenidən formalaşdırılarkən adı ancaq Azərbaycan ictimaiyyətinin gündəmində olan Zəngəzur beynəlxalq siyasi müzakirələrin mərkəzinə çevrildi.

Müharibədən sonrakı 44 günlük atəşkəs sazişinin 9-cu maddəsində Naxçıvanla Bakı arasında nəqliyyat imkanlarının təmin edilməsi tarixən Azərbaycan ərazisi olsa da, 1920-ci illərdə sovetlərin əli ilə Ermənistanla birləşdirilib və hələ də Ermənistanın sərhədləri daxilində qalmaqdadır və Azərbaycanla Naxçıvan arasında torpaqla əlaqəni kəsir. Buna səbəb olan təqribən 43 kilometr uzunluğunda Zəngəzur dəhlizini gündəmə gətirəcəyi məlum idi.

Maraqlısı odur ki, ötən əsrdə bu tarixlərlə bağlı müzakirələrin mərkəzində Zəngəzur dayanırdı. 1920-ci ildə SSRİ Qafqazı formalaşdırarkən, Zəngəzur bu geosiyasi dizaynın əsas bölgələrindən biri idi. Onun indiki geosiyasi əhəmiyyətini belə ümumiləşdirmək olar: Dəhliz açılarsa, Naxçıvan Muxtar Vilayəti ilə Azərbaycan arasında əvvəllər mövcud olmayan yerüstü

əlaqə yaranar. Türkiyədən Orta Asiyaya fasiləsiz quru nəqliyyatı olacaq, ona görə də dəhlizi "Turan dəhlizi" adlandıranlar da var.

Son zamanlar Zəngəzur dəhlizi ilə bağlı müsbət siqnallar gündəmə gəlib. Lakin İranın narahatlığı ilə yanaşı, Ermənistanın alternativ marşrut planlarının olması iddiaları və prosesin ləng getməsi kimi problemlər də var. Lakin Azərbaycan və Türkiyə çox həvəsli görünür, Rusiya isə vəziyyətdən razı görünür.

**2. Zəngəzurun Azərbaycanın milli kimliyində önəmi**

Zəngəzur Azərbaycan üçün təkcə Naxçıvana açılan qapı deyil, onun Azərbaycanın tarixində və milli kimliyində çox xüsusi yeri var. Bu baxımdan Zəngəzur müzakirələrinin yalnız bu günə aid olduğunu düşünsək, böyük səhv etmiş olarıq. Zəngəzurun taleyi 20-ci əsrin əvvəllərində SSRİ-nin Qafqazı yenidən formalaşma prosesində mərkəzi mövqeyə qoyması ilə müəyyənləşdi və bu günə qədər uzanan müzakirələrin əsası qoyuldu.

Əslində, əvvələr Zəngəzur, Naxçıvandan Qarabağa, o cümlədən Zəngilan, Qubadlı və Laçına qədər uzanan böyük bir rayon idi. Zəngəzurun taleyi 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən və sosialist hökuməti qurulandan sonra dəyişməyə başladı. SSRİ idarəçiləri əvvəlcə Zəngəzur kimi tanınan rayonu bütünlüklə Ermənistana vermək niyyətində olsalar da, sonradan təslim olub Zəngəzuru iki yerə böldülər. Qərbi Zəngəzur Ermənistana verildi, Şərqi Zəngəzur isə Azərbaycanın tərkibində qaldı.

1933-cü ildən etibarən Zəngəzur adı rəsmən xəritələrdən silinmiş və unudulmağa çalışılmışdır. Bu səylər Zəngəzuru Azərbaycan türk millətçiliyinin mühüm hədəfinə çevirdi. Bu prosesdə Zəngəzurun tarixi Azərbaycan torpağı olması və onun vətənə qaytarılması zərurəti millətçilik istəyi kimi formalaşıb. Azərbaycan millətçi ədəbiyyatında Ermənistana "Qərbi Azərbaycan" deyilir. Azərbaycan millətçiliyinin Qərbi Azərbaycan idealına görə Ermənistan adlı dövlətin torpaqları Azərbaycana məxsus olduğu üçün geri alınmalıdır. İşin ən vacib məqamı, Zəngəzur məsələsi Qərbi Azərbaycan idealında imtiyazlı yer tutur.

SSRİ-nin Zəngəzuru parçalamaq, adını xəritədən silmək cəhdləri, Qərbi Azərbaycan ideyası, Azərbaycan-Ermənistan müharibəsi, Qarabağın və digər rayonların işğalı Zəngəzur məsələsini Azərbaycanda sosial vəziyyətə çevirdi.

**3. Azərbaycanın bu məsələyə razılığı**

Azərbaycan bir dövlət olaraq Zəngəzura dair tarixi iddiasını qoruyub saxlasa da, bu gündən məqsədi Qərbi Zəngəzuru Azərbaycana birləşdirmək deyil. Çünki Zəngəzura qarşı mümkün hərbi əməliyyat hər şeyi alt-üst edə bilər həmçinin Rusiya və Qərb güclərini Azərbaycana qarşı səfərbər edə bilər.

Azərbaycanın əsas məqsədi Naxçıvana və Türkiyəyə quru çıxışı əldə etməklə Naxçıvanın geosiyasi imkanlarını dirçəltmək və onu mühasirədən azad etməkdir. Naxçıvanın Azərbaycanla quru əlaqəsinin olmaması həm Azərbaycanın, həm də Türkiyənin hərəkətliliyini azaldır. Bu əlaqənin kəsilməsi Azərbaycanı və Naxçıvanı İrandan asılı vəziyyətə salır. Naxçıvan həm də Qafqazda kommersiya tranziti və enerji marşrutları ilə bağlı müzakirələrdən kənarda qalıb. Üstəlik, Gürcüstan və İran Azərbaycanın enerji və tranzit imkanlarından yararlandığı halda, Azərbaycanın bir hissəsi olan Naxçıvan nisbətən məhrumdur.

Azərbaycan özünü Rusiyanın, Qafqazın və Mərkəzi Asiyanın yol və enerji tranzitinin mərkəzinə çevirərək, Avrasiya coğrafiyasında əhəmiyyətini artırmağı, enerji dəhlizi, xüsusilə Xəzər və onun ətrafı ilə bağlı müzakirələrdə mərkəzə çevrilməyi hədəfləyir. Türkiyə ilə Türk dünyası arasında hər cəhətdən körpü olmaq hədəfini daşıyır.

Azərbaycan Zəngəzur dəhlizini regional sabitliyin, rifahın, əməkdaşlığın və sülhün əsaslarından biri kimi təqdim edir. O, həm də Zəngəzuru Ermənistanla münasibətlərini normallaşdırmaq və əbədiləşdirmək və İkinci Qarabağ müharibəsində qazandığı uğurları təmin etmək üçün faydalı geosiyasi fürsətə çevirməyi hədəfləyir.

**4. İranı qəzəbləndirən səbəblər**

İran açıq şəkildə Zəngəzur dəhlizinin əleyhinədir. O, bu layihəni müəyyən qlobal plan çərçivəsində özünə qarşı məqsədli, könüllü əməliyyat kimi şərh edir. Tehranın fikrincə, Zəngəzur bədxassəli, geniş və çoxölçülü beynəlxalq sui-qəsdlə eyniləşdirilir ki, o, sadə bir dəhlizdən kənara çıxmaqla ölkə sərhədlərini aşmağa çalışır. İrana görə, Zəngəzur dəhlizi Ermənistan-İran quru sərhədlərini aradan qaldıran, Tehranın dünyaya açılmasının qarşısını alan, İsrail kimi düşmən kimi müəyyən etdiyi dövlətlərin əhatəsində qalmasına imkan verən layihədən başqa bir şey deyil.

İran üçün Zəngəzur dəhlizi İkinci Qarabağ müharibəsindən sonra İranı kənarlaşdıran Qafqaz məsələsinin təcəssümü deməkdir. İranın fikrincə, dəhliz açılarsa, İranın Azərbaycanla Ermənistan arasındakı münasibətlərdə “imtiyazlı mövqeyi” sarsılacaq, Azərbaycanın İranın Naxçıvana çatmasına ehtiyacı azalacaq, İranın Azərbaycanla, o cümlədən Naxçıvanla iqtisadi, siyasi və iqtisadi əlaqələri zəifləyəcək.

Naxçıvanla Azərbaycan arasında birbaşa yol olmadığından ikisi arasında əlaqə həmişə İran vasitəsilə təmin edilir. Eyni şey Türkiyədən çıxıb qurudan Orta Asiyaya gedən yük maşınlarına da aiddir. Dəhliz bu imtiyazlı mövqeyi sarsıdacaq və tranzit keçidlərindən daxil olan külli miqdarda vəsaiti və ən əsası onun strateji əhəmiyyətini azaldacaq.

Zəngəzur dəhlizinin açılmasını da Ermənistanla münasibətləri normallaşdırmaq yolu hesab edən Türkiyə dəhliz açılanda Ermənistanın Qərbə açılan qapısı olacaq. Bu da öz növbəsində İranın Ermənistan bazarında ticarət imkanlarını azaldacaq və Türkiyənin Ermənistan bazarında üstünlük təşkil etməsi ehtimalını yaradacaq. Türkiyə-Ermənistan münasibətlərinin normallaşması Türkiyənin Qafqazda təsirini artıracaq, eyni zamanda İranın xüsusilə Azərbaycan üzərində təsirini azaldacaq. Bu, İranın Xəzərdən Fars körfəzinə qədər uzanan enerji dəhlizinə çevrilmək üçün bütün səylərini puça çıxaracaq. ABŞ və İsraillə regional rəqabətdə məğlub olacaq və bu, nüvə kimi məsələlərdə əlini zəiflədəcək.

Bundan başqa İran, Zəngəzur dəhlizi, Türkçü-turançıların tarixi istəyinin reallaşmasına və türkçülüyün güclənməsinə zəmin yaradacaq, Azərbaycanın İrana ehtiyacı azaldıqca İrana qarşı daha aqressiv hərəkət etmək imkanı tapacaq, Azərbaycanın iqtisadi cəhətdən güclənməsi öz ölkəsini özünə cəlb edəcək. Azərbaycanı İranın ən böyük etno-milli qruplarından biri sayılan türklərə.O, həmçinin düşünür ki, bütün bunlar Güney Azərbaycan Milli Hərəkatı kimi tanınan İranda Azərbaycan türklərinin millətçi hərəkatını gücləndirə bilər.

Bundan başqa İran, Zəngəzur dəhlizinin, Türkçü-turançıların tarixi istəyinin reallaşmasına və türkçülüyün güclənməsinə zəmin yaradacağını, Azərbaycanın İrana ehtiyacının azalması ilə İrana qarşı daha aqressiv hərəkət etmək imkanı tapacağını, Azərbaycanın iqtisadi cəhətdən güclənməsinin İrandakı ən böyük etno-milli qruplardan biri sayılan Türklər üçün Azərbaycanı diqqət mərkəzinə çevirəbiləcəyini, bütün bunların da Güney Azərbaycan Milli Hərəkatı kimi tanınan İrandakı Azərbaycan Türklərinin millətçi hərəkatını gücləndirəbiləcəyini də düşünür.

**5. Ermənistanın mövqeyi**

Ermənistan İkinci Qarabağ müharibəsində uduzsa da, yeni doğulmuş amorf prosesdə mühüm mövqeyə gəlib. Onların Ermənistanla münasibətlərinin normallaşması Azərbaycan və Türkiyənin müharibədə qazandığı və Qarabağ zəfərinin çoxşaxəli geosiyasi qazanclara çevrilməsində çox mühüm amil olacaq. Digər tərəfdən, İranın Zəngəzur dəhlizini zəiflətmək üçün Fars körfəzindən Gürcüstana marşrut yaratmaq istəyi və cəhdi də Ermənistanın geosiyasi əhəmiyyətinin artmasının göstəricisidir.

Zəngəzur dəhlizi Ermənistana qurduğu geosiyasi mühasirədən çıxış yolu təklif edir. O, Türkiyə və Azərbaycanla münasibətlərini yaxşılaşdırmaqla Qafqazda yaranmaqda olan prosesdən faydalanmaq üçün geosiyasi fürsət təqdim edir. Mühasirədən qurtulan Ermənistan nisbi iqtisadi rifahı, zənginliyi, təhlükəsizliyini, inkişaf etmiş demokratiyasını və Qərblə yaxşı münasibətlərini inkişaf etdirmək, işsizliyi və kütləvi yoxsulluğu aradan qaldırmaqla insan miqrasiyasının qarşısını almaq imkanı tapa bilər.

Zəngəzur dəhlizi həm də Ermənistanın İranla münasibətlərini balanslaşdırmaq imkanı verir. İrəvan administrasiyası İran-Ermənistan münasibətlərinin Qərb dövlətləri, xüsusilə də ABŞ-ın gözündə Ermənistanın imicinə xələl gətirdiyini bilir. Ermənistanın baş naziri Nikol Paşinyanın xarici siyasət məqsədlərindən biri də Ermənistanın İranla münasibətlərini İrəvanın Qərblə münasibətlərinə xələl gətirməyəcək şəkildə yenidən dizayn etməkdir. Zəngəzur dəhlizi bu fürsəti Ermənistana təqdim edir.

İkinci Qarabağ müharibəsinin ən çox diqqətdən kənarda qalan məsələlərindən biri də Ermənistanı İran, Türkiyə və Rusiya kimi region ölkələri üçün rəqabətli münaqişə zonasından çıxarmaq istəyən Paşinyan üçün çox mühüm fürsət yaratmasıdır. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, Türkiyə və Gürcüstanla münaqişələri onu təcrid vəziyyətinə salmaqla onun siyasi manevr imkanlarını məhv etmişdi. Bu vəziyyət Ermənistanı Rusiyadan asılı, İrana qarşı zəif, Türkiyə, Azərbaycan və Gürcüstanın mühasirəsində saxladı. Paşinyan bu prosesi dəyişdirərək daxili və xarici siyasətdə yeni imkanlardan istifadə etməyə çalışır. İkinci Qarabağ müharibəsi və Zəngəzur dəhlizi Paşinyana bu vəziyyəti dəyişmək imkanı verir.

Ermənistanın atəşkəs razılaşmasına görə Bakı ilə Naxçıvan arasında marşrut açmaq öhdəliyi olsa da, Paşinyanın bunu həyata keçirməsi üçün ciddi çətinliklər var. İranın təzyiqi və Rusiyadakı bəzi dairələrin istəkləri ucbatından Ermənistanda da müzakirələr aparılır, alternativ yol axtarışları aparılır. Zəngəzura alternativ sayılan yollar Ermənistanın mərkəzi rayonlarından keçməsi, Azərbaycan və Türkiyənin istəksizliyi, xərc və maliyyə problemi, vaxt məsələsi, təhlükəsizlik və hüquqi problemlərlə bağlı uzundur. Yuxarıda göstərilən amillər də Zəngəzur dəhlizinin şansını artırır.

### 6. Türkiyənin mövqeyi

Aydındır ki, Zəngəzur dəhlizi Türkiyə-Azərbaycan münasibətlərinin ölçülərini, keyfiyyətini və xarakterini dəyişəcək və Türkiyənin Qafqaz siyasətinin transformasiyası ilə nəticələnəcək. Azərbaycan-Türkiyə Qafqazda iqtisadi, hərbi, siyasi, enerji və nəqliyyat kimi sahələrdə əməkdaşlığı getdikcə şaxələndirəcək.

Zəngəzur dəhlizi o deməkdir ki, Türkiyə Qafqazda Rusiyaya, xüsusən də İrana qarşı tarixi rəqabətdə uzun yol qət edə bilər. Bu keçid Türkiyənin İran üzərindən Orta Asiyaya göndərdiyi yük maşınları üçün də yeni alternativ yaradacaq. Bu alternativin iqtisadi qiymətləndirilməsi tam olaraq edilə bilməsə də, Türkiyənin İrandan asılılığı azalacaq və İrana qarşı bazarlıq imkanı yaranacaq. Üstəlik, Ankaranın Bakıya daşınmasında İranın əhəmiyyətini azaldacaq.

Üstəlik, Türkiyənin Azərbaycanla Xəzər dənizində inkişaf etdirə biləcəyi layihələrə görə Türkiyənin şərq-qərb, cənub-şimal dəhlizi və enerji tranziti ilə bağlı müzakirələrin mərkəzinə çevrilməsi ehtimalı var.

Dəhliz sayəsində Türkiyənin Naxçıvana sərmayələri artacaq və Türkiyə-Naxçıvan münasibətləri yeni bir prosesə qədəm qoyacaq. Türkiyənin Qafqaz sərhədlərindəki vilayətləri iqtisadi cəhətdən güclənəcək.

Dəhliz təkcə Türkiyənin Azərbaycanla münasibətlərində deyil, həm də Türkiyə-Rusiya münasibətlərində enerji və nəqliyyat sahələrində müxtəlif əməkdaşlıq sahələri yaradacaq.

Zəngəzur dəhlizi Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasını, ən azından qapıların açılmasını zəruri edir. Dəhlizin açılması Türkiyə-Ermənistan münasibətlərinin yaxşılaşması üçün mühüm sınaq meydançası olacaq.

**Rusiya niyə buna mane olmur?**

Rusiyanın Ermənistanla Azərbaycan arasında imzaladığı 10 noyabr 2020-ci il Mübarizə mətnindən aydın şəkildə anlaşılır ki, Rusiya Zəngəzur dəhlizini istəyir. Atəşkəs mətnində Ermənistanın Xankəndinə çatması üçün açılan Laçın dəhlizi müqabilində Azərbaycanın Ermənistan üzərindən Naxçıvana çatacağı nəzərdə tutulur. Mətndə hər iki dəhlizin təhlükəsizliyinin Rusiya tərəfindən təmin ediləcəyi də bildirilir.

Rusiya yeni dövrdə Laçın və Zəngəzur dəhlizləri vasitəsilə Qafqazda ənənəvi fəaliyyətini təsdiqləmək və Qafqazdan keçən bütün tranzit, nəqliyyat və enerji xətlərini geostrateji imkan kimi öz iradəsi çərçivəsində formalaşdırmaq istəyir. Dəhliz sayəsində Türkiyə, Azərbaycan və Ermənistan arasındakı münasibətlərdə və Türkiyənin qurudan türk dünyasına daşınmasında da Rusiya söz sahibidir.

Rusiyanın Zəngəzur dəhlizində üstünlüyü də müzakirələrin formasını və zəminini dəyişir. Bu, Zəngəzur dəhlizi, Turan dəhlizi və Turan qapısı kimi yozumların reallaşmasına kölgə salır. Çətin ki, Rusiya buna imkan versin. Bunun ən gözəl nümunəsi Laçın dəhlizinin vəziyyətidir. Laçın dəhlizi Azərbaycan ərazisi olsa da, ona nəzarət Rusiyanın əlindədir. Rusiya xüsusilə Azərbaycanda yük maşınlarının giriş-çıxışına ciddi məhdudiyyətlər qoyur. Rusiya da Zəngəzur dəhlizində də analoji münasibət göstərəcək. Təbii ki, bütün bunlar Türkiyə və Azərbaycan üçün Zəngəzur dəhlizi vasitəsilə Rusiyadan yeni asılılıq demək olacaq.

İranın Xəzərdən Fars körfəzinə ən yaxın dəhliz olmaq iddiasını məhv etməklə Rusiya həm də Avrasiya coğrafiyasından öz təsir və nəzarət dairəsindən kənarda daşıma imkanlarını aradan qaldırır. Rusiyanın dəhlizə nəzarət etməsi Zəngəzura qarşı hər hansı hərbi əməliyyatın keçirilməsi ehtimalını ləğv edir.

## Ədəbiyyat

1. "Zəngəzur dəhlizi: Bakı və Ankara nə qazanacaq?". 2021-01-24 tarixində orijinalından arxivləşdirilib. İstifadə tarixi: 2021-07-03.
2. Скибицкий А.М. Карабахский кризис // Союз, 1991, №7; Гейдаров Н.Г. В горах Зангезура. Баку, 1986, с.3
3. "Zəngəzurun itirilməsindən 90 il ötür". 2011-07-06 tarixində orijinalından arxivləşdirilib. İstifadə tarixi: 2020-12-02.
4. "Muxtariyyətin 9 kəndi". 2014-09-16 tarixində orijinalından arxivləşdirilib. İstifadə tarixi: 2020-12-02.
5. Musayev, İ. (1996), Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, AMEA Nəşriyyatı.

# AZƏRBAYCAN SSR-DƏ MİLLİ HƏRBİ KADRLARIN HAZIRLANMASINDA C.NAXÇIVANSKİ ADINA HƏRBİ LİSEYİN ROLU (XX ƏSRİN 70-80-Cİ İLLƏRİNİN ƏVVƏLLƏRİ)

**Anar Bəşir oğlu Həmidov**
**anarhamidov@bsu.edu.az**
**Bakı Dövlət Universiteti**

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan SSR, hərb təhsili, Cəmşid Naxçıvanskı adına lisey, milli hərbi kadr.

**Xülasə**

Məqalədə 1969-cu ildə ümumilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişi ölkədə milli hərbi təhsilin əsasının qoyulması,milli hərbi kadrların hazırlanması, C.Naxçıvanski adına hərbi liseyin yaradılması və digərbir neçə vacib işlər görülməsi məsələləri faktlarla göstərilmişdir. Həmçinin Heydər Əliyevin diqqət və qayğısı, şəxsi nüfuzu sayəsində 1972-ci ildən hər il yüzlərlə azərbaycanlı gəncin hərbi təhsil almaq üçün SSRİ-nin müxtəlif ali məktəblərinə göndərilməsi işinə də yer verilmişdir. Bu siyasətin uzaqgörənliklə günümüzdə Müstəqil Azərbaycan Respublikasının ordusunun formalaşmasında mühüm rol oynaması faktları nəticə olaraq işıqlandırılmağa çalışılmışdır.

**Ключевые слова:** Гейдар Алиев, Азербайджанская ССР, военное образование, Лицей имени Джамшида Нахчыванского, национальные военнослужащие.

**Резюме**

В статье отмечается, что приход Гейдара Алиева к политической власти в Азербайджане в начале 1970-х годов открыл новый этап в подготовке национальных военных кадров, азербайджанизации государственных служащих и привел к положительным результатам. Создание военного лицея имени Дж. Нахчыванского и ряд других важных работ по закладке основ национального военного образования в связи с периодом исследований, прием сотен молодых азербайджанцев в различные высшие учебные заведения СССР ежегодно с тех пор. 1972 год. Предпринимались попытки пролить свет на тот факт, что сегодня Независимая Азербайджанская Республика играет важную роль в формировании армии.

**Keywords:** Heydar Aliyev, Azerbaijan SSR, military education, Lyceum named after Jamshid Nakhchivanski, national military cadres.

## Summary

The coming to power of national leader Heydar Aliyev in Azerbaijan in 1969, the foundation of national military education in the country, the training of national military cadres, the establishment of a military lyceum named after J. Nakhchivanski and etc are described by facts. Thanks to Heydar Aliyev's attention and care, and his personal reputation, hundreds of young Azerbaijanis have been sent to various universities in the USSR every year since 1972 for military education. The facts shown that this policy plays an important role in the formation of the army of the Independent Republic of Azerbaijan are investigated.

XX əsrin 70-ci illərinin əvvəllərində Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişi ölkədə milli kadrların hazırlanması, milli dilin inkişaf etdirilməsi və istifadə olunması, dövlət idarəetmə strukturlarında çalışan məmurların azərbaycanlılaşdırılması yönündə yeni mərhələ açdı və müsbət nəticələrə gətirib çıxardı. Bu isə öz növbəsində milli şüura, milli düşüncəyə və milli mentalitetə xas olan kadrların yetişməsinə mane olan əngəlləri aradan qaldırdı. 1978-ci ildə qəbul olunan konstitusiyada Heydər Əliyevin təşəbbüsü və təkidi ilə Azərbaycan dili dövlət dili statusu aldı.

Qeyd etdiyimiz reallıqlar baxımından xüsusilə vurğulamaq lazımdır ki, hal-hazırda Azərbaycanda milli şüurun yüksəlməsinə təkan verən dinamik inkişaf strategiyasının seçilməsi H.Əliyev tərəfindən əsası qoyulmuş idarəetmə fəlsəfəsinin ideya-siyasi özəyini təşkil edir. Sovet dövründə hakimiyyətdə olduğu illərdə H.Əliyevin müxtəlif sahələrin inkişafını təmin edən və ölkənin siyasi və sosial-iqtisadi həyatında tərəqqi ilə nəticələnən təxirəsalınmaz tədbirləri müasir müstəqil Azərbaycanın yaranmasına müsbət təsir edən amillərdən oldu.

Ümumilli lider XX əsrin 70-ci illərində milli hərbi təhsilin əsasını qoymaq üçün bir sıra mühüm işlər gördü.Bu sahədə ciddi addımlar atan Heydər Əliyev tərəfindən həyata keçirilən tədbirlər nəticəsində 1972-ci ildən hər il 300-400 azərbaycanlı gənc hərbi təhsil almaq üçün müxtəlif ali məktəblərə qəbul olunmağa başladı ki, bu rəqəm 80-ci illərin əvvəllərində 800-1000 nəfərə çatdı. Ona da xüsusi diqqət yetirilirdi ki, hərbi məktəbə təhsil almağa göndərilənlərin əksəriyyəti milliyyətcə azərbaycanlı olsun. 1982-ci ildə Azərbaycandan SSRİ-nin ali hərbi məktəblərinə qəbul olunan 1000 nəfərdən 550 nəfəri milliyyətcə azərbaycanlı idi. Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbin açılması Azərbaycanda professional hərbi təhsilin əsaslarını möhkəmlətməklə yanaşı, gənclərin bu sahəyə meylinin artmasına da güclü təkan verdi**[1,36].**

Heydər Əliyev Azərbaycan xalqının öz müstəqilliyinə qovuşacağını görürdü və müstəqil Azərbaycan üçün milli-strateji əhəmiyyət kəsb edəcək məsələlərin, o cümlədən də milli zabit kadrların bazasının yaradılmasına hələ sovet dövründə çalışırdı. Ümummilli lider Heydər Əliyev çıxışlarımn birində deyirdi: "22 il bundan öncə, 1971-ci ildə biz heç bilmirdik ki, Azərbaycan müstəqil respublika olacaqdır. Lakin mən o vaxt Azərbaycanın müstəqilliyi fikri ilə yaşayırdım"**[2].**

Məqsədyönlü siyasətin həyata keçirilməsi nəticəsində yalmz C.Naxçıvanski adına Xüsusi məktəbin məzunlarından deyil, digər ümumtəhsil məktəblərinin məzunları arasından da ölkənin ali hərbi təhsil müəssisəsinə göndərilənlərin sayı artır. İldən-ilə İttifaq ali hərbi təhsil müəssisələrinə respublikadan göndərilənlər arasında da azərbaycanlı gənclərin də saymda artım əldə edildi. 1972-1976-cı ilbrdə Azərbaycandan ölkə ali hərbi məktəblərinə göndərilənlərin statistikası aşağıdakı kimi idi **[6,720]**.

| **İllər** | **Hərbi məktəblərə göndərilib** | | **Daxil olub** | |
|---|---|---|---|---|
| | **Cəmi** | **Azərbaycanlı** | **Cəmi** | **Azərbaycanlı** |
| 1972-ci il | 1616 | 711 | 353 | 81 |
| 1973-cü il | 1700 | 730 | 408 | 98 |
| 1974-cü il | 1514 | 550 | 360 | 112 |
| 1975-ci il | 1210 | 675 | 310 | 121 |
| 1976-cı il | 1128 | 435 | 334 | 130 |
| 1977-ci il | 1040 | 405 | 390 | 152 |

Cədvəldən göründüyü kimi, 1973-cü ildən 1977-ci ilə kimi Azərbaycandan ölkə ali hərbi məktəbbrinə göndərilənlərin ümumi sayında ildən-ilə müəyyən azalma baş versə də, həmin illərdə daxil olan azərbaycanlıların sayında artım olmuşdur. Sonrakı illərdə də azərbaycanlılar arasından İttifaqın ali hərbi məktəblərinə daxil olan azərbaycanlıların sayı artdı. Məsələn, Heydər Əliyevin Moskvada yüksək vəzifəyə təyin oldunduğu 1982-ci ildə respublikadan 1086 nəfər İttifaqın müxtəlif ali hərbi məktəbbrinə daxil oldu. Onlardan 619 nəfəri azərbaycanlı idi. 1983-cü ildə isə Azərbaycandan İttifaq ali hərbi məktəblərinə daxil olan 1206 nəfərin 812-si azərbaycanlı idi **[3].**

Bütün bunların fonunda, azərbaycanlıların hərbi peşələrə yiyələnməsi yolunda yenə də ciddi maneələr yaradılırdı. Ali hərbi məktəblərdə oxuyan azərbaycanlıların sayı olduqca az idi. Hətta Bakı şəhərində yerləşən ali hərbi məktəblərin kursantları arasında azərbaycanlılar çox cüzi sayda təmsil olunurdular.

SSRİ Maarif naziri S.Şerbakov isə rəy kitabına öz fikirlərini belə yazmışdır: "Cəmşid Naxçıvanski adına məktəb, onun kollektivi xalqın ən yaxşı hərbi ənənələrini davam etdirməklə, ölkəmizin gənc müdafiəçilərini tərbiyələndirir və hazırlayır. Qayda-qanun, nizam-intizam, gənc nəslin təlim-tərbiyəsinə diqqət və qayğı, məktəbin kollektivinə böyük hörmət hissi oyatdı məndə. Məktəbin rəhbərliyinə və bütün kollektivinə gələcəkdə də ordumuzun gənc zabit kadrlarının yetişməsində nailiyyətlər arzulayıram. Hərarətli qəbul və məktəblə tanışlıq üçün yaratdığınız şəraitə görə hamınıza minnətdaram. Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış bu məktəb SSRİ məktəbləri üçün nümunəvi bir tədris ocağıdır". Bu isə Stavropol Ali Hərbi Rabitə Mühəndisliyi Məktəbinin rəisi, SSRİ -nin fəxri rabitəçisi general-mayor E.S.İvanovun qəlbindən gələn sözlərdir: "Ölkədə şöhrət qazanmış, tanınmış ixtisaslaşdırılmış hərbi məktəbdə oldum. Hər şey, nə ki, gördüm, sözdə yox, işdə danışır ki, Azərbaycan Respublikasının rəhbərliyi və hökuməti nə qədər diqqət və qayğı göstərir bura. Nə qədər işlər görür böyük Vətənimizin layiqli müdafiəçilərinin yetişməsi və gənc hərbçilərin hazırlanması üçün. Məktəbin rəisinə, pedaqoq-tərbiyəçilərinə ürəkdən gələn təşəkkürümü bildirirəm. Onlar həqiqətən gələcək zabitlərin yetişməsi üçün böyük işlər görürlər. Arzu edirəm ki, daha çox naxçıvanskilər bizim ali hərbi məktəblərə daxil olsunlar"**[4,37].**

Keçmiş Sovetlər İttifaqı dövründə Azərbaycan xalqının hərbi ənənələrini və hərbi peşəkarlıq qabiliyyətini zəiflətmək məqsədi ilə azərbaycanlı gənclər, əsasən SSRİ Silahlı Qüvvələrinin xüsusi hərbi bilik və hazırlıq tələbetməyən hissələrinə xidmətə göndərilirdilər. Məhz həmin vaxt milli hərbi kadrlar yetişdirmək və azərbaycanlı gənclərin Ali Hərbi Məktəblərə daxil olmasına şərait yaratmaq məqsədi ilə 1971-ci ildə keçmiş ittifaq respublikaları arasında ilk və yeganə hərbi məktəbin Azərbaycanda açılması çox böyük hadisə olmuşdur. 1971-ci ildə ixtisaslaşdırılmış hərbi orta məktəbin təsis edilməsi, gələcəkdə görüləcək böyük işlərin başlanğıcı, müstəqil dövlətimizin təhlükəsizliyinin əsas təminatçılarından olacaq güclü ordunun təşkilində ilk addımlar olacaqdı.

C.Naxçıvanski adına Hərbi Liseyin yetirmələri dövlətimizin ərazi bütövlüyü, müstəqilliyi, dövlətçiliyi naminə canlarını belə əsirgəməyiblər. Onlardan 10 nəfərdən çoxu Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb, yüzlərlə məzun müxtəlif orden və medallarla təltif olunub. Bu qəhrəmanların adları Azərbaycanın hərbi tarixinə əbədi həkk olunub. Böyük hörmət və ehtiramla yad etdiyimiz şəhid Milli qəhrəmanlarımız Rasim

İbrahimovun, Əfqan Hüseynovun, Elşad Əhədovun, Mətləb Quliyevin, Eldar Məmmədovun, Çingiz Babayevin, Cəlil Səfərovun və başqalarının adı o cəsur oğulların sırasındadır. Qeyd edək ki, təhsil ocağında tez-tez Azərbaycanın Milli Qəhrəmanlarının xatirəsinə həsr olunan müxtəlif turnirlər keçirilir, onların xatirəsi həmişə əziz tutulur. 2016-cı ilin Aprel döyüşləri zamanı erməni işğalçılarına qarşı döyüşlərdə qəhrəmanlıq və igidlik göstərənlərin arasında Hərbi liseyin məzunları olan zabitlər də var. Onlar komandir kimi üzərlərinə düşən tapşırıqları bacarıqla, peşəkarlıqla yerinə yetirərək cəsarət göstəriblər. İgidlik və hünərləri ilə adlarını qəhrəmanlıq tariximizə yazıblar. Yazıblar ki, sonrakı nəsillər qəhrəmanlığı, igidliyi onlardan öyrənsinlər. Ali Baş Komandan İlham Əliyevin müvafiq fərmanı ilə 2016-cı ilin Aprel döyüşləri zamanı göstərdikləri igidliklərə görə məktəbin məzunu olan polkovnik-leytenant Murad Mirzəyevə (ölümündən sonra) və polkovnik Şükür Həmidova Azərbaycanın Milli Qəhrəmanı fəxri adı verilib **[5].**

Heydər Əliyevin qətiyyətli mövqeyisayəsində bu xüsusi intemat məktəb bağlanmadı, əksinə onun fəaliyyətinin yaxşılaşdırılması üçün lazımi qərarlar qəbul edildi. Məsələn, 1976-cı il aprelin 20-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi vəNazirlər Sovetinin "C.Naxçıvanski adına respublika orta internat məktəbin fəaliyyətinin yaxşılaşdırılması tədbirləri haqqmda", 1978-ci il iyunun 30-da Azərbaycan SSRİ Nazirlər Sovetinin "C.Naxçıvanski adma respublika Xüsusi internat məktəbinin iş şəraitinin yaxşılaşdırılması tədbirləri haqqmda", 1981-ci il iyun ayının 18-də Azərbaycan KP MK vəRespublikaNazirlər Sovetinin "C.Naxçıvanski adına respublika Xüsusi intemat məktəbinin maddi-texniki bazasimn genişləndirilməsitədbirləri haqqmda" qərarları qəbul edildi **[6,717-718]**.

Məktəbin fəaliyyətinin təşkilinə respublika rəhbərliyi tərəfindən göstərilən qayğınm nəticəsi kimi ildən-ilə onun məzunları sırasmdan kursant adı alanlarm sayı da çoxalmağa başladı. Məsələn, 1971-ci ildə C.Naxçıvanski adına Xüsusi internat məktəbinin 21 məzunu, 1975-ci ildə 24 məzunu, 1976-cı ildə 46 məzunu, 1977-ci ildə 68 məzunu, 1980-ci ildə 105 məzunu, 1981-ci ildə 107 məzunu, 1982-ci ildə 103 məzunu, 1983-cü ildə 133 məzunu ölkənin müxtəlif ali hərbi məktəblərinə daxil oldular **[7,74]**.

Heydər Əliyev tərəfindən həyata keçirilən siyasət kursu nəticəsində Azərbaycanın şəhər və qəsəbələrinin, kəndlərinin siması sürətlə dəyişməklə yanaşı, əhalinin sosial-rifah halı da zamanla yaxşılaşmağa başladı. Bu siyasətin nəticəsi idi ki, ilk növbədə azərbaycanlılara hər yerdə münasibət kökündən dəyişdi. Bununla yanaşı respublika təkcə İttifaqda deyil, ondan kənarda da tanınmağa başlandı. Hərbi kadrların hazırlığı kadr strategiyasının inkişafı üçün geniş imkanlar açdı.

Beləliklə, ümummilli lideri Heydər Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasət və təxirəsalınmaz tədbirlər nəticəsində bir çox sahələrdə olduğu

kimi hərbi sferada da inkişafa nail olundu. 70-ci illərdə azərbaycanlıların hərbi kadr hazırlığına buraxılmaması, ali hərbi məktəblərdə təhsil alanlar arasında onların sayını cüzi rəqəmə endirirdi. Bütün bu çətinliklərə baxamyaraq Heydər Əliyev tərəfindən atılan qətiyyətli addımlar nəticəsində bəhs edilən dövrdə ali hərbi məktəblərdə hazırlanan kadrlar arasında azərbaycanlıların sayı artmağa başladı. Həmin dövrdə Heydər Əliyev tətəfindən bu istiqamətdə (hərbi sfera-A.Həmidov) atılan ən mühüm addım Cəmşid Naxçıvanski adına hərbi litseyin yaradılması oldu.

Hərbi kadr hazırlığı həyata keçirən hərbi təhsil sisteminin yaradılması müasir Azərbaycan ordusunun formalaşması və güclənməsində mühüm rol oynadı. Bu gündə Azərbaycanda mövcud ali hərbi məktəblər ordu üçün yüksək ixtisaslı kadrların hazırlığını həyata keçirir.

## ƏDƏBİYYAT SİYAHISI

1. K.Tahirov, G.Səfərəliyeva. Heydər Əliyev Biblioqrafiya elmi.Zərdabi-Nəşr MMC Nəşriyyat Poliqrafiya müəssisəsi. Bakı, 2018, 680 s.
2. http://files.preslib.az/projects/toplu/v2/B_3.pdfHeydər Əliyevin Respublika Ali Sovetində gənclərin nümayəndəbri ib görüşdə çıxışı
3. https://www.elibrary.az/docs/jurnal/jrn2016_576.pdf. Heydər Piriyev. Heydər Əliyev və Azərbaycanda hərb təhsil sistemi. Milli təhlükəsizlik və hərbi elmlər, Bakı, 2016-cı il, cild 2, № 2.
4. Abdulla Qurbani. Mənim hərbi litseyim.Hərbi-nəzəri elmlər, Əbilov, Zeynalov və oğulları.Bakı, 2002, 352 s.
5. https://ordu.az/az/news/163983/umummilli-lider-heyder-eliyev--cemsid-naxcivanski-adina-herbi-lisey-menim-ucun-bir-ovladdirVahid Məhərrəmov.Ümummilli lider Heydər Əliyev: Cəmşid Naxçıvanski adına Hərbi Lisey mənim üçün bir övladdır. Azərbaycan Ordusu, Bakı, 13 aprel. 2020.
6. Mehman Süleymanov. Azərbaycanın hərb tarixi. Sovet dövrü. II cild. Firuzan, Tehran, 2011, 734 s.
7. Ramiz Duyğun. Mənim unudulmaz məktəbim. Yazıçı,Bakı, 2002, 94 s.

# XV ƏSRİN II YARISINDA VENESİYALI SƏFİR-DİPLOMATLARIN SƏFƏRNAMƏLƏRİNDƏ AZƏRBAYCAN

**Orucova Aynur**
**AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu**
**aynur.orucova1995@gmail.com**

**Açar sözlər: Venesiya respublikası, diplomatik əlaqələr, səyahət gündəlikləri**

XV əsrin ikinci yarısı tariximizin mühüm bir mərhələsini əhatə edir. Bu məqalə XV əsrin ikinci yarısında Azərbaycan tarixini öyrənmək üçün əhəmiyyətli olan Venesiya səfir-diplomatlarının səyahət gündəliklərinin araşdırılması haqqındadır. Bu səyahət gündəlikləri siyasi hadisələri, o dövrün sosial-iqtisadi və mədəni həyatını əks etdirir. Belə ki, baş verən siyasi hadisələrin təsviri, istər dövlətin xarici siyasəti, istərsə də daxili proseslər və digər məsələlər bu səfərnamələrdə müəlliflər tərəfindən qeydə alınmışdır. Bu səbəbdən ümumilikdə məqalədə araşdırılmış səfərnamələr bu gün də tariximiz üçün öz aktuallığını qoruyur.

**Ключевые слова: Венецианская Республика, дипломатические отношения, дневники путешествий**

## АЗЕРБАЙДЖАН В ПУТЕВЫХ ДНЕВНИКАХ ВЕНЕЦИАНСКИХ ПОСЛОВ-ДИПЛОМАТОВ ВО ВТОРОЙ ПОЛОВИНЕ XV ВЕКА

**Оруджева Айнур**

Вторая половина XV века - важный этап в нашей истории.В статье исследуются путевые дневники венецианских послов-дипломатов, которые являются важным источником для изучения истории Азербайджанаво второй половины XV века. Эти дневники путешествий отражают как политические события, так и социально-экономическую и культурную жизнь того периода.Таким образом, описание политических событий, внешней политики государства, а также внутренних процессов и других вопросов было зафиксировано авторами в этих путевых заметках. По этой причине в целом рассмотренные в статье рассказы о путешествиях до сих пор актуальны для нашей истории.

**Keywords: Republic of Venice, diplomatic relations, the travel diaries**

## AZERBAIJAN IN THE TRAVEL DIARIES OF THE VENETIAN AMBASSADORS-DIPLOMATS IN THE SECOND HALF OF THE 15TH CENTURY

**Orujova Aynur**

The second half of the 15th century covers an important period of our history.This article is about the research of the travel diaries of the Venetian ambassadors-diplomats which are important for learning the history of Azerbaijan during the second half of the 15th century. These travel diaries reflect political events also social-economic and cultural life of this period.. Thus, the description of political events, foreign policy of the state, as well as internal processes and other issues were recorded by the authors in these travel diaries. For this reason, in general, the traveldiariesstudied in the article are still relevant for our history.

***

Azərbaycan tarixinin XV əsrin ikinci yarısı dövrünün ilkin mənbələr əsasında öyrənilməsi mənbəşünaslıq baxımından çox aktual məsələdir. Belə ki, XV əsrin ikinci yarısı Azərbaycan tarixi ilə bağlı müxtəlif dilli mənbələr mövcuddur. İstər farsdilli qaynaqlar, osmanlı türkcəsində olan qaynaqlar, istərsə də Avropa dillərində olan mənbələr dövrün dərin şəkildə araşdırılması və hadisələrin öyrənilməsində və analiz edilməsində müstəsna rola malikdir. Bu mənbələr içərisində italyandilli qaynaqlar isə xüsusi əhəmiyyətə malikdir. Çünki tez-tez ardıcıl olaraq Ağqoyunlu sarayına göndərilən səfir-diplomatların yol boyu gördüklərini qeydə alması və daha sonra isə onları səfərnamə şəklində nəşr etdirməsinin dövrün siyasi hadisələrinin, eyni zamanda ictimai-sosial və mədəni proseslərin öyrənilməsindəki əhəmiyyəti danılmazdır.

XV əsr Azərbaycan tarixinin ən mühüm mərhələlərindən birini təşkil edir. Əsrin əvvəllərində Qaraqoyunlu tayfasının Azərbaycanda siyasi hakimiyyəti ələ keçirməsi və torpaqları vahid sərhədlər çərçivəsində idarəyə başlaması Azərbaycan torpaqlarında türk hakimiyyyətini bərpa etmişdi. Əsrin ikinci yarısında Azərbaycan Qaraqoyunlu dövlətinin zəifləməsi nəticəsində Bayandurların bölgədə siyasi hakimiyyəti ələ alması ilə yeni bir dövr başlandı. Bu zaman çərçivəsi həm daxili siyasi proseslərdə, həmçinin beynəlxalq münasibətlərdəAğqoyunluların mühüm rol oynadığı bir dövrdür. Çünki dövləti vahid mərkəzdən idarə etmək siyasəti yürüdən Həsən Padşah həm daxili inkişaf proseslərinə, həm də Avropa ölkələri ilə siyasi diplomatik münasibətlərin qurulmasına böyük önəm verirdi[7, 384].

Uzun Həsənin xarici siyasətində qeyd etdiyim kimi Avropa ölkələri ilə əlaqələrin yüksələn xətt üzrə inkişaf etməsi əsas prioritet məsələlərdən idi.

Həmçinin onu unutmaq olmaz ki, bu əlaqələrin qurulmasının əsas təhrikedici amillərindən biri də Osmanlı dövləti idi. Həmin dövrün siyasi hadisələrinə nəzər yetirsək, Osmanlı dövlətinin həm Qərb dövlətləri, həm də Şərqdə Ağqoyunlu dövlətiüçün narahatlıqlar yaratması bu iki tərəfin yaxınlaşmasını qaçınılmaz etmişdi. Bəs nə üçün Ağqoyunlu dövləti Qərb üçün bu qədər önəm daşıyırdı? O zaman Qərbin yeganə qorxusu olan Osmanlı dövləti hər iki tərəf üçün niyə bu qədər təhlükəli idi?

Qısa zaman ərzində böyük bir ərazini öz hakimiyyəti altında birləşdirən Həsən Padşah Qərbdə Osmanlı dövlətinin irəliləyişinin qarşısını alacaq yeganə böyük qüvvə hesab olunurdu. Ağqoyunlu dövlətinin Qərblə ən genişmiqyaslı əlaqə saxladığı dövlət isə Venesiya idi. Heç təsadüfi deyil ki, Ağqoyunlu-Venesiya münasibətləri hələ XV əsrin 60-cı il illərinin ilk yarısından yaranmışdı. Venesiyanın Şərq ölkələrilə ticarətində əsas yerlərdən birini Ağqoyunlu dövləti tuturdu. Azərbaycan ipəyi Venesiyada həddən çox yüksək dəyərləndirilirdi. İstər iqtisadi amillər, istərsə də Osmanlı dövlətinin həm Şərqə, həm də Qərbə doğru irəliləməsi bu iki dövlətin münasibətlərinin intensiv xarakter almasına səbəb olmuşdu.

Bu səbəbdən Venesiyada Ağqoyunlu dövləti ilə münasibətlərə xüsusi önəm verilir və bu münasibətlərin həm siyasi, həm də iqtisadi cəhətdən Venesiyaya sərf edən istiqamətdə inkişaf etdirilməsi üçün tədbirlər görülürdü. Qeyd etmək lazımdır ki, bu istiqamətdə əsas fəaliyyət Ağqoyunlu sarayına ən etibarlı şəxslərin səfir kimi yollanması və eyni zamanda bu səfirlərin əsas məqsədlərininisə Ağqoyunlu-Osmanlı münasibətlərinin hər zaman ən gərgin halda saxlanması və daimi müharibəyə təhrik edilməsi və həmçinin Venesiya üçün ən yaxşı iqtisadi-ticari imkanların yaradılması idi[5, 515].

XV əsrin ikinci yarısı həmVenesiya-Osmanlı, həm də Ağqoyunlu-Osmanlı münasibətlərinin gərgin həddə olması hər iki dövləti qarşılıqlı surətdə səfir yollama vacibiyyətində edirdi. Ağqoyunlu sarayına səfir-diplomat kimi göndərilən şəxslərin yol boyu qarşılaşdıqlarını yazması və bunların ümumi səfərnaməni təşkil etməsi Azərbaycan tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malik mənbələr sırasındadır. Çünki bu şəxslər yazdıqları məlumatları ya öz gözləri ilə görmüş, ya da ki bölgənin insanlarından eşitmişdilər.

XV əsrin ikinci yarısında Venesiya Respublikası tərəfindən Ağqoyunlu sarayına elçi-səfir kimi göndərilən şəxslərin səfərnamələrinə diqqət yetirmək və bu səfərnamələrin nələrdən bəhs etməsinə baxmaq və onları mənbəşünaslıq cəhətdən təhlil etmək lazımdır.

1471-1473-cü illərdə Ağqoyunlu sarayında səfir olmuş Katerino Zeno vəzifəyə təyin olunduqdan sonra bu müddət ərzində yaşadıqlarını, gördüklərini qələmə almışdı. O, Venesiyaya geri döndükdən sonra bunları bir səfərnamə halında nəşr etdirsə də, sonradan bu əsər yoxa çıxır. Daha sonra isə Covanni

Battista Ramusio K.Zeno tərəfindən Venesiya Respublikasına zaman-zaman göndərilən məktublar və eyni zamanda bəzi dostlarına yazdığı məktubları toplayıb onun səfərnaməsini toplamağa çalışmışdı. Lakin bununla bərabər Ramusio həm Barbaro, həm də Ancioellonun məlumatlarından da istifadə etmişdir. Bunu səfərnaməyə diqqət yetirdikdə də oxşar məlumatları görmək mümkündür.

Ramusio tərəfindən tərtib olunmuş bu əsərdə Katerino Zenonun səyahətnaməsi iki hissədə təqdim edilmişdir. Birinci hissədə Uzun Həsənin Cahanşahı məğlub etməsi, hakimiyyətini daha da möhkəmləndirməsi, Zenonun Ağqoyunlu sarayına səfir kimi gəlməsi, onun burada qarşılanması, saraydakı fəaliyyəti, Ağqoyunlu-Osmanlı döyüşlərində iştirakı və bu döyüşləri təsvir etməsi, Uğurlu Məhəmmədin atasına qarşı çıxması kimi hadisələr öz əksini tapmışdır[1, 5].

K.Zenonun səfərnaməsindən onun bura hansı məqsədlərlə gəldiyini öyrənirik. Zenonun təcrübəsi və eyni zamanda sarayla qohumluğu onun məqsədini asanlıqla yerinə yetirəcəyinə Venesiya tərəfdən ümidləri artırırdı. Lakin bəzən Zeno uğursuzluğa da düçar olurdu.

Zenonun səfərnaməsi Uzun Həsənin Cahanşahla mübarizəsi və onu məğlub etməsi və böyük bir dövlət qurması hadisələrinin təsviri ilə başlayır. Səfərnamədə Uzun Həsənin imperiyasının sərhədləri bu şəkildə əks olunurdu:*“ Hind dənizinə qədər uzanan bütün torpaqları hakimiyəti altına alıb güclü bir imperiya yaratdı. Bu imperiyanın sərhədləri belə idi: şərqdə Sind çayı və Tatarıstan, qərbdə Gürcüstan, Trabzon, Qaraman, Suriya və Ermənistan, cənubda Ərəbistan və Hind dənizi, şimalda Bakı dənizi”*[1, 8 ]. Demək ki, Uzun Həsənin imperiyasının sərhədləri Hind dənizinə qədər uzanırmış, bu da Uzun Həsənin böyük bir bölgəni öz hakimiyyətinə tabe etdiyini göstərir.

Səfərnamədən öyrənirik ki, K.Zeno nə qədər şaha vədlər versədə, Venesiyadan silahla bağlı yardım tədarükünün toplanması ilə əlaqədar heç bir xəbər çıxmırdı. Bu isə Uzun Həsəni ümidsizləşdirir. Lakin Zeno daim şaha bildirirdi ki, Venesiya Respublikası məhz bu işlə məşğuldu və Venesiya sözündə durmaqla bağlı heç vaxt səhv etməz. Buna görə Venesiya dərhal Barbaronun Ağqoyunlu sarayına müxtəlif hədiyyələrlə yollayır. Barbaronun gəlişi zamanı gətirdiyi hədiyyələr qeyd olunarkən *“altı qala dağıdan böyük top, çoxlu fitilli tüfəng və döyüş tüfəngi, barıt və digər silah-sürsat, altı nəfər topçu, yüz nəfər tüfəngçi ilə top işlətmədə mahir olan əsgərlər”* dən ibarət olduğunu öyrəniriksə, Barbaronun səfərnaməsində nəzər yetirdikdə bu hədiyyələr daha geniş şəkildə təsvir olunur [1, 15].

Zenonun Dəspina xatunla qohumluğu onun hər yerdə sərbəst dolaşmasına imkan yaradırdı. Bu səbəbdən də o, ölkənin istənilən yerini gəzir, hərbi səfərlərdə iştirak edirdi. Zeno Ağqoyunlu ordusunu da təsvir edərkən: *“ heç bir yerdə buranın atlı əsgərlərindən ibarət olan bir ordudan daha yaxşı atlı*

*əsgərlərə sahib olan başqa bir ordu görülməmişdir. Kişilər uzun boylu və olduqca güclüdürlər. Silahlarını istifadə etməkdə olduqca bacarıqlıdırlar. O qədər ki, kiçik bir qrupun düşmənin böyük bir bölümünü məğlub edə biləcəyini deyirlər"* qeyd edirdi[1, 17; 18].

İkinci bölmə Şeyx Heydərin fəaliyyəti, onun Çərkəz ölkəsinə hücumları, onun öldürülməsi, İsmayılın qəhrəmanlıqları,Ağqoyunlu dövlətinin süqutu və Səfəvi dövlətinin yaranması,Çaldıran döyüşü kimi hadisələri özündə ehtiva edir. Lakin bu hadisələrə Katerino Zeno şahidlik etməmişdir. Buna görə də bölmədə qeyd olunan hadisələrin təsvirinin Ramusio tərəfindən digər mənbələrdən alındığı açıq-aydın bəlli olur.

Şeyx Heydərlə bağlı yazılır: *" ...Şeyx Heydəri Məhəmmədin inancında Əlinin Ömərdən daha çox məqbul olduğu əsasına dayanılan yeni bir axının təbliği ilə "müqəddəs", "usta" vəya "peyğəmbər" deyə xatırlamaq lazımdır. Ətrafında toplanan tərəfdarları arasında müvəffəqiyyəti o qədər böyükdü ki, bu zaman onu müqəddəs, demək olar ki, ilahi bir varlıq(insan) olaraq təsəvvür edirlər"*[1, 43].Bu isə Şeyx Heydərin o dövrdə insanlar arasındakı nüfuzunu göstərir.

Bölmədə eyni zamanda İsmayılın qələbələri və Təbrizi ələ keçirməsi və geniş əraziləri tutaraq dövlətinin sərhədlərini genişlədirməsi, Şeybani xanı məğlub etməsi və bundan sonra artıq Osmanlı sultanı və Misiri sultanını narahat etməsi də qeyd olunur: *" ...bu zəfər İsmayılın bu zamana qədər qazandığı ən böyük zəfər idi. Çünki bütün şərq ölkələrində şöhrətli və böyük döyüşçü olaraq sayılan düşmənlərlə müharibə aparmışdı. Buna görə Misir sultanı ilə Osmanlı sultanı İsmayılın qüdrətindən həddən çox qorxdular"*[1, 57]. Heç də təsadüfi deyil ki, bütün bunlar ən sonda Osmanlı sultanı Səlimi Şah İsmayılla qarşı-qarşıya qoydu. Dövrün iki ən böyük fatehi Çaldıran düzündə əsrin ən böyük savaşında qarşılaşdılar.

Ağqoyunlu dövrünün tarixinin öyrənilməsində ən önəmli mənbələrdən biri Covanni Maria Ancioellonun qeydləridir. Onun Ağqoyunlu sarayına göndərilmiş digər səfirlərdən fərqi Osmanlılara əsir düşməsi və Mehmetin oğlu Mustafanın xidmətinə verilməsidir ki, bunun sayəsində Ancioello Mehmetin Uzun Həsənlə olan döyüşlərində iştirak etmişdi. Onun şəxsən şahidi olduğu hadisələri qeydə aldığı "*History Turchesca" adlı əsəri olduqca qiymətlidir, çünki bu əsərin böyükbir bölümü "Brevenarratione della vita et fatti del signor Ussuncassano"*adıyla 1490-cı ildə nəşr olunmuşdur. Daha sonra onun bu əsəri Ramusionun "Navigationi e Viaggi" kitabının daxilində yenidən XVI əsrdə Venesiyada nəşr edildi.

Ancioellonun əsərini dəyərli edən və eyni zamanda fərqli cəhəti ondan ibarətdir ki, o, yalnız öz gördüklərini , şahidi olduqlarını yazmır, həmçinin digər müəlliflərin qeydlərindən də istifadə etdiyi görünür. O, həm Zenonun, həm də digər səfirlərin Venesiyaya göndərdikləri məktublarla tanış idi.

Ancioello şəxsən Malatya və Otluqbeli döyüşlərində iştirak etmiş və hadisələri əsərində də əks etdirmişdi. O, Malatya savaşından bəhs edərkən bu döyüşdə məğlub olan Osmanlı ordusunun içərisindəki təlaşları da vurğulayır. *"Müharibə üç saatdan çox davam etdi. Hər iki tərəfdən çox sayda insan öldü. Ağqoyunlular çayın sahilinə daha yaxın olduqlarından asanlıqla öz əsgərlərindən yardım ala bilirdilər. Amma türklər dar bir yerdən keçməyə məcbur olduqlarından hər dəfə ya at üzərində ya da üzərək köməyə gəlirdi. Bu səbəbdən də çoxu axıntıya düşüb boğulurdu. Nəhayət, türklər məğlub olub geri çəkilməyə başladılar"*[4, 42]. Ancioellonun qeydinə görə bu döyüşdə osmanlılar 12 min nəfər itki vermiş, ağqoyunlular isə çox az sayda əsgəri ölmüş, bir miqdarı çayda boğulmuş, amma heç əsir verməmişdi[1, 88].

Bunun ardınca Bayburta geri çəkilən Mehmeti təqib etməyə oğulları və bəyləri tərəfindən razı salınan Uzun Həsən yenidən Mehmet ilə döyüşə girir. Döyüşü təsvir edən Ancioello qeyd edir: *" ...elə bir gurultu qopdu ki, nə eşitdiniz, nə də gördünüz ...şiddətli bir vuruşma başladı. Uzun həsənin ordusunun sağ tərəfində Qaraman bəyi Pir Əhməd, Böyük Türkün oğlü Mustafaya məğlub olub Uzun Həsənə tərəf döndü... Uzun Həsən düşmənin onu əhatəyə alacağından qorxub geri çəkilir. Beləcə türklər qalib gəldi"* [4, 45]. Ancioellonun yazdığına görə, Otluqbeli döyüşündə ağqoyunlular 10 min itki vermiş və daha çoxu isə əsir düşmüş, osmanlılardan isə min nəfər ölmüşdü.

Covanni Ancioello əsərində Həsən Padşahın həyatına də yer vermiş, onun Dəspina xatınla evlənməsini, Dəspinənin sarayda öz dinində qalmasını, Həsən Padşahın Dəspinədən olma oğlunun qardaşları tərəfindən qətlə yetirilməsi hadisələrini də qeyd etmişdir. Eyni zamanda Şiraz üsyanının baş verməsini, Uğurlu Məhəmmədin Osmanlıya qaçmasını, daha sonra isə hiylə yolu ilə geri qaytarılması və orada öldürülməsi hadisələrindən də bəhs edir.

Covanni Ancioello eyni zamanda daha sonrakı illərin hadisələrinə də yer vermiş, Yaqub padşah, Rüstəmin zamanı, Əlvəndin hakimiyyətə gəlməsi və az sonra Sufi tərəfindən öldürülməsi, İsmayılın hakimiyyətə gəlməsi və böyük imperiya yaratması və Çaldıran savaşı kimi hadisələr haqqında da məlumat vermişdi.

Ağqoyunlu-Osmanlı ziddiyyətlərinin kəskin olduğu bir zamanda Zeno Uzun Həsən tərəfindən öz səfiri kimi Avropaya göndərildiyindən Venesiya yeni səfir olaraq Barbaronu Ağqoyunlu sarayına yollayır. Barbaro 1474-1478-ci illərdə Ağqoyunlu ölkəsində səfərdə olmuş, Şərqə ikinci səfərini etmişdi. O, Ağqoyunlu sarayına silah-sursat və eyni zamanda digər hərbi yardım çatdırmaq məqsədilə vəzifələndirilmişdi[5,377 ]. O, səfəri boyunca qarşılaşdığı hadisələri qeyd etmiş, lakin başına gələn pis hadisələri yazmaqdan çəkinmişdi. Barbaronun gəliş yolu fərqli olaraq dəniz yolu ilə idi. Belə ki, o, Kiprə qədər gəmi ilə gəlmiş, daha sonra isə Ramazanoğulları və Zülqədəroğullarının torpaqlarından keçərək Ağqoyunlu ölkəsinə gəlib çatmışdı. Barbaronun əsas

məqsədi Ağqoyunlu hökmdarını Osmanlı ilə yenidən müharibəyə başlamağa təhrik etmək və Venesiyanın bundan özünün məqsədləri üçün ən yaxşı halda istifadə etməsinə çalışmaq idi. Belə ki, Barbaronu Ağqoyunlu sarayına göndərən Venesiyanın ona göndərdiyi 1473-cü il yanvar və fevral tarixli təlimatları da bunu açıq-aydın sübut edir. Barbaroyo verilmiş təlimatlarda qeyd olunanlar Venesiyanın əsl məqsədlərini tamam açıqlayır[6,254].

Barbaronun səfərnaməsi ilk dəfə 1543-cü ildə İtaliyada nəşr edildi. Daha sonra isə bu səfərnamə ingilis dilinə tərcümə edilmişdir. Barbaronun səfərnaməsi iki hissədən ibarətdir. Birinci hissədə o, Tana bölgəsində qarşılaşdıqlarını qeyd etmişdi. Bizim üçün isə onun, əsasən, ikinci hissəsi daha qiymətlidir. Çünki bu hissədə onun Ağqoyunlu sarayına səyahəti öz əksini tapır. Belə ki, Barbaro gördüyü hər maraqlı hadisəni və qarşılaşdığı vəziyyətləri və eşitdiklərini qeydə almağa çalışmışdı. O, səfərnaməsində istər dövrün siyasi hadisələrini, istərsə də xalqın yaşayışı, mədəni həyatı və az da olsa şəhərləri təsvir etməyə çalışmışdır.

Qeyd edildiyi kimi onun ən əsas məqsədi Həsən Padşahı Osmanlı dövlətinə qarşı yeni döyüşə başlatmaq idi. Bunun üçün Barbaro Venesiya respublikası tərəfindən Həsən Padşaha göndərilən hərbi ləvazimatları çatdırmalı idi. O qeyd edirdi: *“ Biz Venesiyadan iki gəmi ilə yola düşdük. Döyüş ləvazimatları və əsgərlərlə dolu iki böyük gəmi də arxamızca gəlirdi. Bunları hörmətli Signoria Həsən Padşaha göndərirdi...mən bunların hamısını ona çatdırmalı idim.. hədiyyələr, bir neçə top, bomba ləvazimatları, tüfəng, güllə, mərmi, barıt və 3000 duka dəyərində olan müxtəlif silahlar idi. Hədiyyələr isə 3000 duka dəyərində gümüş qablar, 2500 duka dəyərində parçalar, 2000 dəyərində qırmızı parçalar və digər yunlu parçalar idi.”*[8, 37]

Barbaronun gəmilərindən başqa eyni zamanda digər Avropa dövlətlərinin də göndərdikləri gəmilər də vardı. Belə ki, Barbaro yazır: *“ ...mənim gətirdiyim iki böyük və iki kiçik gəmini saymasaq əgər, 55 gəmi dolusu əsgər vardı. Venesiya respublikasına aid gəmilərimizin ümumi sayı 60-a çatırdı. 15 gəmi kral Ferdinanda, 5 gəmi Kipr kralına, 2 gəmi Rodos kralına və 15 gəmi isə Papalığa aid idi. Beləcə 99-dan çox gəmiyə sahib idik”*[8, 39]. Göründüyü kimi, Avropa dövlətləri hər vəchlə Həsən Padşahı Mehmet ilə yeni döyüşə başlamağa təhrik edir və öz yardımını da vəd edirdi. Lakin Barbaro onları tərk edərək öz yoluna quru ilə davam etməyə məcbur olur və Aralıq dənizində olan donanma Kiprə geri qayıdır.

Barbaro Həsən Padşahın yanına çatdıqdan sonra da ona tövsiyə olunan əsas tapşırığı yerinə yetirməkdə uğurlu olmadı. Uzun Həsən nəinki Mehmet ilə yeni döyüşə başlayırdı, əksinə daha çox daxili məsələlərlə maraqlanırdı. Bunun səbəbi də Otluqbelindəki məğlubiyyətinin onun üzərində böyük təsirə sahib olması idi.

Lakin Barbaro 4 ilə yaxın Uzun Həsənin yanında qalır. Gürcüstan səfərində iştirak edir, oğlu Uğurlu Məhəmmədin Şiraz üsyanın yatırılmasına gedən Həsən Padşahı müşayiət edir. Bu zaman isə o, ordu ilə tanış olur və bu barədə gördüklərini belə qeyd edir: " *...bu əsnada əsgərləri və heyvanları saymaqla məşğul olmaya başlayıb süvarilərə ovada geniş bir həlqə yaratmaqları əmrini verdilər. Mən də xidmətkarımı yanımda aparıb onların arasından keçdim. Lobyalarla əsgərləri saymağa başladım. Hər 50 nəfər üçün bir lobyanı cibimə qoyurdum*[8, 66].

Barbaronun bu müddət ərzində hər yeri gəzməsinə imkan da yaranmışdı. O Azərbaycan şəhərlərini gəzmiş onlardan bəziləri haqqında öz əsərində də qeydlər etmişdi. Eyni zamanda o, Azərbaycan xalqının mədəni həyatının bəzi hadisələri ilə də tanış olmuş və onda böyük maraq oyatmışdı.

Barbaro Həsən Padşahın yanında olub daim onu izləyərkən Venesiyada isə hələ də rahatlıq yox idi. Belə ki, Barbaronun Ağqoyunlu sarayına çata bilməmə ehtimalını nəzərə alan Venesiya respublikası onun ardınca A.Kontarinini şimal yolu ilə səfir kimi yolladı. A.Kontarinin digər səfirlərdən əsas fərqi sarayda elə də uğurlu fəaliyyət göstərə bilməməsi və onun səfirliyinin tamamilə uğursuz olması idi. Çünki onun Təbrizə gəlib çatdığı zaman artıq Şiraz üsyanı baş vermiş və eyni zamanda Təbrizə Cagirlilərin hücumu təhlükəsi olduğundan Kontarini elə də aktiv fəaliyyət göstərə bilməmişdi və Uzun Həsənlə dərhal görüşü baş tutmamışdı. Üstəlik bu zaman Barbaro da Ağqoyunlu sarayında səfir kimi fəaliyyətini davam etdirirdi. Bütün səfirlər kimi onun da gəlişində əsas məqsəd Venesiyanın Həsən Padşahı Osmanlıya qarşı müharibəyə başlamağa təhrik etmək və bu zaman Osmanlı ilə müharibədə olan Venesiyanın şərqdəki müttəfiqi kimi Osmanlıya zərbə endirərək onun qüvvələrini parçalayaraq daha tez məğlub olmasını təmin etmək idi[5,408].

Səfərnamədən öyrənirik ki, 23 fevral 1473-cü ildən yola düşən Kontarini 22 iyul 1474 –cü ildə Uzun Həsənin ölkəsinin sərhədlərinə daxil olur. Avqustun 4-ü isə Təbrizə çatır. O, yolda qarşılaşdığı türkmən tayfaları ilə bağlı qeyd edir: *"... Lereodan çıxıb yola davam edəndə ailələri ilə birlikdə yeni otlaqlar tapmaq məqsədilə köç etməkdə olan çox sayda Türkmənlər gördük. Bu tayfanın adəti belədir. Yeni otlaqlar tapdıqlarında hər yerdə çadırlarını qurarlar və orada otlar qalmayınca başqa bir yer axtarmağa gedirlər..."*[8, 125]Köçəri həyatlarını davam etdirən və bu yaşayış tərzlərini qoruyub saxlayan türkmanların bu adəti Kontarinini marağına səbəb olmuşdu. Təbrizə çatmasına baxmayaraq o , şahla görüşə bilmirdi. Təbrizdə gizlənməyə məcbur qalan Kontarini çox az halda şəhərə çıxa bilmişdi. Bununla bağlı yazırdı: *" ...gizli bir yerə qaldığımdan dolayı bu şəhər haqqında geniş məlumat verə bilmirəm. Təbriz böyük bir şəhər olaraq görünürdü... çox sayda bazarı var..."*[8,127]

Kontarini şahla yalnız İsfahanda görüşə bilir. Onun qeydlərindən anlaşıldığı kimi orada Barbaro ilə qarşılaşmış və bundan çox məmnun olmuşdu.

O, İsfahanda Şahla görüşsə də, elə də diqqətlə qarşılanmır. Düzdür, Padşahı yol boyu izləyərək Təbrizə qədər gəlmişdi. O,səfəri zamanı gördüklərini qeydə almağa çalışmışdı. *"Yol getdiyimiz müddətcə orduda bazar qurulurdu və hər şeyi tapmaq mümkün idi. Ancaq biraz bahalı satılırdılar. Hər kəsin özünə aid çadırı vardı. Şah bizi dəvət edir və ümumilikdə qonaqpərvərlik göstərilirdi. Tez-tez də bizim üçün yeməyə və içməyə aid kiçik hədiyyələr göndərirdi. Bizə qarşı olduqca comərd və lütfkar idi. Heç bir zaman nə yanındakılardan , nə də digər insanlardan bizə bir narahatçılıq olmadı"*[6, 263].

Kontarini qeyd edir ki, onların Təbrizə çatmaqlarına az qalmış 30 may 1475-ci ildə özünü Antakya Patriarxı olaraq təqdim edən rahib Friar Ludoviko da Bologna yanında altı süvari ilə şahın düşərgəsinə gəldi və onu " Burqundiya Dokunun göndərdiyini" dedi. Şah onu qəbul edir və ona çoxlu sual verir və cavabını alır. Daha sonra isə 2iyunda Təbrizə daxil olan şah ayın 8-də yenidən onları qəbul edir[6, 263].

Kontarini yazır: *"ayın 8-də Patriarx və biz saraya çağrıldıq. Bundan əvvəl Şah mənə dört dəfə Meser İosafat Barbaronun yanında qalmasını , mənimsə frankların ölkəsinə geri qayıtmağımı demişdi. Amma mən etiraz etmişdim"*[6, 264]. Uzun Həsən daha sonra yenidən onları çağırıb Ludovikoya geri qayıtmağı və öz hökmdarına osmanlı türkləri ilə savaşmağı düşündüyünü deməyini bildirir. Eyni zamanda Kontariniyə də onunla getməyi və eynilə həmin şeyləri xidmətində olduğu adama çatdırmağı və bütün xristianlıq aləminə həqiqəti çatdırmağı deyir. Kontarini isə buna etirazını yenidən bildirir: *" ...bunları eşidəndə məyus oldum. Cavab olaraq isə Mən bu işi etməyəcəm dedim və səbəblərini də açıqladım. Lakin şah hirsli bir baxışla " mən istəyirəm və getməyini əmredirəm" dedi"*. [8, 135] Bundan sonra Kontarini şahın əmrini yerinə yetirməyə məcbur olur. *" ... hər nə əmredirsinizsə, qəbul edirəm və getdiyim hər yerdə xristian krallarının məmnuniyyəti üçün sizin uca qüdrətinizdən və xoş niyyətinizdən bəhs edəcəm"*. [5, 424] Ayın 28-də sonuncu dəfə Barbaro ilə görüşüb digər elçilər ilə Təbrizdən ayrılır. Şimal yolu ilə geri qayıdır. Beləliklə, Kontarini özünün əsas məqsədinə nail olmasa da,səfəri zamanı gördüklərini və yaşadıqlarını qeyd etmiş və Barbaro ilə eyni vaxtda səfərdə olması isə eyni hadisələrin şahidi olmasına səbəb olmuşdur ki, daha sonra bunları nəşr etdirməsi isə onun əsərinin dəyərini artırır.

Avropa ilə ilk ən geniş siyasi diplomatik münasibətlər quran Ağqoyunlu dövləti tarixinin italyan mənbələri əsasında öyrənilməsi olduqca vacib məsələdir. Çünki səfir-diplomat kimi Ağqoyunlu sarayına göndərilən bu şəxslər səfərə başladıqları zamandan səfərnamələrinə qeydlər edirdilər.

Bu səfərnamələrin digər qaynaqlardan fərqi ondadır ki, onları yazan şəxslər heç zaman öz məqsədlərini unutmamış, öz siyasi fəaliyyətlərini davam etdirərkən eyni zamanda həmin müddət ərzində yerli əhalidən öyrəndiklərini, gördüklərini heç bir təsir altında qalmadan təsvir etmələri və öz fikirlərini

bildirmələridir. Bu səbəbdən səfərnamələri oxuyarkən həmin şəxslərin gördüklərini və yaşadıqlarını öyrənmiş oluruq ki, bu da dövrün siyasi və sosial-mədəni həyatının mənzərəsini bizim üçün yaratmış olur.

Üç səfərnamə müəllifi Ağqoyunlu sarayında səfir olsa da, əksinə C.Ancioello Osmanlı dövləti ərazisində fəaliyyət göstərmiş və dövrün siyasi hadisələrinə başqa aspektdən baxmışdır. Bu səbəbdən səfərnamələrin hər biri bəhs olunan dövrdə Azərbaycan tarixinin müxtəlif məsələlərinin öyrənilməsində olduqca vacibdir və onlar mənbəşünaslıq baxımından əvəzolunmaz və dəyərlidir.

**Ədəbiyyat və Mənbələr**

**1.** A Narrative of italian travels in Persia. In the Fifteenth e sixteenth centuries. Translated and edited by Charles Grey. London, 1873, 231 s.

**2.** Bibliografia. Viaggiatori İtaliani. Ordinata cronologicamente ed illustrata da Pietro Amat di San Filippo. Roma. 145 s.

**3.** Branca G. Storia di viaggiatori italiani. Roma-Torino-Firenze-Milano, 1873. 500 s

**4.** Gündüz T. Seyyahların gözüyle sultanlar ve savaşlar. Yeditepe Yayınevi. İstanbul, 2007. 246 s.

**5.** Mahmudov Y. Seçilmiş əsərlər. I cild. Bakı, 2011. 584 s.

**6.** Mahmudov Y. Seçilmiş əsərlər. II cild. Bakı, 2011. 616 s.

**7.** Nəcəfli T. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri(müasir Türkiyə tarixşünaslığı) Bakı, 2012. 604 s.

**8.** Travels Tana and Persia by Josafa Barbaro and Ambrogio Contarini. Translated from the italian by William Tomas and S.S.Roy. London. 229 s.

# НОВЫЕ АРХЕОЛОГИЧЕСКИЕ ОТКРЫТИЕ В ХАЧМАССКОМ РАЙОНЕ В 2021 Г.

**Аббас Сеидов**
**Деюш Мусаев**

Целью хачмасской археологической экспедиций в 2021 г. было продолжить раскопки поселения Гасангала в с. Гасангала и провести археологическую разведку района.

В результате археологических раскопок удалось установить точную стратиграфию поселения которая состоит из трех слоёв:

1. Средневековый – IX – XIII вв.
2. Античный I – IIвв, где впервые обнаружена керамика Сарматской культуры.
3. Эпоха ранней бронзы.

Археологическая разведка дала великолепные результаты: были обнаружены три поселения средних веков и одна – город – поселения и старое кладбище.

1- е поселение ШолларIплощадью 1 га. высотой 6 - 7 м.
2- е поселение ШолларIIплощадью 1 га. высотой 1.5 – 2 м.
3- е поселение ШолларIII – самое большое состоящее из трех холмов площадью 6 -7 га.
4- е поселение Айхантепе – городище с остатками оборонительных стен.

# XAÇMAZ RAYONU ƏRAZİSİNDƏ 2021-Cİ ILDƏ YENİ ARXEOLOJİ TAPİNTİLAR

**Abbas Seyidov**
**Döyüş Musayev**

2021-ci ildə Xaçmaz arxeoloji ekspedisiyası Həsənqala kəndi yaxınlığında yerləşən eyni adlı yaşayış yerində arxeoloji tədqiqat işlərini davam etdirmişdir.

Arxeoloji tədqiqat işləri zamanı abidənin dəqiq stratiqrafiyası əsasında üc arxeoloji təbəqə müəyyən etmək mümkün olmuşdur.

1. Orta əsrlər (IX-XIII əsrlər).
2. Antik (I-II əsrlər). Buradan ilk dəfə Sarmat mədəniyyətinə aid saxsı nümunələri aşkar edilmişdir.

3. Erkən tunc dövrü.

Arxeoloji kəşfiyyat işləri zamanı orta əsrlər dövrünə aid üç yaşayış yeri, şəhər və məzarlıq aşkar edildi.

1) I Şollar yaşayış yeri. Ərazisi 1 ha. Təpənin hündürlüyü 6-7 m.
2) II Şollar yaşayış yeri. Ərazisi 1 ha. hündürlüyü 1,5-2 m.
3) Ərazisi üç təpədən ibarət,ən böyük, 6-7 ha sahəsi olan III Şollar yaşayış yeri.
4) Ayxantəpə yaşayış yeri - Müdafiə istehkamlarının qalıqları olan şəhərgah.

## NEW ARCHEOLOGICAL FINDS IN KHACHMAZ REGION IN 2021

**Abbas Seyidov**
**DoyushMusayev**

In 2021, the Khachmaz archeological expedition continued archeological research at the Hasangala settlement near the village of Hasangala.

During archeological research, it was possible to identify three archeological layers on the basis of accurate stratigraphy of the monument.

The Middle Ages (IX-XIII centuries)

Ancient period (I-II centuries) pottery samples of Sarmatian culture were first found here.

Early Bronze Age.

Archaeological excavations have yielded great results: three medieval settlements, remains of a city and a cemetery have been discovered.

I Sholar settlement. Area 1 ha. Height 6-7 m.

II Shollar settlement. Area 1 ha. Height 1.5-2 m.

III Shollar settlement. The largest of the three. The area consists of three hills, üith a total area of 6-7 hectares.

Aykhantepe settlement - a town with the remains of defensive fortifications.

Территория Хачмасского района исторически всегда привлекал в разное время многих исследователей.

Это в первую очередь связанно с его географическим и стратегическим расположением. По этому региону проходили один их важнейших путей, который связывал Северный и Южный Азербайджан с Северным Кавказом и Южно-русскими степями.

Очень благоприятные природные условия – плодородные земли, водные, лесные богатства. Строительный материал способствовали возникновению здесь многочисленных поселений в древний период.

Начиная с античных времен, а затем в период средневековья, нового и новейшего периодов этот регион неоднократно изучали археологи, этнографы, лингвисты истории, архитекторы разных стран.

Начиная с 70-х годов ХХвека этот регион стал объектом интенсивного изучения археологов Азербайджана. Была создана специальная археологическая экспедиция «Свод археологических памятников Северо – Восточного Азербайджана» под руководством известного археолога доктора исторических наук, профессора Дж.А. Халилова, которая исследовала Северо – Восточный Азербайджан в течении пяти лет.

В 2002 г. была организована совместная археологическая экспедиция Азербайджан – Дагестан – США. (АДА) которая вновь обследовала ранее известные памятники эпохи ранней бронзы, был собран подъемный материал, а также провела раскопки на поселении Серкертепе.

С 1983 г. начались масштабные раскопки на поселении Серкертепе (более 1 тыс. кв.м) которые дали просто уникальный археологический материал, который позволял характеризовал все стороны жизни племен в периодIV–IIIтыс. до н.э., а самый нижний слой выявил керамику Vтыс. до н.э.[1]

Все вышеизложенные данные свидетельствует о необходимости и важности исследования памятников Хачмасского района.

Целью хачмасскойархеологической экспедиции были раскопки поселения в 2021 г. Гасангала и археологическая разведка района.

В процессе раскопок поселение Гасангала удалось установить стратиграфию памятника, который состоит из трех археологических периодов. Первый верхний слой, мощностью 1.4 – 1.5 м. относится к средневековому периоду IX – XIIIвв. Большая часть материала это фрагменты керамики розового цвета, а также глазурованные фрагменты блюд.

Второй слой – это период античности 1 в.н.э. мощностью около 0,5 м. Новым открытием этого года является керамика сарматского периода– это предмет виртуального предназначения курильница орнаментированная насечками на широком венчике и шишкообразным выступом в середине сосуда.

Третий слой на поселении Гасангала относится к эпохе ранней бронзы, он начинается с глубины двух метров здесь обнаружена керамика характерна для Северо – Восточного Азербайджана керамика с внутренним бортиком фрагменты вазы, блюда, чаши –розового, серого и черного цветов большая часть археологического материала схожа со многими памятниками АзербайджанаIV–IIIтыс. до н.э.[2]

Второй целью, экспедиции была археологическая разведка Хачмасского района, которая дала неожиданно великолепный результат. В районе известного села Шоллар было выявлено четыре новых памятника.

В археологической разведке самое активное участие принимали – доктор исторических наук, профессор Аббас Сеидов, доктор философии по истории Деюш Мусаев, доктор философии по историиГахраманАгаев, житель Худата Октай Мамедов и два представителя «охраны памятников Хачмасского района» Улькяр Юсифова и АфетВелиханова.

Памятники были обнаружены на северо– западе окраине г. Худат, к западу от села Шоллар.

Первый памятник ШолларIрасположен в частном саду, вытянут с востока на запад. Этот холм имеет высоту 6-8 м., склоны крутые, поверхность ровная. Площадь поверхности 1 га.Подъемный материал характеризует этот памятник IX – XIII вв. и III тыс. до н.э.

Рядом с этим располагается другой плоский холм высотой 1.5 м-2.5 м. площадью 1 га. Подъемный материал характеризует это поселение средними векамиIX – XIIIвв.Здесь же находится старинное мусульманское кладбище с надгробными камнями с арабской графикоймы прочиталиэти надписи и датировали ихXIXи начало XXвв.

К западу от этих двух холмов находятся два огромных поселения. Поселение ШолларIII состоит из трех крупных холмов общей площадью примерно 6-7 га, высотой 2-3 м. Видимо данное поселение в средние века было одним из ведущих населенных пунктов этого региона.

Материал собранный с поверхности и с разрезов датирует этот памятникIX–XIIIвв.

Одним из интереснейших памятником обнаруженным хачмасской экспедицией в 2021 г. является город – поселение Айхан тепе, расположенный к западу от поселенияШолларIII. Площадь холма примерно 4 га. Высота памятника 5 – 7 м. склоны крутые – примерно 35 – 40 градусов, а северной стороны отвесные.

Памятник имеет форму чаши, это связанно с тем, что по краю памятника сохранились остатки стен, которые со времен разрушились. В результате визуального наблюдения удалось обнаружить несколько жженых кирпичей, которыми строили оборонительные стены, размеры кирпичей 40x20x7 см.

С северной стороны памятника сохранился вырытый ров, здесь «стена» имеет крутой склон. Из подъемного материала интерес вызывают монеты осударства Атабеков на которых по арабский написано «Мохаммед Джахан Пехлеван 1175 - 1186»

Подъемная керамика представлена плоскодонной чашей розового цвета, фрагменты керамики IX–XIII вв. иIII тыс. до н.э. Керамика

относящаяся к эпохе Кура – Араксской культуре имеет схожие черты в Дагестане [3]Нахчеване [2]Бабадервише [4]. Расположение всех этих памятников недалеко друг от друга может свидетельствовать об очень интенсивной жизни этого региона и что здесь проходили одни из важнейших торговых путей. И еще одно немаловажное значение – этот регион имел большое военно- стратегическое положение, он прикрывал северные ворота древнего Азербайджана от вторжение иноземных завоевателей.

Надеемся что будущие археологические раскопки этих памятников дадут нам возможность более точно узнать историю этого региона и событий происходивших в этот исторический период.

1. Мусаев Деюш. Серкертепе– поселение эпохи ранней бронзы Нафта – Пресс. Б.2006 г.
2. Сеидов Аббас. Памятники Кура – Араксской культуры Нахичевани. Баку. Билик 1993 г.
3. Мунчаев Р.М. Кавказ на заре бронзового века. М. Наука 1975 г.
4. Исмаилов Г.С. Археологические исследования Древнего поселения Баба – Дервиш. Баку. Элм 1977 г.











# QACARLAR DÖVRÜNDƏ SUFİZM: ZEYNALABDİN ŞİRVANİ NÜMUNƏSİ

**Fərhadov Əli Rizvan**
AMEA Milli Azərbaycan Tarixi Muzeyi, t.ü.f.d.
ali_farhadov@yahoo.com

**Açar sözlər:** Zeynalabdin Şirvani, Qacarlar, din, sufizm

*Azərbaycanlı alim və səyyah Zeynalabdin Şirvani Qacarlar dövründə yaşamışdır. Bu dövrdə İranda sufizm təqib edilirdi. Zeynalabdin Şirvani nemətullahilik təriqətinin üzvü və daha sonra piri olmuşdur. Təqiblərə baxmayaraq, Zeynalabdin Şirvani Qacar sarayı tərəfindən mükafatlandırılmışdır. O, dini mövzularda, etdiyi səyahətlər haqqında bir sıra dəyərli əsərlər yazmış, sufizmlə yanaşı ictimai-siyasi fəaliyyətlə məşğul olmuşdur. Z.Şirvani bir çox ölkələrə səyahət etmiş, hökmdarlara nəsihətlər etmişdir. Onun əsərlərində Azərbaycan, Hindistan və sair Şərq ölkələri, əhalisi, dini, məişəti haqqında geniş məlumatlar var. A.A.Bakıxanov, E.Braun və sair tədqiqatçılar Z.Şirvaninin yaradıcılığını yüksək qiymətləndirmişdirlər. Z.Şirvaninin irsi Azərbaycan və Şərq tarixinin, mədəniyyətinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir və öz tədqiqatçılarını gözləyir.*

## СУФИЗМ В КАДЖАРСКИЙ ПЕРИОД: ПРИМЕР ЗЕЙНАЛАБДИНА ШИРВАНИ

**ФархадовАлиРизван**

**Ключевые слова**: Зейналабдин Ширвани, Гаджары, религия, суфизм

*Азербайджанский ученый и путешественник Зейналабдин Ширвани жил в период Гаджар. В этот период в Иране преследовали суфизм. Зейналабдин Ширвани был членом секты Нематуллаха, а позже - пири. Несмотря на преследования, Зейналабдин Ширвани был награжден дворцом Гаджар. Он написал ряд ценных работ на религиозные темы, о своих путешествиях и наряду с суфизмом занимался общественно-политической деятельностью. З. Ширвани путешествовал по многим странам и давал советы правителям. Его произведения содержат*

*обширную информацию об Азербайджане, Индии и других странах Востока, их населении, религии и образе жизни. А.А. Бакиханов, Э. Браун и другие исследователи высоко оценили работу З. Ширвани. Наследие З.Ширвани важно с точки зрения изучения истории и культуры Азербайджана и Востока и ждет своих исследователей.*

## SUFISM IN THE QAJAR PERIOD: EXAMPLE OF ZEYNALABDIN SHIRVANI

**FarhadovAli Rizvan**

**Keywords:** Zeynalabdin Shirvani, Qajars, religion, Sufism

*Azerbaijani scientist and traveler Zeynalabdin Shirvani lived during the Qajars period. During this period, Sufism was persecuted in Iran. Zeynalabdin Shirvani was a member of the Nematullah sect and later piri. Despite the persecution, Zeynalabdin Shirvani was awarded the Qajar Palace. He wrote a number of valuable works on religious topics, about his travels and, along with Sufism, was engaged in social and political activities. Z. Shirvani traveled to many countries and gave advice to the rulers. His works contain extensive information about Azerbaijan, India and other countries of the East, their population, religion and way of life. A.A. Bakikhanov, E. Brown and other researchers highly appreciated the work of Z. Shirvani. The heritage of Z. Shirvani is important from the point of view of studying the history and culture of Azerbaijan and the East and is waiting for its researchers.*

**Giriş.** XIX əsr Qacar İranında dini düşüncə tarixi böyük təlatümlərə səhnə olmuşdur. Qəddar şah rejiminin və mürtəce ruhanilərin xalqa verdiyi zülmlər onlarda şeyxilik, babilik və s. dini qurtuluş hərəkatlarına maraq və ümid yaratmışdır. Rəsmi dini ideologiyaya qarşı mübarizədə sufizm nəzəriyyəsi və sufi təriqətləri də seçilirdi. Bu dövrdə Qacar İranında təsəvvüfün əsas təmsilçilərindən biri Nemətullahi təriqəti idi. Bu təriqət İranda dini fəlsəfənin inkişafına böyük töhfələr vermişdir. Lakin rəsmi dini ideologiyanın təzyiqlərinə məruz qalırdı. Dövlətin qorunması üçün şiə ruhanilərinə ehtiyac hiss edən Fətəli şah, onların təzyiqilə nemətullahilik təriqətinə keçən məmurları da işdən qovmuşdu[22, p.20]. Nemətullahi kimi müxtəlif sufi təriqətlərinə mənsub olanlar üsuliyyə şiələrinin təhdidlərinə, küfrlə ittihama, qətliama məruz qalırdılar[11, s.142-143]. Bunun əsas səbəblərindən biri də nemətullahilərin öz şeyxlərini XII İmam Mehdinin yer üzündəki təmsilçisi, hətta mütləq hökmdar kimi görmələri idi. Təriqətin qurucusu Şah Nemətullah Vəli (v.1431) iddia

edirdi ki, "Yer üzü hökmdarları öz dövrünün Kamil İnsanının sözünü yaymalıdırlar, çünki o, Mütləqdir, ilahi xüsusiyyətlərə malikdir"[19, p.46, 50). Özlərini hz. Əli nəslindən sayan Nemətullahilər şiəliyin İranda yayılmasında böyük rol oynayıb XVI əsrdə Səfəvilərlə yaxın münasibətdə olsalar da[13, s.465-466], sonralar təzyiqlərə məruz qalmışdılar. I Şah Abbasın (v.1629), xüsusilə Sultan Hüseynin (v.1722) hakimiyyəti dövründə İranı tərk etməyə məcbur oldular. İranda şiə müctəhidlərin təzyiqilə təsəvvüf demək olar ki süquta uğradı [19, p.51-52]. II Şah Abbasın (v.1666) dövründə isə təsəvvüfün şiəliklə sintezinə üstünlük verən irfan fəlsəfəsi himayə edildi. Onun əsas təmsilçisi, Molla Sədranın da aid edildiyi Nurbəxşiyyə təriqəti idi. Lakin sufizmin şiəliklə sintezi ruhanilərin ciddi müxalifətinə səbəb oldu[12, s.179-181]. Nemətullahi piri olan Azərbaycan sufisi Z.Şirvani yazırdı ki, "1700-cü illərdən etibarən İranda sünni Kübrəviyyənin sonradan şiələşmiş Nurbəxşiyyə və Zəhəbiyyə kimi kiçik qollarının xaricində təsəvvüf və təriqətlər az qala yox olmuşdu və heç bir məna ifadə etmirdi"[14, s.76]. Bu proses Qacarların ilk dövründə də davam etdi.

**Qacarlar dövründə nemətullahilik.** Nemətullahiliyi İranda bərpa etmək üçün Hindistandan gələn təriqət mənsubları Ağa Məhəmməd şah Qacarın himayəsinə sığınsalar da[19, p.56-57), sonralar Fətəli şah Qacarla yaxın olan "Sufi-kuş" ("Sufi qatili") ləqəbli[14, s.77] müctəhid Seyid Məhəmmədəli Bihbehaninin fətvasıyla küfrlə ittiham edilib qətl edildilər[11, s.142-143]. Nemətullahilər – "dünyada və axirətdə qurtuluş məsum şeyxə itaətdən asılıdır. Bu, hökmdara da vacibdir. Əks təqdirdə məhv edilməlidir"[19, p.60] dedikləri üçün şah onların İranda nüfuz qazanıb hakimiyyəti ələ keçirmə cəhdindən şübhələnmiş[19, p.59], "sufilərin dinin əmrlərinə uyğun şəkildə həbsi və öldürülməsi" istənmişdi[11, s.142-143; 14, s.80].

Fətəli şahdan fərqli olaraq Azərbaycan hakimi, vəliəhd Abbas Mirzə sufizmə, fəlsəfi düşüncəyə və dini təriqətlərə daha tolerant idi. Avropa ilə təhsil əlaqələri yaradan, 1817-ci ildə daş üsulu çapxana təsis edib[16, s.16] yeni iş mərkəzləri açaraq, müxtəlif kitabların çap edilməsinə şərait yaradan Abbas Mirzənin dünyəvi istiqamətli siyasəti, feodal özbaşınalığına son qoyub iqtisadi, mədəni mərkəzləşdirmə siyasəti Azəbaycanı və onun mərkəzi Təbrizi də modernləşdirirdi. Bütün bu yeniliklər həm mənafeləri, həm də cəhalətləri üzündən xürafatçı ənənələrə bağlı olan və "din əldən gedir" deyən böyük mollalar ordusunu, xanları, feodalları, xüsusilə vəliəhdin digər şahzadə qardaşlarını əsəbləşdirməkdə idi[8, s.40].Din xadimlərinin fikrincə Rusiya qarşısındakı hərbi məğlubiyyətlərin səbəbi də Abbas Mirzənin kafir ölkələrə məxsus olan islahatları Azərbaycanda gerçəkləşdirməsi idi[8, s.58]. Vəliəhdin müctəhidlər tərəfindən təqib edilən nemətullahi təriqətinə rəğbəti və onları qorumağa çalışması da şiə ruhanilərinin etirazına səbəb olurdu[19, p.62].

Dövlət-din münasibətləri də bu zaman pis vəziyyətdə idi. Abbas Mirzənin "çox yeməkdən öz vəzifəsini yerinə yetirə bilməyən atlar"[18, p.80-81] adlandırdığı və hakimiyyətdən uzaqlaşdırdığı din xadimləri Məhəmməd şah dövründə də eyni mövqedə idilər. Məhəmməd şah da din xadimlərinin əvəzinə sufilərə rəğbət edirdi[1, s.151; 10, s.179] və nemətullahi təriqətindən olan Hacı Mirzə Ağasını sədrəzəm, yəni baş vəzir təyin etmişdi[4, s.51]. Bu dövrdə səltənətə sanki sufi möhrü vurulmuşdu[19, p.62-63].

Məhəmməd şahın dövründə təriqətin İranda azad inkişafına yol açıldı. Təriqətin XIX əsrdəki ən böyük piri isə Məstəli Şah ləqəbli Zeynalabdin Şirvani idi[14, s.82-83]. Məhəmməd şah Qacarın hakimiyyətinə qədər o da ömrünü sürgünlərdə və edam qorxusu altında keçirdi[14, s.85-86]. Lakin hətta Məhəmməd şah Qacarın nemətullahilərə xoş münasibəti də şiə ruhanilərinin sufiliyə mənfi baxışını dəyişdirmədi[14, s.87].

Məhəmməd şahın sədrəzəmi Hacı Mirzə Ağası nemətullahi pirlərindən mərhum Nurəli Şahın müridi Molla Əbdülsəmədin müridi idi[14, s.86]. Onun əxlaq və irfan fəlsəfəsi mövzusunda "Sultanlığın 40 fəsli", peyğəmbərlik və imamlıqdan bəhs edən "Kəlmələr" və s. dini əsərləri, şeirləri də var[7, s.203-204]. Şah, müəllimi və baş vəziri olan Mirzə Ağasını "şəriət və təriqət qübbəsinin dirəyi"[15, s.37] adlandırır, şiə müqəddəslərinin türbələrinin əvəzinə sufi dərvişlərinin türbələrini ziyarət və təmir edirdi[5, s.477]. Sədrəzəmin sayəsində bir çox sufi təmayüllü ruhani yüksək dini vəzifələrə təyin edilmişdi. Ruhanilərin etirazına baxmayaraq, sarayın himayəsi nəticəsində Təbrizdə də Molla Rza Həmədani, Kövsərəli Şah kimi nemətullahilər məhkəmələrdə və dövlət vəzifələrində xidmət edirdilər[19, p.64]. Hətta nadan ruhanilər tərəfindən "allahsız, kafir" sayılan, Fətəli şah tərəfindən təzyiqlərə məruz qalan və bir çox əlyazması məhv edilən nemətullahi şeyxi[6, s.18, 25, 28-29; 9, s.63, 150], Məstəli şah ləqəbli səyyah Hacı Zeynalabdin Şirvani (1759-1838) baş vəzirlə arasında rəqabət olmasına baxmayaraq, ölənə qədər Məhəmməd şahdan maaş almış[24],şah ona Şiraz yaxınlığında kənd bağışlamışdı[9, s.84]. Hacı Mirzə Ağası Z.Şirvaninin əvəzinə özü nemətullahilərin piri olmaq istəyirdi və sonunda Z.Şirvanini saraydan qovdura bilmişdi[14, s.86].

Ruhanilərin tənqidlərinə baxmayaraq, mütərəqqi sufilər dini maarifçilikdə böyük rol oynamış, ərəbcə bilməyən farslara Quranın təfsirini farsca izah edən əsərlər yazırdılar. Bu, şiə ruhanilərini narahat edən bir məsələ idi və sufilərin Qurana və şəriətə hörmət etmədiklərini iddia edirdilər[23, p.18, 36]. Sufilərin öz şeyxlərini XII İmamın yer üzündəki təmsilçisi saymaları da şiə ruhaniləri tərəfindən qəbuledilməz idi[19, p.46]. "Təfsiri-mənzumi-Quran" (və ya "Təfsiri-Safi"), "İrfanül-həqq" kimi əsərlər yazan nemətullahi sufisi Mirzə Həsən Safi Əli Şah (v.1899) isə sufizmi əxlaqi islahatçılıq hərəkatı kimi təqdim etmiş, ilahi kəlamı şeirləşdirmədiyini, farslar üçün Quranın mənzum təfsirini etdiyini bildirmişdi[23, p.18, 36]. Fətəli şahın nəvəsi Məhəmməd Mirzə

Seyfüddövlə Tehranda onun üçün xanəgah tikdirmiş, Safi Əli Şah ölənə qədər orada qalmışdır[21, p.202]. Məhəmməd şah Safi Əli Şahı himayə etmiş[21, p.203], Nəsrəddin şahın kürəkəni və naziri Əli xan Qacar Zahirüddövlə isə şeyxin müridi olmuşdur[23, p.16].

**Zeynalabdin Şirvaninin həyat və yaradıcılığına baxış.** Azərbaycan alimi, coğrafiyaşünas-səyyah, tarixçi, etnoqraf, filosof, ədəbiyyatşünas, şair Hacı Zeynalabdin Şirvani (1780-1837/38) Şamaxı şəhərində anadan olmuşdur. Anadan olmasından altı ay keçəndən sonra, atası axund İsgəndər ailəsi ilə birlikdə Kərbəlaya getmiş, orada öncə atasından dini elmləri təhsil almışdır. Nemətullahilərdən hindistanlı Məsuməli şahın və isfahanlı Nurəli şahın tələbəsi olmuş, həmədanlı Məczubəli şahdan nemətullahiliyi tədris etmə icazətini almışdır[17, c.100]. 40 ilə yaxın səyahət edən, Azərbaycanda, o cümlədən Bakıda, Yaxın və Orta Şərq ölkələrində, Hindistan, Seylon (Şri Lanka), İndoneziya və s. yerlərdə olan Şirvani Nemətullahi dini təriqətinə də rəhbərlik etmişdir. Onun ədəbi təxəllüsü Təmkin, təriqətdəki ləqəbi Məstəli şah olmuşdur. Ərəbistanda, Ciddə şəhərində dəfn edilmişdir. Şirvaninin haqqında ilk dəfə Abbasqulu ağa Bakıxanov "Gülustani-İrəm" əsərində məlumat vermişdir[2, s.116].

Z.Şirvaninin "Riyazüs-səyahə" ("Səyahət bağçaları"), "Hədayiqüs-səyahə" ("Səyahət bağları"), "Büstanüs-səyahə" ("Səyahət gülzarı"), "Kəşfül-məarif" ("Mərifətlərin kəşfi") adlı əsərləri vardır. Türkiyəli sufi şair C.Ruminin çoxcildli "Məsnəvi" (Bombey, 1895) əsərinə müqəddimənin müəllifidir. Özünün şeirləri isə "Divan"da (Tehran Universitetinin Mərkəzi kitabxanasındadır) toplanmışdır[25]. Z.Şirvaninin əsərləri A.Bakıxanov və sair tarixçilər, tədqiqatçılar üçün mənbə rolunu oynamışdır[9, s.125]. Bu əsərlərdə Azərbaycanın islam öncəsi və sonrası tarixi, coğrafiyası[27, s.33, 37], zərdüştilik və Zərdüşt peyğəmbər[27, s.36, 101], xürrəmilər hərəkatı və Babək[27, s.226],Səfəvilər, Şah İsmayıl, Çaldıran döyüşü[27, s.38-43] və s. mövzular haqqında geniş məlumatlar var, Nizami, Xaqani kimi klassik şairlərin həyat və yaradıcılığından nümunələr verilir[27, s.81, 360].

Böyük bir sufi mütəfəkkir olan Z.Şirvaniyə görə "bütün varlıqlar peyğəmbərin və onun vəlisinin (hz. Əli – Ə.F.) təcəllisidir"[26, s.22, 29]. O, "əhli-beyt"in məsumluğuna və XII imama etiqad etmiş[27, s.20, 22], "vəhdəti-vücud" nəzəriyyəsini müdafiə etmişdir. O, nadan ruhani fitvasıyla qətl edilən Həllac Mənsuru dəstəkləmiş[9, s.14, 67], onun ilahi sirri açdığını, cinayət etmədiyini demişdir[27, s.425].Mütəfəkkir H.Mənsuru türkiyəli sufi C.Ruminin mürşidi və ruhunun təzahürü saymışdır[27, s.214]. İngilis şərqşünası E.Braun Z.Şirvaninin elmi fəaliyyətini, müxtəlif dinlər və məzhəblər haqqındakı məlumatlarını təqdir edir[20, p.451-452]. A.A.Bakıxanova görə - Z.Şirvani

Azərbaycan adının qədim fars dilində "atəşgah, atəş yurdu" mənasında olduğunu demişdir[3, s.27; 27, s.34].

Z.Şirvani sufi mütəfəkkir olmaqla yanaşı ictimai-siyasi problemlərin həlli üçün də çalışmışdır. O, "öz əməlinin nəticəsindən qaça bilməzsən[9, s.116]; şəriətə və ağıla zidd olan hər hansı bir hərəkət dövlətin tənəzzülünə və yox olmasına səbəb olur", deyərək, öz dövrünün hakimlərini ədalətli olmağı nəsihət edirdi[27, s.157].

"Bu xəbislər ki hökmran olmuş
İşimiz bir daha yaman olmuş"[9, s.154],

deyə şikayət edən mütəfəkkir "Kimdə mülayimlik yoxdursa, o, yırtıcı heyvandır; İnsaflı olsan, ömür boyu namaz qılmandan yaxşıdır"[9, s.149] deyərək, insanları hakim və ya dindar olmadan öncə vicdanlı olmağa çağırırdı. Onun diplomatik bacarığı dövrünün hakimləri tərəfindən yüksək qiymətləndirilmiş, Qacar vəliəhdi Abbas Mirzə ondan ölkə daxilində və xaricində, hakimlərlə münaqişələrin nizamlanmasında, sülh danışıqlarının təşkilində elçi kimi istifadə etmişdir[9, s.88].

Böyük bir səyyah olan Z.Şirvani öz əsərlərində səyahət etdiyi xarici ölkələr haqqında, o cümlədən 1802-ci ilin əvvəllərində başlayan və 8 il davam edən Hindistan səfəri haqqında geniş məlumat vermişdir. Onun əsərlərində tarixi, arxeoloji, etnoqrafik baxımdan maraq doğuran, Hindistanın əhalisi, dinləri, maddi və mənəvi mədəniyyəti haqqında maraqlı məlumatlar vardır. Z.Şirvani hind xalqının musiqisinə də yüksək qiymət vermişdir.Z.Şirvani səyyah və ensiklopedist alim kimi Hindistanın təbiət və iqtisadiyyatını, hind xalqının adət və ənənələrini, musiqisini, tarixi abidələrini dərindən öyrənmişdir. Z.Şirvani Hindistan əhalisinin etnogenezi, dini-fəlsəfi axınlar, təsərrufat həyatı, yaşayış məskənləri, yaşayış evləri, sənətkarlıq və s. haqqında məlumatlarda sadəcə təsvirlə kifayətlənmir, izahlar, şərhlər verir. Onun bir səyyah kimi fəaliyyəti multikultural dünyagörüşünün formalaşmasına da ciddi müsbət təsir göstərmişdir[2, s.116-117].

Z.Şirvani Hindistanda olarkən Böyük Moğol İmperiyasının axırıncı şahlarından olan II Şah Aləmlə görüşmüşdür. O, "Büstanüs-səyahə" kitabında Dehlidə olarkən II Şah Aləmlə bir neçə dəfə görüşməsi, onunla müxtəlif mövzularda söhbət etməsi barədə məlumat vermişdir. 1805-ci ildə Z.Şirvani ilə görüşən ingilis tədqiqatçı Mark Uilksonun səyyahın əsərləri, səfərləri ilə ciddi şəkildə maraqlanması azərbaycanlı səyyahın irsinin bəşəri mahiyyət daşımasını bir daha gostərir[2, s.117]. Onun elmi və ədəbi fəaliyyəti bir sıra rus, Qərbi Avropa, Şərq və Azərbaycan tədqiqatçıları tərəfindən öyrənilmiş və yüksək qiymətləndirilmişdir.

Z.Şirvaninin adı Hindistanda muzeyə, İndoneziyada kitabxanaya, Məkkə və Ciddə coğrafiya cəmiyyətlərinə, Şirazda küçəyə verilmişdir. Şirvani irsinin tədqiqi Azərbaycanın Hindistanla tarixi mədəni-mənəvi əlaqələrinin

öyrənilməsi baxımından mühüm multikultural əhəmiyyət daşıyır. Hindistanın tarixi, əhalisi, coğrafiyası haqqında geniş məlumatlar verən Z.Şirvaniyə görə, "Şimal-qərbi Hindistandaəhalinin bəzisi göyümtül, bəzisi qəhvəyi, bəzisi ağ üzlüdür. Dilləri hind dilləridir. Dillərində ərəb, fars sözlərinin qarışığı vardır. Yeyib-içib gəzməyi çox sevəndirlər, mövhumata çox inanırlar. Bəziləri illər boyu bir küncdə oturub sehrbazlıqla məşğul olur. Ümumiyyətlə, qonaq-sevəndirlər, xüsusilə səyyahlara böyük hörmət bəsləyirlər. Zülm və əziyyətdən uzaq gəzirlər. Əslində, eyş-işrətdə, musiqidə hec kim onlara cata bilməz". O, Hindistanı idarə etmiş müsəlman hökmdarlarının ölkəni abadlaşdırmasını da xüsusi qeyd etmiş və belə yazmışdı: "İslam şahları Dehlidə elə gözəl və uca saraylar tikdirmişlər ki, yazmaqla başa gələn deyil. Cahangirin oğlu Şah Cahan şəhəri təmir eləyib, oranı öz adı ilə adlandırmışdır. Odur ki, bəziləri Dehliyə indi də Şah Cahan deyir"; "Allahabad Hindistanın böyük və möhtəşəm şəhərlərindən biridir. Keçmiş şahlardan sonra Əkbər şah bu şəhəri tikdirib adını Allahabad qoymuşdur. Onun abadlaşdırımasına və böyüməsinə xeyli səy gostərmişdir"[2, s.118].

**Nəticə.** Deyə bilərik ki, Qacarlar dövründə şah rejiminin və mürtəce ruhanilərin təzyiqlərinə baxmayaraq, İranda və Azərbaycanda sufizm özünəməxsus inkişaf etmişdir. Sufi təriqətləri və mütəfəkkirləri arasında nemətullahilik vəZ.Şirvani xüsusilə seçilir. Dini radikalizmə qarşı mübarizədə azad fəlsəfi düşüncəyə əsaslanan sufizmin və klassik sufi mütəfəkkirlərinin öyrənilməsi böyük əhəmiyyət daşıyır. Belə sufi mütəfəkkirlərdən biri olan Z.Şirvani həm ictimai-siyasi fəaliyyətilə, həm yazdığı əsərlərlə, həm də təsəvvüfi fikirlərilə Azərbaycan və Şərq dini-fəlsəfi, ictimai düşüncə tarixində özünəməxsus iz qoymuşdur. Onun yaradıcılığı A.A.Bakıxanov, F.Köçərli, M.Tərbiyət, E.Braun, və s. alimlər tərəfindən yüksək qiymətləndirilmişdir[9, s.151]. Mütəfəkkirin əsərlərinin, elmi-fəlsəfi, təsəvvüfi düşüncəsinin tədqiqi Azərbaycan elminin əsas vəzifələrindən biridir və öz tədqiqiatçılarını gözləyir.

## Ədəbiyyat

1. Abbasov, Y. İslam alimləri. Dünyada tanınmış Azərbaycanlı müctəhidlər, Ayətullahlar: XVI-XX əsrlər. Bakı: Nurlar, 2007, 440 s.
2. Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və ictimai-publisistik qaynaqları Elmi redaktor: Kamal Abdulla. Bakı: BBMM, 2021, 248 s.
3. Bakıxanov, A. Gülüstani-İrəm / tərc. ed. M.Əskərli. Bakı: Minarə, 2000, 224 s.
4. Ələkbərli, F. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). Bakı: "Elm və təhsil", 2018, C.1, 504 s.

5. Hüseynzadə, Ə. Seçilmiş əsərləri: [2 cilddə] / tərt. ed. O.Bayramlı. Bakı: Çaşıoğlu, 2008, C.2, 496 s.

6. Kərəmov, N. Qırx il səyahətdə. Bakı: Azərnəşr, 1977, 184 s.

7. Kərimov, B. XIX əsrin II yarısında Azərbaycan elminin inkişafında İrəvan ziyalılarının rolu // Bakı: Bakı Universitetinin Xəbərləri (Humanitar elmlər seriyası), 2014. №2, s.201-208.

8. Pakrəvan, Ə. Abbas Mirzə və Azərbaycan / tərc. ed. G.Cavanşir. Bakı: Qanun, 2007, 208 s.

9. Quliev, Z. Azərbaycanın görkəmli səyyah və alimi Hacı Zeynalabdin Şirvani. – Bakı: AZSSR EA nəşriyyatı, 1964, 209 s.

10. Vəlioğlu, F. Azərbaycanın görkəmli islam alimləri. Bakı: Əhli-beyt yolu, 2009, 211 s.

11. Algar, H. Bihbehani Muhammed Ali // TDV İslam Ansiklopedisi: [44 ciltte]. İstanbul: TDV yay., 1992, C.6, s.142-143.

12. Arjomand, S.A. Safevi dönemi İranında dini taşkınlık (gulüvv), sufilik ve sünnilik (1501-1722) / terc. ed. N.Musalı // Cappadocia Journal of History and Social Sciens, 2016. № 1 (7), s.160-195.

13. Ay, Z. 16-17. Yüzyıllar İranında Safevi-Nizari ilişkilerinin dini ve siyasi etkileri üzerine tarihsel bir değerlendirme // Tarihin Peşinde, 2019. №: 21, s.465-466.

14. Lewisohn, L. Modern İran tasavvufunun tarihine bir giriş: Nimetullahi tarikatı: zülüm, ihya ve bölünme / terc. ed. İ.Külbilge // Sufi Araştırmaları, 2016. № 14, s.71-108.

15. Uyar, M. İranda modernleşme ve din adamları. İstanbul: Emre yay., 2008, 331 s.

16. Uzun, E. Güney Azerbaycan basın tarihi. Trabzon: Türk Ocağı yay., 2002, 193 s.

17. Бакиханов А.К. Гюлистан-и Ирам. Баку, Элм, 1991, с.304.

18. Algar, H. *Religion and State in Iran* 1785-1906. The Role of the Ulama in the Qajar Period. Berkeley: University of California Press, 1980, 286 p.

19. Bos, Matthijs Van Den. Mystic regimes: sufism and the state in Iran, from the late Qajar era to the islamic republic. Leiden: Brill, 2002, 286 p.

20. Browne, E.G. A Literary History of Persia: [in 4 vol.] London: Cambridge University press, Vol. 4. 1959, 530 p.

21. Green, N. A Persian Sufi In British India: The Travels of Mirza Hasan Safi Ali Shah. Iran. Vol. 42, 2004, p. 201-208.

22. Martin, V. Islam and Modernism: The Iranian Revolution of 1906. London: I.B.Tauris, 1989, 245 p.

23. Ridgeon, L. Sufi castigator: Ahmad Kasravi and the Iranian mystical tradition. London: Routledge, 2006, 244 p.

24. Çingizoğlu, Ə. Hacı Zeynalabdin Şirvani: Tehranı dağıtmaq istəyən dərviş. – 5 iyun, 2019. URL:https://hi-in.facebook. com/maariflendirme/ photos/hac%C4%B1-zeynalabdin-%C5%9Firvani-tehran%C4%B1-da%C4%9F%C4%B1tmaq-ist%C9%99y%C9%99n-d%C9%99rvi%C5%9F-ara%C5%9Fdirmahac%C4%B1-zeynalabd/1062407633955600/

25. Hacı Zeynalabdin Şirvani URL: https://shamakhi-encyclopedia. az/haci-zeynalabdin-sirvani/

26. Şirvani, Z. Kəşfül-məarif. – 36 s. URL: http://www.sufi.ir/ MysticalBooks(16).php

27. Şirvani, Z. Riyazüs-səyahə. - 440 s. URL: http://www.sufi.ir/ MysticalBooks(16).php

# ТЕХНИЧЕСКИЕ ИННОВАЦИИ И АЗЕРБАЙДЖАНСКИЙ СОЦИУМ В КОНЦЕ XIX – НАЧАЛЕ XX ВВ.

**Фуад Агаев**
*Национальный музей истории Азербайджана НАНА*
*aghayevfuad2@gmail.com*

**Ключевые слова**: *научно-технический прогресс, капиталистические отношения, социальная структура общества, новые профессии, телефонная связь*

Данная статья посвящена исследованию влияния научно-технического процесса на социальные процессы в конце XIX – начале XX вв. Развитие капиталистических отношений привело к появлению технических новинок, которые привели к значительным изменениям в социальной структуре общества: транспорта, сельскохозяйственных и промышленных машин, средств коммуникации и т.д. В результате внедрения технических достижений появляются новые специальности и профессии, рассматриваются произошедшие изменения в повседневной жизни в указанный исторический период.

# XIX ƏSRIN SONU-XX ƏSRIN ƏVVƏLLƏRINDƏ TEXNIKI INNOVASIYALAR VƏ AZƏRBAYCAN CƏMİYYƏTİ

**Fuad Ağayev**
*AMEA Milli Azərbaycan Tarixi Muzeyi*

**Açarsözlər**: *elmi-texnikitərəqqi, cəmiyyətin social strukturu, yeni peşələr, telefon rabitəsi*

*Təqdim olunmuş məqalədə XIX əsrinsonu – XX əsrin əvvəllərində elmi-texniki tərəqqinin social həyata təsiri tədqiq olunmuşdur. Bu dövrdə 65 ocial 65 ist münasibətlərin inkişafı yeni texniki yeniliklərin meydana çıxması ilə nəticələnmişdir. Bu da öz növbəsində cəmiyyətin 65 ocial strukturunda, xüsusilə nəqliyyat, kənd təsərrüfatı, kommunikasiya vasitələri və digər sahələrdə əhəmiyyətli dəyişikliklərə təsirsiz ötüşməmişdir. Məqalədə qeyd olunmuş tarixi dövrdə gündəlik həyata tətbiq olunmuş yeniliklərdən sonar yaranmış yeni ixtisas və peşələrdən əzərdən keçirilmişdir.*

# TECHNICAL INNOVATIONS AND AZERBAIJANI SOCIETY IN THE LATE XIX – EARLY XX CENTURIES

**Fuad Aghayev**
*The National Museum of the History of Azerbaijan, ANAS*

**Keywords**: *scientific and technological progress, social structure of society, new professions,telephone communications*

*This article is devoted to the study of the influence of the scientific and technical process on social processes in the late XIX – early XX centuries. The development of capitalist relations led to the emergence of technical innovations that led to significant changes in the social structure of society: transport, agricultural and industrial machinery, communications, etc. As a result of the introduction of technical achievements, new specialties and professions appear, changes in everyday life over the specified historical period are taken into account.*

Научно-технический прогресс, начавшийся во второй половине XIX века, коренным образом изменил жизнь миллионов людей в мире, в первую очередь капиталистических странах, а также периферийных территорий в виде колоний и полуколоний. Развитие капитализма в Российской империи во второй половине XIX века привело к формированию двух общественных классов – буржуазии и рабочих. «Великие реформы» императора Александра II 1860-1970-х годов привели к кардинальным социально-экономическим и политическим изменениям.

Развитие капиталистических отношений во внутренних российских губерниях, потребности российского капитализма в сырье привели к социально-экономическим изменениям и на окраинах империи. Указанные изменения затронули и входивший в состав Российской империи Северный Азербайджан, где под влиянием развития капиталистических отношений, вызванных в том числе и техническим прогрессом, произошли трансформации в социальной структуре общества. Иерархическая структура размывалась и видоизменялась.

Рассмотрим влияние научно-технического процесса в промышленности в первую очередь нефтяную отрасль, ставшую «локомотивом» всех остальных социально-экономических процессов. Нефтедобыча была связана с применением новых технических средств, и капитализация в отрасль тормозилась существовавшей в то время откупной системой. Закон от 17 февраля 1872 года ликвидировал

откупную систему и начался процесс продажи нефтеносных участков с аукциона частным лицам. Часть нефтеносных участков была приобретена представителями национальной буржуазии, стремительно набиравших вес в обществе и экономический капитал в новых экономических условиях.

Крупные капиталовложения в нефтедобычу привели к промышленному перевороту в этой отрасли. Начиная с 70-х годов получило широкое распространение бурение нефтяных скважин с помощью бурового и ударного метода и вскоре ручной труд при бурении был заменен паровыми двигателями. В результате внедрения технологических новинок нефтедобыча перешла на промышленный этап развития. Рост капитализации требовал значительного числа рабочих рук, что привлекало в Бакинский промышленный район рабочую силу не только изкавказского региона, но и со всех концов империи.

В первую очередь научно-технический прогресс привел к урбанизации и росту численности городского населения, притоку неквалифицированной рабочей силы из сельской местности и квалифицированных кадров из внутренних губерний. Появление зажиточных слоев общества привело к появлению соответствующих обслуживающих их людей. Строительство особняков, доходных домов, государственных учреждений, требовало большого числа рабочих и специалистов, что привлекало в город Баку тысячи людей.

После катастрофического землетрясения 1859 года, практически полностью разрушившего город Шемаху, наместник Кавказа князь А.И.Барятинский, исходивший из географических преимуществ и экономической выгоды, заявил о планах переноса всех губернских учреждений в город Баку. Он. 6 декабря 1859 года появился указ императора Александра II о перенесении губернского центра в Баку и переименовании Шемахинской губернии в Бакинскую губернию. Проблемы, связанные с перенесением губернского центра в Баку, были связаны с отсутствием необходимой инфраструктуры, пригодных для государственных учреждений и ведомств зданий, квартирному кризису и т.д.

Городское население в Азербайджане с 1873 по 1897 гг. увеличилось на 94,3%. [5, с.13]Общая численность населения увеличилась с 1.272.52 до 1.890.126 человек, а городское население увеличилось с 141.882 до 275.664 человек.[5, с.13]

Потребность в жилой площади за пределами Крепости привела к сносу средневековых построек и строительству двух и трехэтажных строений. Намечаются главные улицы и проспекты, архитекторы намечают новые пути развития градостроительства и отходят от сложившихся средневековых архитектурных приемов городской

застройки, и внедряют инженерные, санитарный и эстетические нормы новой, европейского типа городской застройки. [2,с.64]

В преобразовании городского хозяйства Баку была и оборотная сторона. Ухудшение экологии, загруженность коммуникаций, рост травматизма на производстве – неизбежные спутники индустриализации конца XIX века. Городской голова Александр Новиков в начале XX века писал об этой стороне происходивших изменений: «А Чёрный город! – этот город заводов, со свистящим паром и электричеством, но рядом с этим с совершенно непроходимыми улицами, на которых трубы проложены без системы, без порядка…Тут же вдоль улиц канавы с текущим в них мазутом, не говоря уже про то, что вся земля пропитана нефтью и нефтяными остатками…».[11, с.17]. Скученность населения на относительно небольшом Апшероне приводила к широкому распространению туберкулеза, холеры, трахомы и других болезней, с которыми официальные власти не могли справиться вплоть до падения царизма.

Касаясь влияния научно-технического прогресса на сельское хозяйство, следует вспомнить предысторию. Крестьянская реформа 1870 года в Азербайджане привела к началу развития капиталистических отношений. Технический прогресс оказал влияние и на развитие сельского хозяйства. Конец XIX века отмечен началом использования в сельском хозяйстве сельскохозяйственной техники: конных сеялок, молотилок и маслобоек. Значительная часть крестьян продолжали использовать старые методы обработки земли, так как новые усовершенствованные орудия и машины стоили дорого. Широко внедрялись в сельское хозяйство технические культуры– хлопок, табак и др., что потребовало строительства целой сети оросительных каналов, прежде всего на Мугани.

Одним из новых видов транспорта, сыгравшим большую роль в экономическом развитии Южного Кавказа был железнодорожный транспорт. Российские власти были заинтересованы в прокладке железных дорог между крупными городами региона, с целью быстрой транспортировки грузов на большие расстояния. Железная дорога Тифлис – Баку общей протяженностью 514,96 версты была введена в эксплуатацию в 1883 г. На ней было построено 26 станций, 53 места и проложено дополнительно 48,58 версты разъездов и запасных путей на станциях. [4, с.183] А в 1900 году Закавказская железная дорога была соединена с железнодорожной сетью внутренних губерний империи через Петровск – Дербенд – Баку.

Возникновение городского транспорта связано с ростом городского населения. Общественный транспорт появился в только эпоху развития капитализма. Научно-технический прогресс напрямую связан с

появлением новых видов транспорта, прежде всего общественного, основным из которых стала конно-железная дорога, больше известная как конка. Инициаторами предприятия конно-железной дороги являлись Г.А.Тагиев, Я.И.Адамов и К.А.Ирецкий. Устав Бакинского акционерного общества конно-железных дорог был высочайше утвержден 5 июля 1891 г. [12]А непосредственно датой начала функционирования конно-железной дороги в Баку считается 24 мая (5 июня – по новому стилю) 1889 г. Линии конки обслуживали преимущественно центральные улицы: Вокзальную, Михайловскую, Молоканскую, Мариинскую, Барятинскую и т.д.

На протяжении веков человечество активно пыталось использовать различные способы коммуникации: использование сигнальных огней, почтовых голубей, пушечных выстрелов и т.д. Но только в XIX веке, с изобретением телеграфа и телефона уровень коммуникации превзошел все технические параметры, возможные на тот период.

Началом развития телекоммуникации в Азербайджане следует считать 1868 год – с развития телеграфной связи. Именно в 1868 году российское правительство, исходя из военно-стратегических планов, соединило город Тифлис телеграфной связью с городом Баку через Елизаветполь [3, с.126]

В конце XIX века в Российской империи началось строительство телефонных станций. 23 ноября 1881 года была построена первая телефонная линия длиной в 6 км, официально считающаяся первой телефонной линией Баку. Телефонный аппарат стоил дорого, но число владельцев новинки в Баку росло. Телефонные аппараты приобретались в основном обеспеченными слоями городского населения, крупными предпринимателями, представителями технической интеллигенции и др. Телефон считался также статусным предметом интерьера. Работу телефонных станций обеспечивали телефонистки. На работу принимались незамужние девушки в возрасте от 18 до 25 лет, хорошо образованные, в основном из обедневших дворянских семей. [13] Жалованье телефонистки было приличным, но профессия считалась вредной из-за чрезмерной физической и эмоциональной нагрузки.

В апреле 1907 года государство передало фирме «Э.Ф.Биеринг и Ко» концессию на эксплуатацию телефонной сети в Баку и его окрестностях с условием переустройства существовавшей воздушной сети на более совершенную двухпроводную кабельную сеть. В представленный фирмой в октябре 1907 года проект был утвержден 28 июля 1908 года, при этом проект был рассчитан на 3 года. Вместе с воздушной сетью переустройству подлежали и центральные телефонные станции. [14, с.5]

Однако массовой телефонизации не произошло, и потребителей данной услуги было немного. В 1913 году общее число абонентов телефонной сети в Баку составило 4176 чел. [13]

Изменения в экономике второй половины XIX века повлекли за собой и изменения в области искусства и способах его функционирования. Одной из технических новинок являлся кинематограф, изобретенный братьями Люмьер в 1895 году. Основателем азербайджанского кинематографа считается Александр Мишон, переехавший на постоянное место жительство в Баку из Харькова. В августа 1898 года в театре-цирке Васильева-Вятского А.Мишон демонстрировалсвои картины – «Пожар нефтяного фонтана на Биби-Эйбате 27 июля 1898 г.», «Проводы его высочества эмира Бухарского на пароходе «Великий князь Алексей», «Кавказская пляска» и др.[1] В Баку начинают работу первые кинотеатры и постепенно складывалась традиция посещения кинотеатров, ставшая одной из любимых развлечений горожан. В канун 1907 года в театре Тагиева были продемонстрированыновые зарубежные кинокартины и в этом же году в пассаже Тагиева открылся кинотеатр Французский «Электро-Биограф» – вероятно, первый специализированный кинотеатр Баку. [1]

А.Мишон является также основателем фотографического дела в Азербайджане как профессионального занятия. В крупных городах открывались фотоателье, росло количество фотографов, регион посещали в том числе известные российские и иностранные фотографы. Благодаря искусству фотографии и развитию фотографического дела историки и исследователи имеют возможность изучать всю палитру общественной и экономической жизни указанного периода: фотоальбомы учебных и общественных организаций, фотокарточки городов, известных личностей и происходивших событийпредставлены в фондах НМИА в виде сотен фотодокументов.

Под влиянием новых социально-экономических отношений во второй половине XIX века неизбежно появляются новые профессии и специальности. Предприниматели были заинтересованы в квалифицированных кадрах на своих предприятиях.В нефтяной отрасли и других сферах экономики национальный капитал в лице крупных предпринимателей: Г.З.Тагиева, Ш.Асадуллаева, М.Мухтарова, М.Нагиева, Н.Мехтиева, А.Б.Кулиева, бр. Дадашевых и многих других активно привлекали в работе на своих предприятиях инженеров, бухгалтеров, архитекторов, управляющих и др. Молодые азербайджанцы вынуждены были из-за отсутствия высших учебных выезжать на учебу в крупные города Российской империи, либо за границу. Материалы Национального музея истории Азербайджана раскрывают перед нами

биографии представителей коренного населения, выпускников различных учебных заведений.

Один из первых электриков-азербайджанцев, студент химического отделения в 1900-1906 годах Киевского Политехнического Института Императора Александра II Ага Ахундов окончил также Институт МонтефиореЛьежского университета (Бельгия), где получил звание инженера-электрика. [6]Работал в Цюрихе на заводе «Эрликон» и по возвращении на родину основал электротехническое бюро в Баку, которым руководил вплоть до 1920 года. За указанный период он участвовал в разработке проектов электростанций, многие из которых претворил в жизнь.

Внесли азербайджанцы вклад в развитие железнодорожного транспорта. Один из первых азербайджанцев-железнодорожников – СамедВекилов окончил в 1899 годуПетербургский государственный институт путей сообщения, и более 20 лет проработал на железных дорогах Кавказа – Закавказской и Владикавказской. [10]Другой представитель азербайджанской молодежи – один из первых химиков, Фатулла Рустамбеков окончил в 1893 году Петербургский Технологический Институт со званием инженера-технолога, впоследствии управлял нефтяными предприятиями известного предпринимателя Мусы Нагиева. [7]

Одной из сфер, которая стремительно развивалась со второй половины XIX века – судоходство на Каспии. Развитие судоходства на Каспии, связанное в первую очередь с транспортировкой нефтепродуктов, привело к появлению в регионе профессий, связанных с мореходством. В мае 1858 года была основана судовладельческая компания под названием Акционерное общество «Кавказ и Меркурий». Эта дата считается началом развития пароходства на Каспии. Баку постепенно превращается в один из центров крупного морского транспорта в Российской империи.

Вскоре среди представителей мусульманского населения появились капитаны, штурманы и шкиперы. «На основании правил, утвержденных Министерством Финансов в 1867 году для производства испытаний на звание штурмана и шкипера присваивается окончившему курс жителю города Баку Гурбан Али Дадаш оглы» [8]. Среди подписавших согласие на принятие, значился и «купец первой гильдии Г.З.Тагиев».

В одном из договорах между Правлением Куринско-Каспийского акционерного пароходного общества и бакинским жителем Курбан Али Бабаевым за 1911 год о назначении его капитаном шхуны «Нижний Новгород» прописаны его обязанности: «начальство над шхуною, людьми в ней находящимися и товаром в ней погруженном»[9] В одном из договоров от 1899 года, заключенным между владельцами стального

парохода (танкера) для перевозки нефти и керосина наливом «Хан Усейнов» бакинскими 2-й гильдии купцами Али Усейн Усейновым, Алескером Мустафа оглы и Ага Дадаш Усейновыми и судовщиком (командиром) указанного судна Дадаш Ага оглы сроком были прописаны условия найма на работу на один год. Само судно было спущено на воду в 1897 году.

Для управления такой сложной техникой, как суда для перевозки сухих грузов, а также нефти и керосина наливом, требовалась специальная профессиональная подготовка. Кроме Г.З.Тагиева крупными судовладельцами в второй половины XIX – начала XX веков являлись братья Г.А.Усейнов и М.Б.Усейновы, братья Расуловы, братья Дадашевы и др., они были заинтересованы в подготовке квалифицированных кадров из числа местного населения для развития судоходной отрасли.Тем не менее, появление среди коренного азербайджанского населения представителей новых профессий не носило массового характера.

Технический прогресс и его влияние на развитие общества является актуальной темой, которая требует всестороннего изучения и исследования. Изменения сопровождались развитием техники, новинки которой охватывали различные сферы производства, транспорта, быта, произошли изменения в организации промышленного производства, его технологиях. Возникло много новых отраслей промышленности, ранее не существовавших. Это связано с произошедшей в рассматриваемый период научно-технической революцией.

## Список использованных источников и литературы

1.Бакинские кинотеатры. Кинематограф в Баку https://ourbaku.com/index.php/Бакинские кинотеатры._Кинематограф_в_Баку. Дата обращения. 22.09.2021.

2.Гасымова Ф. Шамиль Фатуллаев – основоположник исследования истории формирования архитектуры транспортного каркаса г. Баку XIX – начала XX веков // İncəsənətvəmədəniyyətproblemləri / Problemsof Arts andCulture / Проблемы искусства и культуры. Баку. 2014. N2 (48).

3.Каграманзаде А.Г. Этапы развития телекоммуникации Азербайджана. Баку. 2011.

4.Мурадалиева Э. Города Кавказа на Великом Шёлковом Пути. Баку. 2011.

5.Мурадалиева Э. Северный Азербайджан в планах и практике Российской империи по экономическому «завоеванию» Кавказа. Известия НАН Азербайджана. Серия общественных наук. Баку. 2017. №1.

6.Национальный музей истории Азербайджана ФДИ. 55/36.

7.НМИА. ФДИ 82/12.

8.НМИА. ФДИ 145/2.

9.НМИА. ФДИ 145/8.

10.НМИА ФДИ. 531/1.

11.Новиков А. Записки городского головы. Санкт-Петербург. 1905.

12.Полное собрание законов Российской Империи. Том XI. Санкт-Петербург. 1891 г.

13.Почта-Телеграф-Телефон (Баку) https://ourbaku.com/index.php/Почта_-_Телеграф_-_Телефон_(Баку). Дата обращения: 22.09.2021.

14.Список абонентов Бакинской телефонной сети. Август 1910 г. Баку. Типография А.К.Касабова. 1906.

# ÇAR RUSİYASININ ŞİMALİ AZƏRBAYCANDAKI MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİNDƏ UDİNLƏR (XIX ƏSRİN I YARISI)

**İradə Hacıəli qızı Əliyeva**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
t.ü.f.d., dosent, aliyevairada72@gmail.com

**Açar sözlər:** Şimali Azərbaycan, çar Rusiyası, müstəmləkəçilik siyasəti, xristianlıq, kilsə, Vartaşen

Məqalədə XIX əsrin birinci yarısında udinlərin mənəvi irsinin ermənilər tərəfindən mənimsəmək cəhdləri araşdırılmış və bu, Rusiyanın dini siyasətinin kontekstində verilmişdir. Həmin dövrün sənədlərinə əsasən udinlərin arasında pravoslavlığın yayılması Şəki xanı ilə yaxşı münasibətlərdə olmuş İraklinin zamanında onun tərəfindən göndərilmiş gürcü keşişləri tərəfindən həyata keşirildiyi bildirilir. Lakin Şəki xanı ilə İrakli arasında münasibətlərin pozulmasından sonra pravoslav udinlərin bir hissəsi islama qayıtmış, bir hissəsi də Məmməd Həsən xanın zamanında Şəki vilayətinə köçürülmüş ermənilərin təzyiqləri nəticəsində erməni qriqoryan ruhanilərinin təsiri altına düşüdüyü o dövrün mənbələrindən aydın olur.

Çarizmin Qafqaz komandanlığı və yerlərdəki ruhani rəhbərliyin udinlərə münasibətdəki siyasəti özünün müstəmləkəçi mahiyyəti ilə seçilirdi. Ermənilərin əməllərini müdafiə etməklə rus hakimiyyəti öz məqsədlərinə nail olmaq siyasəti yeridirdi. Şəki əyalətinə köçürülmüş ermənilərin udinlərin yaratdıqları maddi-mədəni irsə olan əsassız iddiasını bəhanə gətirən rus hakimiyyəti yerli əhalinin müqəddəs hesab etdiyi, qurbanlar kəsdiyi qədim alban məbədi olan müqəddəs Faddey kilsəsini onların əllərindən almağa çalışırdı.

## УДИНЫ В КОЛОНИАЛЬНОЙ ПОЛИТИКЕ ЦАРСКОЙ РОССИИ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ (I ПОЛОВИНА XIX ВЕКА)

**Ирада Алиева**

**Ключевые слова:** Северный Азербайджан, царская Россия, колониальная политика, христианство, церковь, Варташен

В статье исследуются попытки армян ассимилировать духовное наследие удинов в первой половине XIX века в контексте религиозной политики России. Согласно документам того периода, распространение Православия среди удинов осуществляли грузинские священники, которых послал Ираклий, имевший хорошие отношения с Шекинским ханом. Однако после разрыва отношений между Шекинским ханом и Ираклием из источников того времени ясно, что некоторые православные удины вернулись к исламу, а некоторые испытали влияние армянского григорианского духовенства в результате давления со стороны армян, переехавших в Шекинскую провинцию во время Правление Мамед Хасан хана.

Политика царского кавказского командования и местного духовенства по отношению к удинам отличалась колониальным характером. Защищая действия армян, российское правительство проводило политику достижения своих целей. Под предлогом депортации армян в Шекинский уезд материального и культурного наследия, созданного удинами, российское правительство пыталось отобрать церковь Святого Фаддея, древний албанский храм, который местные жители считали священным и приносили в жертву.

## UDINS IN THE COLONIAL POLICY OF TSARIST RUSSIA IN NORTHERN AZERBAIJAN (I HALF OF THE XIX CENTURY)

**Irada Aliyeva**

**Key words:** Northern Azerbaijan, Tsarist Russia, colonial politics, Christianity, church, Vartashen

The article examines the attempts of Armenians to assimilate the spiritual heritage of the Udins in the first half of the XIX century in the context of religious policy in Russia. According to the documents of that period, the spread of Orthodoxy among the Udins was carried out by Georgian priests who were sent by Heraclius, who had good relations with Shekin. However, after the rupture of relations between Shekinski Khan and Irakliem from the sources of that time it is clear that some Orthodox Udins returned to Islam, and some experienced the influence of the Armenian Grigorian military clergy on the reign of Shekin.

The policy of the tsarist Caucasian command and local clergy in relation to the Udins was of a colonial character. Defending the Armenian cause, the Russian government pursued a policy of achieving its goals. Under the pretext of the deportation of Armenians in the Shekinsky district of material and

cultural heritage, created by the Udins, the Russian government tried to take away the church of St. Faddea, an ancient Albanian temple, which the local inhabitants believed to be sacred.

***

**Giriş.**Azərbaycanın şimal-qərbində Qafqazın ən qədim xalqlarından olan udinlər yaşayır. Bu xalq, zəngin tarixi keçmişini özündə hifz edən ənənələrini qoruyaraq nəsildən-nəslə ötürüb günümüzə kimi saxlamışdır. Çar Rusiyası tərəfindən XIX əsrin əvəvllərində alban kilsəsinin erməni qriqorian kilsəsinin tabeliyinə verilməsi ermənilərə alban-udin irsinə sahib çıxmaq üçün əlverişli imkan yaradır. Lakin udinlər ana dilini, mədəniyyətini və inancını qorumaq naminə itaətdən imtina edərək kilsədə deyil, evdə ibadət etməyi üstün tuturlar. Məqalədə XIX əsrin birinci yarısında udinlərin mənəvi irsinin ermənilər tərəfindən mənimsəmək cəhdləri araşdırılmış və bu, Rusiyanın dini siyasətinin kontekstində verilmişdir

XIX əsrdə çar Rusiyasının Şimali Azərbaycanda apardığı zorakı xristianlaşdırma, pravoslavlaşdırma siyasətinin əsas obyektlərindən biri də Qafqaz Albaniyasının qədim etnoslarından olan udinlər olmuşdur. Həmin dövrün sənədlərində udinlər arasında pravoslavlığın yayılmasını Şəki xanı ilə yaxşı münasibətlərdə olmuş İraklinin zamanında onun tərəfindən göndərilmiş gürcü keşişləri tərəfindən həyata keşirildiyi bildirilir. Lakin Şəki xanı ilə İrakli arasında münasibətlərin pozulmasından sonra pravoslav udinlərin bir hissəsi islama qayıtmış, bir hissəsi də Məmməd Həsən xanın zamanında Şəki vilayətinə köçürülmüş ermənilərin təzyiqləri nəticəsində erməni qriqoryan ruhanilərinin təsiri altına düşür [1, s. 3-5].

1824-cü ilə dair kameral siyahıyaalınmasında Şəki əyalətinin Vartaşen (indiki Oğuz rayonunun ərazisi – İ.Ə), Nic və Cəlut kəndlərində udinlərin yaşadığı qeyd olunur. Burada Vartaşen kəndinin 3203 nəfərlik əhalisinin 282 nəfərin müsəlmanlar, 1067 nəfərin qriqoryan, 706 nəfərinprovoslav udinlər,1148 nəfərin isə yəhudilər, Cəlut kəndinin 1048 nəfərlik əhalisinin 218 nəfərinmüsəlmanlar,830 nəfərin isə qriqoryan udinlər, Nic kəndindəki 1997 nəfərdən341 nəfərinmüsəlmanlar,1656 nəfərinqriqoryan udinlərolduğu göstərilir[5, v. 1-22].

Udinlər hələ Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının gedişində pravoslavlaşdırmaya məruz qalmışdılar. Bu barədə general-leytenant Velyaminovun Gürcüstan ekzarxı, mitropolit Feofilakta yazıdğı 16 noyabr 1819-cu il tarixli məktubunda qeyd olunur: “Bir qədər əvvəl Rusiyaya birləşdirilmiş Şəki əyalətində idarəçiliyin təşkil olunması məqsədilə göndərilmiş general-mayor Axverdov və Nogilyovski bildirirlər ki, Şəki əyalətində 150-si xristian olmaqla 400-ə qədər evin olduğu Vartaşen kəndi var. Şəki hakimi ilə yaxşı

münasibətlərdə olmuş çar İraklinin zamanında bura gürcü keşişləri göndərilirdilər. Lakin sonralar burada Rusiya hakimiyyətinin bərqərar edilməsi ilə gürcü keşişlərin göndərilməsi dayandırılır və pravoslav keşişləri olmadığına görə bura erməni keşişləri ayaq açır. Bu kəndin bütün əhalisi tatar (türk), gürcü və erməni dillərindən fərqli olan dildə danışırlar və özlərini vaxtı ilə dağıdılmış Bərdədən köçmüş udinlər adlandırırlar. Lakin nə zaman köçmələri və onda hansı dinə etiqad etdiklərini deyə bilmirlər. Güman etmək olar ki, ilk əvvəl onlar pravoslav dininə etiqad etmişlər, lakin vaxt keçdikcə, dəyişən zamanın təsiri ilə onların bir hissəsi erməni qriqoryan dinini, digər hissəsi yəhudi, bir qismi də bir qədər əvvəl müsəlmanlığı qəbul etmişdir. İndi həmin kənddə pravoslav dininə etiqad edən 150, erməni qriqoryan dininə 100, yəhudi dininə 100, müsəlmanlığa etiqad edən 50 ailə var. Pravoslav olanlar bu dinin ehkamlarını çox zəif bilirlər, ona görə də bura gürcü keşişin göndərilməsini xahiş edirlər və bildirirlər ki, keşişin və kilsənin saxlanması üçün onların müəyyən olunmuş vergiləri var. Bütün bunları sizin nəzərinizə çatdıraraq xahiş edirəm ki, buraya bir keşiş göndərəsiniz və yaxşı olar ki, o keşiş müəyyən qədər də tatar (türk – İ.Ə.) və erməni dillərini bilsin, çünki udinlərin demək olar ki, hamısı bu dilləri başa düşür və bilir." [12, s. 397]

Bu məktubdan sonra Gürcüstan ekzarxı tərəfindən protoierey İosif Tsinamzqvar udinlərin pravoslav dinini qəbul etmək arzusunda olub-olmadıqlarını müəyyən etmək üçün Vartaşenə göndərilir. Ekzarx eyni zamanda 1. Protoierey Tsinamzqvarova yardım məqsədilə gürcü keşişi və priçetnikini tapıb, dini ayinlərin icrası üçün zəruri olan gürcü dilində kitablarla Vartaşenə göndərmək; 2. Vartaşen kəndində kilsə tikilənə qədər dini ayinlərin yerinə yetirilməsi məqsədilə ibadətgahın təşkil olunması üçün zəruri avandanlığı və mələk Mixailin obrazını göndərmək; 3. Kənddə tikiləcək Müqəddəs Aleksandr Nevski adına kilsənin planını göndərmək; 4. Protoierey Tsinamzqvarovu kilsənin tikintisi üçün toplanacaq könüllü ianələrin qeydiyyatının aparılması məqsədilə qeydiyyat kitabı ilə təmin etmək barədə də göstəriş verir [14, s. 401].

Gürcüstan ekzarxının göstərişinə əsasən Vartaşenə gələn protoierey Tsinamzqvarov bu səfərin nəticələri barədə hazırladığı məruzədə göstərirdi ki, Şəki xanlığındakı Vartaşen kəndinin əhalisimüsəlman, erməni, yəhudi və pravoslavlıqdan uzaq düşənlər olmaqla 500 evdən ibarətdir. Pravoslavlıqdan uzaq düşən 130 ailə onlarda gürcü keşişinin olmaması səbəbindən erməni keşişlərinin, 10 ailə isə müsəlman axundlarının idarəsindədir. Həmin kəndin və ətrafdakı üç kəndin əhalisi yerli əhalinin dediyinə görə onlara məlum olmayan səbəblərdən vaxtı ilə dağılmış Bərdədən köçmüşlər. İraklinin zamanında udinlərdə gürcü keşişi olmuşdur. Lakin sonralar baş vermiş müxtəlif dəyişikliklər səbəbindən onlar pastırsız qalmış, nəticədə bəziləri erməni qriqoryan, bəziləri isə müsəlman dinini qəbul etmişlər. Protoierey qeyd edir ki, onunudinlərin əvvəlki kimi pravoslav dininə dönmək arzusunda olub

olmadıqlarını öyrənmək məsdəqilə Rusiya hökuməti tərəfindən göndərildiyini elan etməsindən sonra erməni keşişlərin və müsəlman axundların idarəsindəolan həmin 130 ailə pravoslavlığı qəbul etmək arzularını bildirmiş və onları xaç suyuna çəkmişdir.

O, özü ilə götürdüyü səhra kilsəsiniquraraq bu kənddə dini ibadətihəyata keçirmiş, onlara xristianlığın zəruri şərtlərini təbliğ etməyə başlamış, 12 cütü xristian qaydası ilə evləndirmiş, 4 körpəni və Baba Oğuz oğlu adlı 20 yaşlı türkü xaç suyuna çəkmiş (xaç suyuna çəkildikdən sonra onun adı dəyişdirilərək Dmitri adlandırıb – İ.Ə.), 2 ölünü dəfn etmişdi.

Protoierey Tsinamzqvarov bu səfərin nəticəsi olaraq Gürcüstan ekzarxına yazdığı məktubunda guya ki, udinlərin 1. Udinlərə Vartaşen kəndində Müqəddəs Aleksandr Nevski adına kilsənin tikilməsinə icazənin verilməsini, bu məqsədlə bütün xərcləri öz öhdələrinə götürməklə, kilsənin planını, ruslardan bir daşyonan, iki kərpickəsən, iki dülgər, iki taxta kəsən göndərilməsini (onların əmək haqqını ödəməyi və ərzaqla təmin etməyi kənd əhalisi öz üzərinə götürməklə – İ.Ə.);

2. Kilsənin tikintisi başa çatana kimi onların digər təchizat tələblərdən azad edilməsini;

3. Kilsənin tikintisinə icazənin verilməsi ilə Vartaşendə prixod məktəbinin açılması üçün rus və gürcü olmaqla iki müəllimin göndərilməsini və məktəbin kitab və s. kimi zəruri ləvazimatlarla təmin olunmasını;

4. Protoierey Tsinamzqvarova kömək məqsədilə gürcü keşişinin, iki, heç olmasa bir priçetnikin göndərilməsini, onların dini ayinlərin icrası üçün zəruri olan gürcü dilində kitablarla təmin edilməsini (protoierey qeyd edirdi ki, onların udin dilində danışmalarına baxmayaraq dini ayinlərin gürcü dilində icra edilməsini istəyirlər);

5. Ailəbaşına bir ədəd müqəddəs mələyin obrazının verilməsini;

6. Kilsənin tikintisi məqsədiləxristianlardan könüllü sədəqələrin toplanması üçün qeydiyyat kitablarının göndərilməsini xahiş etdiklərini bildirirdi.

Protoiereyin yazdığına görə bu kənddə ruhanilərin, keşişlərin saxlanması üçün yerli əhalinin qədimdən gələn adət və ənənələrinə əsaslananbir sıra vergiləri vardır: 1. Ailə başına bir stil təmiz ipək. Pula çevirdikdə bir stil ipək 60 gümüş qəpik olmaqla, 130 ailə hesabı ilə ildə 78 rubl edir. 2. Hər ailə bir litr təmiz sarançin darısı. Litri 20 qəpikdən olmaqla 130 litr 26 rubl edir. 3. Ailə başına 2 litr buğda. Litri 10 qəpikdən olmaqla 260 litr 26 rubl edir. 4. Bundan başqa qədim adətlərə görə hər ailə ildə bir qoyunu qurban kəsməlidir ki, onun da ətinin bir hissəsi və dərisi məbədin xidmətçilərinin saxlanması üçün ayrılır.Bunu da pula çevirdikdə təxminən 15 gümüş rubl edir.

Protoierey tərəfindən Vartaşendə əhalinin zəruri dini ayinlərinin icrası üçün adambaşına xaç suyuna çəkməyə görə (vəftiz) 20 gümüş qəpik, dəfnə görə

50, evlilik üçün 50, müqəddəs pasxa zamanı xaçla gəzmək 10 qəpik, günahların bağışlanması (**obediyu**) üçün 10 qəpik alınırdı. Bundan əlavə epifaniya (**kreşeniye**) zamanı evləri bir-bir gəzib paklandırma mərasimi həyata keçirilməklə buna görə ailə başına 10 qəpik müəyyən olunmuşdu. Protoierey hesab edirdi ki, bu pulla kənddə kilsənin tikintisini və bu kilsədəki keşişlərin saxlanmasını həyata keçirmək olar [16, s. 401].

Lakin bir il sonra protoierey Tsinamzqvarov Gürcüstan ekzarxına məktubunda göstərirdi ki, onun və köməkçisi, keşiş Onufrinin bu kəndə gəlişindən sonra keçən bir ildən artıq müddətdə əhalidən nəzərdə tutulan vəsaitin heç yarısını da ala bilməmişdir. Protoierey bildirirdi ki, o, kilsə xadimləri üçün ərzaq tələb etməklə udinləri pravoslavlıqdan soyutmaq istəmir.Ona görə də o, kənddəki pravoslav ruhanilərinin saxlanması üçün burada pristav olmuş podporuçik Şaribeqov üçün müəyyən olunmuş vəsait qədər məqbləğin, əgər bu mümkün olmazsa, heç olmasa onun yarısı qədər vəsaitin ayrılması barədə yerli rəhbərlik qarşısında məsələ qaldırmağı ekzarxdan xahiş edirdi [3, s. 406-407].

Həmin vaxtı Vartaşen kəndində kilsə tikilməsi məsələsi bölgədəki pravoslav hakimiyyətin qarşısında duran əsas məsələlərdən biri idi. Gürcüstan ekzarxı mitropolit Feofilakt general-leytenant Velyaminova yazdığı 6 fevral 1820-ci il tarixli məktubunda bildirirdi ki, guya ki, udinlər Vartaşen kəndində müqəddəs Aleksandr Nevski adına kilsə tikməyə icazənin verilməsini xahiş edirlər və bu zaman bütün xərcləri öz öhdələrinə götürürlər. Ekzarx məktubunda eyni zamanda bildirirdi ki, kənd əhalisi tikiləcək kilsənin planını, kilsəni tikəcək ustaların əmək haqqını ödəməyi və ərzaqla təmin etməyi öz öhdələrinə götürməklə, ruslardan bir daşyonan, iki kərpickəsən, iki dülgər, iki taxta kəsən göndərməyi xahiş edirlər [14, s. 401]. Vartaşen kəndində kilsə tikintisi poruçik İvan Kurqanova həvalə olunmuşdu[2, v. 1 arxa].

Tsinamzqvarov Protoiereyin onun başlıca çətinliyinin pul vəsaiti ilə deyil kilsə tikintisi üçün lazım olan işçi qüvvəsi ilə bağlı olduğunu da deməsi Vartaşen udinlərinin heç də ruhani rəhbərliyinin əvvəlki məktublarında göstərildiyi kimi hamılıqla kənddə kilsə tikilməsinin, pravoslavlığa dönməyin tərəfdarı olması iddiasının yanlış olduğunu deməyə əsas verir [3, s. 406-407]. Çünki cəmi bir il sonra protoierey İosif Tsinamzqvarov Gürcüstan ekzarxı mitropolit Feofilakta göndərdiyi məktubunda Vartaşen kəndində kilsənin tikintisi məqsədilə hərbi-mülki rəhbərlik tərəfindən 2 taxta kəsənin, daş kəsən, kərpic kəsən və dülgərin ayrılması barədə 42-ci yeger alayına göstərişin verilməsinə baxmayaraq hələlik onların heç birinin onun yanıma gəlmədiyini bildirirdi.

Bu problemlə bağlı ilkin qaynaqların verdiyi məlumatlardan bəlli olur ki, bəhs olunan dövrdə bu diyara köçürülmüş gəlmə ermənilərin yerli udinlərin əcdadları tərəfindən yaradılmış xristianlıq irsinə sahib çıxmaq cəhdləri olmuş və

onların bu əməlləri bölgənin rəhbərliyində təmsil olunanermənilərtərəfindən də ciddi-cəhdlə müdafiə olunurdu. Bu barədə Vartaşendən Gürcüstan ekzarxına göndərilmiş məktubda göstərirdi ki, udinlərmüqəddəs apostol Faddeyin şərəfinə Vartaşenin yaxınlığındakı Bum kəndində tikilmiş,hündürlüyü 12 arşın, uzunluğu çoldən-çölə 12 arşın, eni isə 8 arşın olan kilsənin ermənilər tərəfindən haqsız yerə onların əllərindən alındığını iddia edirlər. Əfsanəyə görə Faddey xristian dinini təbliğ etdiyinə görə bütpərəstlər tərəfindən məhz həmin kilsənin tikildiyi yerdə öldürülmüşdür. Gürcüstan ekzarxının göstərişinə əsasən 42-ci Yeger alayının podporuçiki Aleksandr Toritsin ilə bir yerdə bu kilsəyə baxış keçirmiş protoiereyTsinamzqvarovun sözlərinə görə orada pravoslav kilsəsinin nümunəsində qurulmuş taxtın və qurbangahın olması onu deməyə əsas verir ki, bu kilsə ermənilərin iddia etdikləri kimi onlar tərəfindən deyil, qədim pravoslav əhali tərəfindən tikilmişdir [3, s. 406-407; 17, s. 413-414]. Bu da həmin kilsənin yerli xristian əhalisinə mənsub olduğunu deməyə əsas verir.

Yerli hakimiyyət orqanlarında çalışan ermənilər də erməni ruhanilərinin bu yalanının əsaslandırılması üçün çalışırdılar. Nuxa komendantının general-mayor Mədətova yazdığı 6 may 1821-ci il tarixli məktubunda Vartaşenin yaxınlığındakı müqəddəs Faddey kilsəsinin Faddeyin Bum kəndinin qədim sakinləri tərəfindən şəhid edilməsindən sonra şagirdi Yegişe Arakel tərəfindən tikildiyi göstərilirdi. Bu yer həmişə yerli türklər və qonşu Dağıstan xalqları üçün müqəddəs hesab olunmuş və onlar hər il müqəddəs həftənin ikinci günü ora gəlib qurbanlar kəsmişlər... Onun yazdığına görə guya ki, 300 il bundan əvvəl öz ruhaniləri ilə bu yerlərə gələn ermənilər pravoslav məbədlərin dağıntılarını bərpa etmişlər. Üç il bundan əvvəl isə Vartaşenin Arakel adında erməni sakini buradakı kilsənin əsasını qoymuş, müqəddəs Yeqişe Arakelin şərəfinə qədim məbədin dağıntılarının yerində kilsəni tikməyə başlamış, bir qədər əvvəl onun tikintisini başa çatdırmışdır. Beş ay bundan əvvəl erməni arxiyepiskopu Karapet tərəfindən bu kilsəyə xeyir-dua verilmiş və burada ibadət erməni keşişləri tərəfindən həyata keçirilir [17, s. 413-414].

General-leytenant Velyaminov tərəfindən udinlərin müqəddəs Faddey kilsəsinə olan iddialarının nə dərəcədə əsaslı olmasının yoxlanılması mənşəcə erməni olan general-mayor, knyaz Mədətova həvalə olunur. Bu yoxlamanın nəticəsində hazırlanmış məruzəyə əsaslanan general-leytenant Velyaminov Gürcüstan ekzarxı, mitropolit Feofilakta məktubunda yazırdı ki, general-mayor, knyaz Mədətov tərəfindən aparılmış təhqiqat nəticəsində müəyyən olunmuşdur ki, Vartaşenin yaxınlığındakı müqəddəs Faddey kilsəsi Faddeyin Bum kəndinin qədim sakinləri tərəfindən şəhid edilməsindən sonra onun şagirdi Yegişe Arakel tərəfindən bərpa edilmişdir. Bu ibadətgaha müsəlmanların əli dəyməmiş, lakin zaman onu yararsız vəziyyətə gətirmiş və 300 il bundan əvvəl öz ruhaniləri ilə bu yerlərə gələn ermənilər pravoslav məbədlərinin dağıntılarını bərpa etmişlər. Üç il bundan əvvəl Vartaşenin Arakel adında erməni sakini buradakı ilkin

kilsənin əsasını qoymuş müqəddəs Yeqişe Arakelin şərəfinə qədim məbədin dağıntılarının yerində kilsəni tikməyə başlamış, bir qədər əvvəl onun tikintisini başa çatdırmışdır.Bu səbəbdən də hesab edirəm ki, udinlərin bu tələbi təmin edilə bilməz [13, s. 448].

Hakimiyyət orqanlarındakı havadarlarına arxalanan erməni ruhanilər udinlərin öz dini ayinlərini sərbəst şəkildə yerinə yetirmələrinə imkan vermir, onlara təzyiqlər edirdilər. Protoierey Tsinamzqvar ekzarxa yazdığı məktubunda göstərirdi ki, Nuxa vilayətində olan ermənilər udinlərin ümumiyyətlə pravoslavlığı qəbul etməsinə, pravoslav udinlərin dini etiqadlarını yerinə yetirmələrinə maneçilik törədir, onlara erməni-qriqoryan dinini qəbul etdirməyə çalışırlar [4, s. 408].

Gürcüstan ekzarxlığı tərəfindən pravoslavlığın yayılması məqsədilə Vartaşen kəndinə göndərilən keşişlər erməni ruhanilərlə yerli udinlər arasında mövcud olan ixtilaflardan öz məqsədləri üçün istifadə etməyə çalışırdılar. Gürcüstan ekzarxı tərəfindən bu kəndə göndərilmiş keşiş Dmitriy Çaçikov ekzarxa yazdığı raportunda bildirirdi ki, kənddə olan ermənilər onların həmdinlərindən pravoslavlığı qəbul etmək istəyənlərə təzyiqlər edirlər. Ermənilər pravoslavlığı qəbul etmiş 18 udin ailəsini erməni qriqoryan dininə dönməyə məcbur etmiş, həmin ailələr üçün dini ayinləri erməni ruhaniləri yerinə yetirir və belə vəziyyət pravoslavlığı qəbul etmək istəyən udinlərin tərəddüd etməsinə səbəb olmuşdur. Onun sözlərinə görə yeni pravoslavlığı qəbul etmiş Vartaşen sakini, yüzbaşı İosif Yüzbaşişvili kəndin pravoslav hissəsinin ona verdiyi vəkalətə əsasən keşişə şikayət edərək bildirir ki, onlar kəndin erməni kovxaları tərəfindən təzyiqlərə məruz qalırlar, ermənilər hətta onların kilsələrini əllərindən alıblar. Pravoslav udinlər həmin kilsəyə getməsələr də əcdadlarının ibadət etdiyi bu yeri müqəddəs hesab edirlər. O xahiş edir ki, kəndin naibi və kovxası sayı 330 ailəyə çatan pravoslavlardan seçilsin. Ekzarx baş komandan Yermolovdan Vartaşen kəndinin keşişi Çaçikovun məktubunda göstərilənlərin yoxlanılması, əgər göstərilənlər təsdiqini tapardısa kilsənin udinlərə geri qaytarılması, ermənilərə pravoslavlığa keçmək istəyənlərə təzyiq etmələrinin qadağan edilməsi məqsədilə lazımi tədbirlərin görülməsini xahiş edirdi [15, s. 432].

Baş komandan Yermolov tərəfindən bu deyilənlərin yoxlanılması barədə göstəriş verilir. Aparılan yoxlama nəticəsində müəyyən olunur ki, keşiş Çaçikov öz fəaliyyətində xristian təbliğatçıları üçün müəyyən olunmuş həlim münasibətdən kənara çıxaraq xristianlığın təbliği zamanı zor və hədələrə əl atmaqla əhali arasında həyəcanlara səbəb olmuşdur. Bu barədə yerli sakinlər hələ 1822-ci ildə Nuxa komendantına şikayət etmişdilər. Bu barədə Yermolov ekzarxa yazırdı: "...Bütün bunları nəzərə alaraq Sizdən həmin keşişə müəyyən olunmuş mülayim rəftardan kənara çıxmağı qadağan etməyinizi xahiş etməyi

vəzifə borcum hesab edirəm. Çünki bizim dövlətimiz üçün bu diyarda sabitlik daha vacibdir.

Bununla bərabər sizə bildirmək istəyirəm ki, hökumət tərəfindən seçilən naib gərəkli səbəb olmadan yeni pravoslavlığı qəbul edənlərin şıltaq istəklərinə görə dəyişdirilə bilməz. Siz keşiş Çaçikova "Ruhən Allaha doğru yüksəldikcə dünyəvi şeylər barədə daha az düşünməlidir və ağılsız xalqi həyəcanlara sövq etməməlidir" deyərək onu ağla gətirsəniz özümü sizə borclu hesab edərəm [11, s. 433-434].

1814-cü ildə fəaliyyəti yenidən bərpa olunmuş Osetin Ruhani Komissiyasının qarşısında qoyulmuş vəzifələrdən biri də yerlərdə kilsələrin nəzdində məktəblərin təşkil olunması idi. Osetin Ruhani Komissiyası tərəfindən Qafqazda təşkil olunmuş 14 birsinifli kilsə məktəbindən 3-ü Şimali Azərbaycanda – Qorağan, Tasmalı və Vartaşen prixodlarında açılmışdı. Osetin Ruhani Komissiyasının nəzdindəki digər kilsə məktəblərində rus dili, Şimali Azərbaycandakı prixod məktəblərində isə gürcü dili keçilirdi. Bu fakt Gürcüstan ekzarxlığı tərəfindən Şimali Azərbaycanda həyata keçirilmiş pravoslavlaşdırma siyasətinin əsl mahiyyətinin həm də gürcüləşdirmə olduğunu deməyə əsas verir. Təsadüfi deyil ki, XIX əsrdə aparılmış siyahıyaalmalarda pravoslav udinlər zorla xristianlıq qəbul etdirilmiş ingiloylarla bərabər gürcülər kimi göstərilmişdir[9, s. 18-19].

1860-cı ildə Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyətinin yaranması ilə Vartaşen kəndindəki kilsə məktəbi bu Cəmiyyətin nəzdinə keçməklə onun vəsaiti hesabına saxlanırdı. Artıq 1878-ci ildə Vartaşen məktəbində 34 şagird oxuyurdu.Bu məktəbdə udinlərlə yanaşı, erməni, müsəlman və yəhudilər də oxuyurdu. Erməni ruhaniləri tərəfindən erməni-qriqoryan dininə etiqad edən udinlər üçün Nuxada yaşayan xüsusi müfəttişin nəzarəti ilə məktəbin açılması ilə Cəmiyyətin məktəbində oxuyan şagirdlərin sayı yavaş-yavaş azalmağa başlamışdı[8, s. 29; 46-49].

Çar Rusiyasının zamanında aparılmış müxtəlif siyahıyaalmalar əsasında udinlərin sayını müəyyən etmək çətinlik yaradır. Burada udinlərin pravoslavlığı qəbul etmiş hissəsi çox zaman gürcü, qriqoryan udinlər isə erməni kimi verilirdi. 1868-ci ilə dair məlumatda Vartaşendə 250 tüstü pravoslav, qalanı isə qriqoryan olmaqla 350 tüstü udinin yaşadığı göstərilir. Qəbələnin Nic kəndində isə hamısı qriqoryan olan 400 tüstü udin var idi[7, s. 324].

XIX əsrin sonu üçün Şimali Azərbaycanda yaşayan udinlərin sayı barədə məlumatlarda bir-birinə yaxın olmaqla müxtəlif rəqəmlər göstərilir.1897-ci il ümumrusiya siyahıyaalmasının məlumatına görə Nuxa qəzasında 3773 kişi, 3267 qadın olmaqla, cəmi 7040 nəfər udinin olduğu göstərilir[10, s. 61-62]. 25 may 1898-ci il qanununa əsasən hərbi mükəlləfiyyət daşıyan xalqların içərisində isə udinlərin sayı hər iki cinsdən olmaqla 8760 nəfər göstərilir[6, s. 14].

Mənşəcə udin olan Arutinov da tədqiqatında XIX əsrin sonu üçün udinlərin sayının 7801 nəfər olduğunu göstərir. Onun yazdığına görə udinlərin 5084 nəfəri Nicdə, 2217 nəfəri Vartaşendə yaşayırdı. Vartaşen udinlərindən 750 nəfər pravoslav qalanları qriqoryan, Nic udinləri isə hamılıqla qriqoriyan idi. 7301 nəfər udinin 3815 nəfəri kişi, 3486 nəfəri isə qadın idi [1, s. 7].

Aparılmış tədqiqata yekun vuraraq belə bir nəticəyə gəlmək olar ki, çar Rusiyasının Şimali Azərbaycandakı apardığı dini siyasətində udinlər xüsusi yer tuturdu. Çarizmin Qafqaz komandanlığı və yerlərdəki ruhani rəhbərliyin udinlərə münasibətdəki siyasəti özünün müstəmləkəçi mahiyyəti ilə seçilmişdir ki, tədqiqatdan da göründüyü kimi ermənilər bu işdə xüsusi rol oynamışdılar. Bu zaman udinlərin ən incə duyğuları ilə oynanılırdı, ermənilər tərəfindən onların dini-mədəni irsinin əllərindən alınmasına cəhdlər edilirdi. Ermənilərin bu əməlləri isə rus hakimiyyəti tərəfindən müdafiə olunmaqla bu yolla öz məqsədlərinə nail olmaq siyasəti yeridilirdi. Şəki əyalətinə köçürülmüş ermənilərin udinlərin yaratdıqları maddi-mədəni irsə olan əsassız iddiasını bəhanə gətirən rus hakimiyyəti yerli əhalinin müqəddəs hesab etdiyi, qurbanlar kəsdiyi qədim alban məbədi olan müqəddəs Faddey kilsəsini onların əllərindən almağa çalışırdı. Yerli hakimiyyət orqanları isə ermənilərin bu həyasızlıqlarına seyrçi, bəzən də qızışdırıcı və erməni meyilli mövqe tuturdular.

## Ədəbiyyat

1. Арутинов А.А. Удины (материалы для антропологии Кавказа). Москва, типография С.П.Семенова, 1905. 108 стр.

2. Документ по распространению христианства в Шекинской провинции (от 29-го июля 1825 года). Центральный Исторический Архив Грузии, фонд 488, опись 1, дело 1276

3. Донесение протоиерея Иосифа Цинамзгварова митрополиту Феофилакту, от 4-го марта 1821 года, док. №540, стр. 406-407. АКАК, т. 6, часть 1-я, Тифлис, 1874.

4. Донесение протоиерея Иосифа Цинамзгварова митрополиту Феофилакту, от 16-го апреля 1821 года, док. №544, стр. 408. АКАК, т. 6, часть 1-я, Тифлис, 1874.

5. Камеральное описание жителей города Нухи и Шекинской провинции за 1824 год. Составлено капитаном Харченновым и поручиком Скоржинским. Dövlət Tarix Arxivi, fond 24, siyahı 1, iş 162.

6. Население Кавказа как источник комплектования армии. По данным десятилетия 1892-1901 гг. (составитель капитан военного штаба Андриевский) Тифлис, типография Штаба Кавказского военного округа, 1906. 108 стр.

7. Отчёт общества восстановления православного христианства на Кавказе за 1866 год. Журнал «Калужские епархиальные ведомости». 1868, 15-го июня. №11. Стр. 313-330. https://vivaldi.nlr.ru/ap000015412/view/#page=

8.ОтчётОбщества Восстановления Православного Христианства на Кавказе за 1878 год. Тифлис, типография Главного управления главнонач-шегогражд. Частю на Кавказе, 1888. 136 стр.

9. О действиях высочайше учрежденного общества восстановления православного христианства на Кавказе. Спб., типография императорской Академии Наук, 1862. 36 стр.

10. Первая всеобщая перепись населения Российской Империи, 1897 г., Елисаветпольская губерния.под ред. Н.А.Тройницкого, вып. 63, Тифлись, издание Цент. Стат. Комитета Министерства Внут. Дель, 1904. 183 стр.

11. Письмо ген Ермолова к экзарху Грузии, от 28-го июлья 1823 года, док. №581, стр. 433-434. АКАК, т. 6, часть 1-я, Тифлис, 1874.

12. Письмо ген-л Вельяминова к митрополиту Феофилакту, от 16-го ноября 1819 года, док. №525, стр. 397. АКАК, т. 6, часть 1-я, Тифлис, 1874.

13. Письмо ген-л Вельяминова к митр. Феофилакту, от 23-го мая 1821 года, док. №599, стр. 448. АКАК, т. 6, часть 1-я, Тифлис, 1874.

14. Письмо митрополита Феофилакта ген-л Вельяминову, от 6-го февраля 1820 года, док. №528, стр. 401. АКАК, т. 6, часть 1-я, Тифлис, 1874.

15. Письмо экзарха Грузии Ионы к ген Ермолову, от 3-го мая 1823 года, док. №577, стр. 432. АКАК, т. 6, часть 1-я, Тифлис, 1874.

16 Подробная записка протоиерея Иосифа Цинамзгварова. стр. 401. АКАК, т. 6, часть 1-я, Тифлис, 1874.

17. Рапорт Нухинского коменданта, ген-м, кн. Мадатову, от 6-го мая 1821 года, док. №546, стр. 413-414. АКАК, т. 6, часть 1-я, Тифлис, 1874.

18. Центральный Исторический Архив Грузии, фонд 489, опись 1, дело 42099.

## Antik dövr metallurgiyası və metal istehsalının öyrənilmə tarixi

**Nəsibə Mustafayeva**
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)
nasibamustafayeva@gmail.com

### Xülasə

**Açar sözlər: Antik dövr, Yaloylutəpə, dəbilqə, torpaq qəbr**

Qafqaz Albaniyasının zəngin arxeoloji abidələri bu ərazinin böyük tarixə və mədəniyyətə malik olduğunun göstəricisidir.

2009-cu ildə, Şəki-Qax-Oğuz arxeoloji ekspedisiyası Oğuz bölgəsinin Kərimli kəndi ərazisində yerləşən və şərti adı "Hökmdar məzarlığı" adlandırılan kurqanlar düzündə iki istiqamətdə iş aparılmışdır. "Hökmdar məzarlığı"-da yerləşən 1-saylı kurqanda aşkar edilmiş qızıldan olduğu güman edilən öküz başı fiquru və may böcəyi formasında olan medalyon diqqəti daha çox cəlb edir.

2009-cu ildə, Qəbələ arxeoloji ekspedisiyasına təqdim edilən Tola kəndi sakini tərəfindən tapılmış metal dəbilqə də böyük marağa səbəb olmuşdur. Eynilə belə bir dəbilqə 1965-ci ildə Ağsu rayonunun Nüydi kəndi yaxınlığında tapılmışdır.

Tədqiqatlar əsasında aşkar edilmiş qəbirlərin və metal məmulatların b.e.ə II-III əsrlərə və eramızın II-III əsrləsinə aid etmək olar.

## History of the study of ancient metallurgy and metal production

**Nasiba Mustafayeva**

### Summary

**Keywords: Antique period, Yaloylutapa, helmet, ground grave**

Wealth archaeological monuments of Caucasian Albania is indicator of existence of ancient history and culture in this territory.

In 2009, archeological expedition of Shaki-Qakh-Oghuz made investigation on two directions in mound plain called as "King's tomb" conventional name where located in Karimli village around of Oghuz district.Figures, supposed made by gold, like head of ox and medallion like beetle, discovered in 1st mound of "King's tomb" attracted so much.

In 2009, metal helmet discovered from Tola village at archeological expedition of Gabala by peasant, was great cause of interest.Similary, helmet like that, discovered around of Nuydu village of Aghsu district.

Metal products and graves which was discovered by investigations we can relate b.c II-III centuries and a.d II-III centuries.

## История изучения древней металлургии и производства металлов

**Насиба Мустафаева**

**Резюме**

**Ключевые слова: античный период, Ялойлутапе, земляная могила**

Богатство археологических памятников Кавказской Албании свидетельствует о существовании на этой территории древней истории и культуры.

В 2009 году археологическая экспедиция Шеки-Гах-Огуз провела исследование по двум направлениям на холмистой равнине, называемой условным названием «Царская гробница», в селе Керимли Огузского района.Так привлекали фигурки, предположительно сделанные из золота, такие как голова быка и медальон в виде жука, обнаруженные в 1-м кургане «Царской гробницы».

В 2009 году большой интерес вызвал металлический шлем, обнаруженный крестьянином в селе Тола во время археологической экспедиции в Габале. Аналогичный шлем был обнаружен в районе села Нуйду Агсуинского района.

Металлические изделия и могилы, обнаруженные в результате исследований, можно отнести к II-III вв. До н.э. и II-III вв. Н.э.

Azərbaycan ərazisində antik dövrün araşdırılması müstəqillik dövründə dahada aktivləşdirildi.2009-cu ildə N.Muxtarov və İ.Bədəlova tərəfindən Şəki-Qax-Oğuz arxeoloji ekspedisiyası geniş tədqiqat işi aparılmışdır.Oğuz bölgəsinin Kərimli kəndi ərazisində yerləşən və şərti adı "Hökmdar məzarlığı" adlandırılan kurqanlar düzündə iki istiqamətdə iş aparılmışdır. "Hökmdar məzarlığı"-da yerləşən 1-saylı kurqanda aşkar edilmiş qızıldan olduğu güman edilən öküz başı fiquru və may böcəyi formasında olan medalyon diqqəti daha çox cəlb edir. Öküz başı fiquru hakimiyyət rəmzidir. Adətən belə fiqurlar Şumer hökmdarlarına məxsus sərdabələrdə aşkar edilir. Lakin Kərimli kurqanından tapılmış öküz başı daha çox zebunu xatırladır. Yerli istehsal olduğu şübhə doğurmur.Şəki, Şəmkir, Qaracəmilli tunc maral fiqurları bu semantikaya daxildir.(1.səh81-82)

Kurqandan tapılan maybböcəyi fiquru Azərbaycanın bugünki düşüncəsi ilə təsdiqlənən mifologiyamızın qədim qaynaqlara malik olduğunu göstərir.(1.səh81-83)

Kurqandan aşkarlanan bəzək əşyaları, silah və əmək əşyaları tuncdan hazırlanmışdır.

2009-cu ildə İ.Babayev tərəfindən aparılmış Qəbələ arxeoloji ekspedisiyasının Antik Qəbələ dəstəsinin apardığı çöl-tədqiqat işlərinin də maraqlı işləri olmuşdur.Ekspedisiya-qazıntı işləri aparılarkən yaxınlıqda yerləşən Tola kəndinin sakini Məhərrəmov Hafiz öz kəndlərindən təxminən 1km şimalda Tola ilə Sultan Nuxa kəndləri arasında yerləşən Uzuntala adlanan yerdə su arxa çəkilərkən metal dəbilqə tapdığı haqda məlumat verdi. Bu dəbilqə Azərbaycan Tarix muzeyinə təqdim edilmişdir. Dəbilqə nazik mis təbəqədən düzəldilib. Bəzi hissələri qırılsa da, onun tam formasını müəyyən etmək mümkündür. Dəbilqə yuxarıdan silindirik boru olan qulaqlı papaq formasındadır. Eynilə belə bir dəbilqə 1965-ci ildə Ağsu rayonunun Nüydi kəndi yaxınlığında tapılmışdır. Dəbilqənin kənarlarında bir neçə yerdə cüt-cüt kiçik dairəvi deşiklər vardır. Yəqinki bu deşiklər onun içərisindəki qalın keçə astarı tikmək üçündür. Həmin ərazidən tunc və dəmir bəzək əşyalarıda aşkar edilmişdir. Tədqiqatlar əsasında dəbilqənin və aşkar edilmiş qəbrlərin b.e.ə II-III əsrlərə aid etmək olur.(1.səh185)

2009-cu ildə Mil-Qarabağ arxeoloji ekspedisiyası Ağcabədi rayonun ərazisində Qalatəpə qədim yaşayış məntəqəsində qazıntı işləri aparmışdır.Bu şəhərdə 150-200m şərqdə 4 hektara yaxın sahədə antik dövrə aid küpqəbrlərdən ibarət nekropol yerləşir. Qədim Gavurarxın dərin yatağı bu nekropolu Qalatəpə şəhər məskənindən ayırır.Güman edilirki, bu suvarma sistemi eramızın ilk əsirlərində çəkilmiş, küp qəbrləri nekropolunu kəsməklə Qarqarçayla birləşdirilmişdir. Bu ərazidə qazıntı aparılmış və 4 küp qəbr aşkar edilmişdir. Qəbr avadanlığı arasında dəmir qılınc, tuncdan çoxlu miqdarda bəzək əşyaları-sancaq, zınqırov, üzük, quş və maral fiqurları, pasta, əqiq və müxtəlif daşlardan muncuqlar vardır. Bir saylı küp qəbrin içərisinə mərhumu sağ böyrünün üstünə, tiyəsinin mərkəzinin eni 10sm dəstəklə birgə ümumi uzunluğu 1m olan dəmir qılınc qoyulması bu qəbrin döyüşçüyə məxsus olduğunu söyləməyə əsas verir. Dəfn küplərinin xeyli kiçik olduğu digər 3 qəbrdən muncuq, kiçik ölçülü üzük, sırğa və başqa bəzək əşyaları üstünlük təşkil edir. Bu isə həmin küplərdə uşaq və qadınların dəfn edildiyini göstərir. Qalatəpə nekropolunun saxsı məmulatı Mil-Qarabağ düzənliyindəki oxşar və sinxron abidələrdə xüsusilə Ağcabədi rayonunun Üzeyirkənd yaxınlığındakı Qaraköbər küp qəbrlərindən əldə edilən materiallara yaxındır.(2.səh69-96) Həmin ərazidə aşkar edilmiş sallama qəbrlərdən tuncdan hazırlanmış aşağıdakı bəzək əşyaları tapılmışdır. İki ədəd sancaq, iki ədəd lövhə şəkillə asma bəzək, bir cüt sırğa, dörd ədəd zınqırov, çubuqvari halqa və bir ədəd sədəf qaşlı üzük. Sancaqlardan birinin rombşəkilli üzəri pasta və mina ilə bəzədilmişdi. Belə sancaq bəzəklər eramızın ilk əsirlərində Roma İmperiyasının əyalətlərində geniş yayılmışdır (3.səh345, 4,102,214). Azərbaycanın digər abidələrindən (Mingəçevir, Qəbələ, Şamaxı

və.b) Qara dənizin şimal sahillərindəki antik abidələrdən, qonşu regionlarda oxşar sancaqlara təsadüf olunmuşdur. Qaratəpə nekropolunda rast gəlinmiş sancaqların Roma mənşəli olması şübhə doğurmur. C.Xəlilov hesab edir ki, bəzək sancaqlar iqtisadi ələqələr nəticəsində Romadan vəya onun əyalətlərindən Albaniyaya gətirilmişdir(4.səh144).

Roma da Yuli Sezarın ölümündən sonra sikkələrin üzərinə hökmdar və onun ailə üzvlərinin baş hissəsinin həkk olunmasına başlamışdır. Oktavian Avqustun dövründən 25 denariyə bərabər olan (8.19q) qızıl və bürüncdən Dupondia və Sesteria dövriyyəyə buraxılmışdır. Sesterianın çəkisi isə 1unsiya(29.86q)(4.səh79).

2009-cu ildə Nərgizava nekropolunda aparılmış arxeoloji tədqiqatlarıda böyük əhəmiyyət kəsb edir.Ağsu rayonunun Gəgəli kəndi ərazisində yerləşən Nərgizava abidəsi Azərbaycanın zəngin antik və ilk orta əsr abidələrindən biridir. Hələ ötən əsrin 80-90-cı illərində yerli əhali öz həyətyani sahələrində apardığı təsərüfat işləri zamanı müxtəlif ölçülü saxsı qablara, tunc, gümüş və qızıl əşyalara, silahlara insan və heyvan sümüklərinə rast gəlirdilər. Buradan tapılmış yüzdən artıq unikal əşya yerli sakinlər tərəfindən milli Azərbaycan tarixi muzeyinə və Ağsu rayon Tarix və Diyarşünaslıq muzeyinə təhvil verilmişdir.2009-cu il iyun ayında AMEA Arxeologiya və Etnoqrafiya İnstitunun Şamaxı-Xınıslı ekpeditisiyası A.A. Quliyevin rəhbərliyi ilə Nərgizava abidəsində kəşfiyyat işlərini başladı.

Kənd sakini Məhəmməd Mirzəyevə məxsus həyətyani sahədə aparılan qazıntı işləri zamanı 30 torpaq qəbr aşkar edildi. Skeletlər əsasən başı cənub istiqamətində sağ böyrü üstə bükülü vəziyyətdə dəfn edilmişdilər. Kişi skeletlərinin yanında dəmir nizə ucluqları, bıçaqlar, qadın skeletlərinin yanından müxtəlif muncuqlar, dəmir sancaqlar aşkar edildi. Qazıntılar zamanı aşkar edilmiş 6-saylı torpaq qəbr uşağa məxsus idi. Sol böyrü üstə üzü cənub-şərqə dəfn edilmiş qız uşağının baş hissəsindən bir ədəd iri tunc asma muncuq aşkar olundu(5.səh194). Yeddi saylı torpaq qəbr isə, kişiyə məxsus qəbr olub baş tərəfinə bir ədəd ucu şimal-qərbə istiqamətlənmiş dəmir nizə ucluğu qoyulmuşdu(5.səh194). 11-saylı qəbrdə aşkar olunmuş skeletin üzü cənub-şərqə qoyulmuş və başının arxasında yerə basdırılmış üç ədəd dəmir nizə ucu aşkarlandı(5.səh195). 16-saylı qəbrdə skelet sağ böyrü üstə başı cənub-şərqə doğru olmaqla dəfn edilmişdir. Skeletin çanaq sümüyünün arxasından dəmir bıçaq aşkar olundu(5.səh196). 18-saylı qəbrdə də skelet 16-saylı qəbrdə olduğu kimi dəfn edilmiş, qarşısında bir ədəd dəmir nizə ucluğu sancılmışdır (5.səh196). 28-saylı qəbrdə aşkar edilmiş skeletin yanında bir ədəd dəmir qarmaq, sinəsində isə dörd ədəd müxtəlif formalı muncuq aşkar olunmuşdu(5.səh197). 29-saylı qəbrdə skeletin arxa tərəfində bir ədəd dəmir nizə ucluğu basdırmışdır. 30-saylı qəbrdə, dəfn edilmiş skeletin əllərinin qarşısında dəmir bıçaq aşkar olundu. Dizlərinin qarşısında qoyulmuş Nərgizava

tipli qabın yaxınlığından dəmir nizə ucluğu tapıldı. Nizə ucluğu əyilmiş vəziyyətdə qəbrə qoyulmuşdu. Çanaq sümüyünün üzərində dəmir toqqa başlığı aşkar edildi(5.197).

Qax rayonu Lələli kəndi yaxınlığındakı yaşayış yerində aparılan tədqiqatlar bölgənin antik dövr tarixini öyrənməyə imkan verir.Qazıntılar zamanı həvəngdəstə və çəki daşlarından savayı çaydaşlarından düzəldilmiş qara rəngli amuletlər, kiçik obsidian fraqmentləri, tunc fiqur, tuncdan hazırlanmış bəzək əşyaları və ox ucluqları aşkar olunmuşdur(6.səh208).

2012-ci ildə Azərbaycanın şimal-qərb rayonlarında aparılan arxeoloji tədqiqatlar və qazıntı işləri davam etdirilmişdir. Şəki rayonu ərazisində (Fazil kənd) Təpəbaşı nekropolunda dörd qəbr abidəsi tədqiq edilmişdir.1-saylı qəbr, torpaq qəbr olub, uşağa məxsusdur.Qəbrdə bıçaq, nizə tiyələri aşkar edilib. Qəbrin antik dövrə aid olduğu şübhə doğurmur.(7.səh114)

2-saylı qəbr, açılmış qəbrlərdən bəzək əşyalarının zənginliyi ilə fərqlənir.Bu isə bu qəbrin qadına məxsus olduğuna əsas verir. Skeletin qarşı tərəfində mis bəzək əşyaları, mis halqalar, mis və qeyri-metaldan kiçik muncuqlar aşkar edilmişdir. Onuda qeyd edək ki, bütöv şəkildə iribuynuzlu heyvan sümüklərinin insanla birlikdə dəfni ikinci dəfədir ki, Təpəbaşı nekropolunda qeydə alınır.Qəbrlərin demək olar ki, eyni dövrə(b.e.ə 4-3 əsrlərə) aid olduğu şübhə doğurmur.(7.səh115)

3-saylı qəbr, inventarları bütövlükdə 50 ədəddir.Qəbrin bir küncündə isə nizə, xəncər(çox pis qalıb) olan kiçik bardaq qoyulub.(7.səh115)

4-saylı qəbrdən dördkünc şəkildədir. Skeletin kəllə sümüyü tərəfdən düymə formalı mis və qeyri-metal muncuqlara təsadüf edilir.Qəbrdə bir ədəd kiçik dəmir xəncər tiyəsi tapıldı. Sol gicgah sümüyünü 6sm deşərək içəri girmişdir. Digər dəmir xəncərin qəbrin şərq hissəsində, tiyə hissəsi tam çürümüş, küt hissəsi qismən salamat qalmış, nizə isə kəllə sümüyündən bir qədər aralı aşkar olundu. Ümumiyyətlə 2012-ci ildə tədqiq edilən qəbrlər Qafqaz Albaniyasının b.e.ə IV-III yüz illiklərinə aiddir.(7.səh116)

Oğuz rayonu Kərimli kəndi Dərə-Zəmin nekropolunda dəfn adətinin səciyyəvi və ümumi cəhətlərinin xronologiyasını dəqiqləşdirmək üçün arxeoloji qazıntı işləri aparılmışdır. Bu ərazidə 4 ədəd qəbr aşkarlanmışdır.

4-saylı qəbr araşdırılarkən ilk dəfə olaraq Dərə-Zəmin nekropolunda ox ucları məhs bu qəbrdə aşkar olunur.Bu qəbrin döyüşçü vəya ovçu qəbri də adlandıra bilərik. Qəbrdən bütöv xəncər və mərmərdən ortası deşik çoxbucaqlı formada kəsik konusa oxşar əsa başı, onun içinə üstünə qoyulmuş ox ucları və bir ədəd maşa(pinsetə oxşayır, naqqaş da hesab etmək olar), xəncərin altından bir kiçik bıçaq da aşkar olunub. Ümumiyyətlə bu qəbr də metal məmulatların sayı 10 ədəddir(bıçaq, naqqaş, xəncər və yeddi ədəd ox ucu)(8.səh118-119) .

Antik dövr üzrə Lerik arxeoloji ekpedisiyasının apardığı tədqiqatlarda mükəmməl nəticə verdi(C.T. Eminli, E.Ə. İskəndərov). Arxeoloji ekspedisiya

zamanı Gürdəsər kəndi ərazisində,Əliabad-Gürdəsər yolunun üstündə Piboz adlı (talışcadan tərcüməsi əldən düşmüş, qocalmış yer mənasını verir) təpədən torpaq qəbrləri tədqiqata cəlb olunmuşdur.2012-ci il tədqiqatları nəticəsində otuz torpaq qəbr araşdırılmışdır.

Aşkar edilmiş qəbrlər həm böyüklər, həmdə uşaq dəfnlərinə aiddir. Bu qəbrlərdə müəyyən xüsisiyyətlər vardır ki, hərbirində kül və kömür izləri, başlarının yuxarı hissəsində vəya arxasında piyalə dəmir nizə başlığı qoyulmuşdur(9.səh211).

Bəzi qəbrlərdə nizə başlıqlarına 3-5 ədəd və daha çox təsadüf olunmuşdur.Nizə başlıqlarına uca yaxın hissələrində əymələr vardır ki, bunun xüsusi məqsədlə edilmə ehtimalı vardır. Dəmir nizə başlıqları ilə yanaşı skeletn qarşısında vəya arxasında dəmir qılınc və xəncər, qurşaq hissəsində oraqvari bıçaqlar vardır. Nadir hallarda skeletin kəlləsi yaxınlığında qoyulmuş kasa və iri piyalənin içərisində də dəmirdən hazırlanmış oraqvari bıçaq vəya nizə başlığı aşkar edilmişdir.(9.səh211)

Bütün qəbrlər tunc və gümüş qolbağlar, üzüklər, sırğalar kimi bəzək əşyaları ilə zəngindir. Tunc əşyalarla nisbətdə gümüş nümunələr azlıq təşkil edir. Tunc bəzəklər içərisində it və maral formalı asmalar, şəbəkə formalı zınqırov asmalar, saç boruları da vardır.(9.səh211)

Qəbrlərin çoxu tək dəfndən ibarət olsa da iki halda qoşa dəfnli qəbrlərədə rast gəlmək olur. 41 nömrəli qəbrdə dəfn olunmuş ana və uşaq cənub-qərb, şimal-şərq istiqamətində zəif bükülü vəziyyətdədirlər. Ananın kəlləsinin yuxarı hissəsində içərisində kiçik piyalə və oraqvari bıçaq qoyulmuş kasa vardır.Kasanın yanına dəmir nizə başlığıda qoyulmuşdur. Hər iki skeletin üzəri və ətrafı tunc və gümüş bəzək əşyaları həmçinin müncuqlarla zəngindir(9.səh211).

Çox nadir hallarda skeletin qolları üzərində həmçinin oksidləşmə zamanı qolbağa yapışmış vəziyyətdə parça qalıqlarına, kömürləşmiş vəziyyətdə geyim, xüsusəndə baş geyim izlərinə təsadüf edilir. 24 nömrəli qəbri buna misal göstərmək olar. Sağ yanı üstə zəif bükülü vəziyyətdə aşkarlanmış skeletin başı kömürləşmiş düymələrlə əhatələnmişdir. Kəllənin üzərində təxminən 2sm enində qara ləkə vardır ki, düymələrin məhs onun üzərində olduğunu söyləmək olar. Ölünün qolları dirsəkdən bükülərək üzünün qarşısına qoyulmuş sonra üzərində od mərasimi keçirilmişdir. Qulaqlarında gümüş sırğa, barmaqlarında tunc məftildən spiral üzüklər, qollarında tunc qolbaqlar vardır. Qolbaqların ortası içəriyə batıq hazırlanmışdır. Skeletin qurşağını tunc halqalardan hazırlanmış kəmər, kəməri birləşdirən göbələkvari tunc başlıqlar əhatə etmişdir. Onun qurşağı üzərində olan oraqvari bıçaq da, qeyd edilən tunc kəmərdən asılmışdır. Başında bəzək vəya geyim detallarına sıx bükülü dəfn olan 22 nömrəli qəbrdə də rast gəlinmişdi.(9.səh211)

Bu məzarlıqda sıx bükülü vəziyyətdə dəfn olunmuş qəbrlərə də təsadüf edilirdi. Zəif bükülü qəbrlərdən fərqli olaraq sıx bükülü dəfnli qəbrlər azlıq təşkil edir. Sıx bükülü dəfn qəbrlərində də sağ və sol yanı üstə qoyulma, qəbrin istiqaməti qəbr avadanlığı, kül və kömür qalıqları kimi əlamətlər eynidir. Sıx bükülü dəfnli qəbrlər daha iri ölçülü olur. Misal üçün 22 nömrəli qəbrin uzunluğu 3m-dən bir qədər artıqdır. Digər qəbrlərdəki kimi burada kiçik örtülü qablar kəllənin yuxarı və arxa hissəsində iri həcmli qablar ayaq tərəfdə qoyulmuşdur. İri ölçülü qablar bəzən qalaq halında, çox vaxt isə bir cərgə boyu qoyulur. Dirsəklə qarın arasındakı boşluğa banka formalı qabın qoyulması bu qəbrlər üçün səciyyəvidir. Qeyd edilən qabın içərisində gildən hazırlanmış iy başlığı vardır. Skeletin qolları tunc qolbaqlar barmaqları tunc üzüklərlə zəngindir. Əllərinin qarşısında kömür qalıqları vardır. Zəif bükülü dəfnli qəbrlərdən fərqli olaraq sıx bükülü dəfnli qəbrlərdə heyvan sümüklərinə daha kütləvi şəkildə təsadüf olunur.(9.səh211-212)

Piboztəpə nekropolunda təsadüf olunan digər qəbrin növünə parçalanmış dəfnli qəbrləri aid etmək olar. Nekropolda, sonrakı dövrdə dağıdılmış qəbrlərlə yanaşı, parçalanmış dəfnli qəbrlərin də olması bir qədər çaşqınlıq yaradır.Parçalanmış dəfnli qəbrlər dedikdə, cəsədin parçalanaraq qəbrə qoyulması nəzərdə tutulur ki, bunlar dağıdılmış qəbrlərdən bir çox əlamətlərinə görə seçilirlər. Parçalanmış dəfnli qəbrlərdə skeletlər qəbr kamerası sərhədləri daxilində izlənilir. Alt vəya üst çənənin çevrilərək sümüklərin içərisinə qoyulmasına da parçalanmış dəfnli qəbrlərin bir əlaməti kimi güman etmək olar. Bu kimi qəbrlərdə olan skeletlər üzərində bəzək əşyalarının olması parçalanmış qəbr əlaməti ehtimalında çaşqınlıqlar yaradır.(9.səh212)

Parçalanmış dəfnli qəbrlərlə yanaşı Piboztəpə nekropolunda dağıdılmış qəbrlərədə təsadüf edilmişdir. Nekropolda dağıdılmış vəya dağılmış qəbrlərin birneçə baş vermə səbəbi müəyyənləşdirilmişdir. Buna misal olaraq həmdövr qəbrlərin sıx qazılması(bu səbəb çox nadir hallarda izlənilir) sonrakı dövr qəbrlərinin qazıntısı, yol çəkilişi, torpaq və təsarüfat işləri səbəb kimi göstərmək olar.Dağıdılmış qəbr bir çox hallarda bəzək əşyalarıda smüklərlə birlikdə kənarda qalaqlanmış vəya ikinci dəfə basdırılmışdır.

Tədqiqatlara cəlb olunmuş qəbrlərdən saxsı, daş, şüşə, sümük, tunc, gümüş və dəmir məmulatları toplanmışdır.(9.səh212)

Bütün qəbrlər zəngin bəzək əşyaları ilə müşaiyət olundu. Beləliklə skeletlərin sağ və sol qollarında bir-üç bəzən isə yeddi tunc qolbaq, barmaqlarında da tuncdan adi məftil formalı, spiral və lentşəkilli üzüklər baş hissəsində tunc və gümüşdən hazırlanmış sırğalara təsadüf olunur. Qolbaqlar üçün əsasən ortası içəriyəbatıq forma səciyyəvidir. Qalın gövdəli başlarına doğru daralan qolbaqlar da vardır. Bucür qolbaqların qurtaracaq yerləri dərin cızmalarla bəzədilmişdir.(9.səh212)

2012-2016-cı illərdə İ.A. Babayevin rəhbərliyi ilə antik Qəbələ şəhərinin yerində aparılmış qazıntılar davam etdirilmişdir. 1967-1983-cü illərdə I və II qazıntı sahələrində ictimai binaların qalıqları ilə yanaşı çoxlu gil bullalar b.e.ə III-I əsrlərdə zərb olunan yerli və başqa ölkələrdəndən gətirilən o cümlədən Parfiya hökmdarlarının draxmaları, Yuli Sezar və başqa Roma imperatorlarının gümüş denariləri, çox güman ki, Qəbələnin özündə zərb olunan gümüş, pullar tapılmışdır. Tapıntılar arasında digər ölkələrdən gətirilən əşyalar da vardır.

Bu tapıntılar o zaman Qəbələdə öz dövrü üçün yüksək şəhər mədəniyyətinin olduğunu və bu şəhərin bir çox öləkələrlə ticarət əlaqələri saxladığını göstərir. Tapıntılar eyni zamanda göstərir ki, şəhərin bu hissəsində b.e.ə III-I əsrlərdə ticarətlə əlaqədar tikililər olmuşdur.(10.səh197)

1966-cı ildə, burada 2 kiçik ölçülü kurqanın yerli əhali tərəfindən dağıdılması zamanı orada b.e.ə II əsrin 30-20-cı illərdə gizlədilən böyük pul dəfinəsinin tapılıb dağıdılması ilə əlaqədar qazıntılar aparılmışdır. O zaman həmin sahədə 700-ə qədər gümüş pullar toplanmışdır. Bir çox pullar isə yerli əhali arasında yayılmışdır. Toplanılan pullar haqqında Moskvada böyük məqalə nəşr edilmişdir. (11.səh198)

2016-cı ilin mart ayında Şamaxı-Ağsu arxeoloji ekspedisiyasının rəhbəri A.A. Quliyev tərəfindən Şamaxı rayonu Dəmirçi kəndi ərazisində Gəgəli nekropolunda arxeoloji qazıntı işləri aparılmışdır. Burada on daş qutu qəbr yeri müəyyən edilmişdir.(12.səh251)

Üzəri iri sal daşlarla örtülmüş qəbrlər içəridən qaya və çay daşları ilə uzunsov formada hörülmüşdür. Qəbr təmizlənərkən buradan tuncdan düzəldilmiş möhür üzük aşkar edilmişdir.

I saylı qəbr: Skeletin boğaz nahiyəsindən çoxlu sayda pasta muncuqlar əlinin yanından tuncdan düzəldilmiş möhür üzük aşkar edilmişdir.(12.səh256-258)

II saylı qəbr: Skeletin sinəsinin qarşısında uzunluğu 0.9m dəmir qılınc qoyulmuşdur. Qılınc erroziyaya uğrasa da, üzərində ağac qının fraqmentləri aydın seçilirdi.(12.səh259)

III saylı qəbr: Skeletin sinəsinin qarşısında uzunluğu 0.8m olan dəmir qılınc qoyulmuşdur. Paslanmış qılıncın üzərində ağac qının fraqmentləri müşahidə olunurdu.(12.səh257)

IV saylı qəbr: Skeletin əlinin yanından tunc möhür üzük, boğaz nahiyəsində pasta muncuq aşkar edildi. Möhürün üzərində cızma naxışlar var.(12.səh257)

VI saylı qəbr: Skeletin sinəsinin qarşısında uzunluğu 0.7m olan dəmir qılınc qoyulmuşdur. Qılınc üzərində ağac qının fraqmentləri aydın seçilirdi.(12.səh258)

Gəgəli nekropolundan ümumilikdə möhür üzüklər, mis asma-lövhə, pasta muncuqlar, dəmir qılınc, nizə ucluqları aşkar edilmişdir(12.səh285).

Şamaxı rayonunun Dəmirçi kəndində yaşayan etnik məişəcə tat olan yerli əhali XIX əsrin əvvəllərində indiki İsmayıllı rayonunun Lahıc bələdiyyəsinə daxil olan Əhən kəndindən buraya köçmüşdürlər.Əhən sözünün tat dilində tərcüməsi də elə "dəmir" kimi izah edilir. Buda kənd əhalisinin qədim zamanlardan dəmirçilik sənəti ilə məşğul olması ilə bağlıdır.(12.səh259)

2014-cü ildə Soltannuxa kəndi ərazisində tədqiqatlar aparılarkən yeddi qəbr aşkar edilmişdir. Burada üç qəbrdə qoşa dəfn qeydə alınmışdır.Qəbrlərdə zəngin keramika nümunələri və bəzək əşyaları əldə edilmişdir.(13.səh105)

I qəbr: Qəbrdə muncuq, tunc və dəmir bəzək əşyalarına təsadüf olunmuşdur ki, bunlarda qalaq formasında sağ üzü üstə olan skeletin kəlləsinin arxasında qoyulmuşdur. Bəzək əşyalarından biri dəfn küpünün xaricində-kameranın döşəməsində qeydə alındı.Qəbr avadanlığının içərisində iki ədəd tunc sırğa, bir ədəd konus formada tunc bəzək əşyası, bir ədəd dəmir əşya, həmçinin şüşə muncuqlar daxildir.(13.səh107)

III qəbr: Bu qəbr II xəndəyin qərb qutaracağında qeydə alındı. Qəbrin cənub-qərb kənarında qabın üzərinə iki ədəd dəmir nizə başlığı, şimal-qərb kənarında olan qabın üzərinə oraq formalı dəmir bıçaq qoyulub. Oxşar dəmir bıçaq, skeletin qarşısına da qoyulmuşdur.Korroziyaya uğradığı üçün onu götürmək mümkün olmadı.(13.səh108)

Mərkəzdə olan skeletin üzərində tunc boyunbağı, tunc qolbağ və tunc üzüklə yanaşı xeyli sayda muncuq da vardı.(13.səh108). Mərkəzi skeletdən əlavə, qəbrdə digər insan skeletlərinə də təsadüf edilmişdir.Qəbrin şimal kənarında olanskeletin üzünün qarşısı ilə sağ əlinin arasında əyilmiş vəziyyətdə tunc sancaq vardır.(13.səh109)

IV qəbr: Qəbr avadanlığı içərisində saxsı qablarla yanaşı skeletin yanında və üzərində dəmir silahlar, gil iy başlıqları tunc bəzək əşyaları, tunc və şüşə muncuqlar vardır. Dəmir əşyalar bıçaq qınından ibarət olmaqla güclü dağınıqlığa qalmışdır.Onların skeletlə birlikdə götürülərək laborator bərpasına ehtiyac duyulur. Skeletin kəlləsinin üzərində bir ədəd tunc sırğa, üzünün qarşısında qalın tunc məftildən halqa vardır. Barmağında tunc məftildən spiral üzük vardır. Skeletin boyun nahiyəsində düzüm formasında tunc və şüşə muncuqlar vardır. Muncuqların içərisində çürüntü halında ip də qalmışdır.(13.səh112)

Qeyd olunan qəbrlərin və oradan əldə olunan maddi-mədəniyyət nümunələrinin müqayisəli təhlili nəticəsində onları eramızın II-III əsrlərinə aid etmək olar.(13.səh113)

**Ədəbiyyat siyahısı**

1. AMEA Azərbaycan arxeoloji tədqiqatlar 2009səh81-83:səh185
2. Osmanov F.L "Azərbaycan küp qəbrlərinin meydana gəlməsi və yayılması məsələsinə dair (Mil düzündə son arxeoloji tədqiqatlar əsasında). Azərbaycanın maddi-mədəniyyəti, X cild-Bakı 1987 səh69-96
3. Археология СССР, Античные государства Северного Причерноморья-М. 1984 с345, 4, с102-214
4. Халилов Дж. А Материальная культура Кавказской Албании. Баку 1985. с144:səh79
5. Azərbaycanda arxeoloji tədqiqatlar 2009 səh194-197:205
6. Azərbaycanda arxeoloji tədqiqatlar 2009 V.Kərimov, M.Əliyev, H.Kərimov "Azərbaycan Qax rayonunun Hələli kəndinin yaxınlığında yerləşən Torpaqqala yaşayış məskənində arxeoloji tədqiqatlar" səh208
7. Azərbaycanda arxeoloji tədqiqatlar 2012 səh114-116
8. Azərbaycanda arxeoloji tədqiqatlar 2012 səh118-119
9. Azərbaycanda arxeoloji tədqiqatlar 2012-2013 səh211-212
10. Azərbaycanda arxeoloji tədqiqatlar 2015-2016 səh197
11. И.А Бабаев, С.М Казиев "Кабалинский кладмонет эллинсктической эпоху II Нумизматика и енигрaфика" Т.IX, М, 1971, с198
12. Azərbaycanda arxeoloji tədqiqatlar 2015-2016 səh251:256-259
13. Azərbaycanda arxeoloji tədqiqatlar 2014-cü il səh105-113

# ŞUŞA ŞƏHƏRİNDƏ QAFQAZIN İLK SƏYYAR XALÇA EMALATXANASININ TƏŞKİLİ HAQQINDA

**Telman Fərman Musayev**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*
telman.musaiev@mail.ru

**Açar sözlər:** *Azərbaycan, Qarabağ, Şuşa, xalçaçılıq, kustar sənətkarlıq, səyyar xalça emalatxanası*

Məqalədə XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda, o cümlədən Qarabağ bölgəsində xalçaçılığın sürətli inkişafına səbəb olmuş şərait araşdırılır. Qeyd olunur ki, bunun səbəbi, xüsusilə xarici bazarlarda xalça məhsullarına tələbin kəskin artması və xalça məmulatlarının ixrac imkanlarının artması olmuşdu. Məqalədə həmçininXX əsrin əvvəllərində dünya bazarlarında xalça məmulatlarına olan tələbatın artması şəraitində Rusiya hökumətinin mühüm iqtisadi əhəmiyyəti olan xalçaçılıq sənətinin Qafqazın əsas xalçaçılıq mərkəzi olan Azərbaycanda təkmilləşdirilməsi və istehsal həcminin artırılması səyləri araşdırılır. Göstərilir ki, 1899-cu ildə Qafqaz Kustar Komitəsinin fəaliyyətə başlaması və 1907-ci ildə onun nəzdində Şuşa şəhərində ilk səyyar xalça emalatxanasının yaradılması bu istiqamətdə atılmış mühüm addımlardan idi. Ancaq maliyyə çətinlikləri, bölgədə yaşanmış millətlərarsı münaqişə və I Dünya müharibəsinin başlanması səbəbindən Şuşa xalça emalatxanası öz fəaliyyətini dayandırmalı oldu.

## ОБ ОРГАНИЗАЦИИ ПЕРВОЙ ПЕРЕДВИЖНОЙ КОВРОВОЙМАСТЕРСКОЙКАВКАЗА В ГОРОДЕ ШУША

**Мусаев Тельман Фарман**

**Ключевые слова:** *Азербайджан, Карабах, Шуша, ковроткачество, кустарное ремесло, передвижная ковровая мастерская*

В статье исследуется условия, которое привело к ускоренному развитию ковроткачества в Азербайджане в конце XIX – начале XX века, в том числе в Карабахском регионе. Указывается, что причина этого заключалась в резкомповышении спросана ковровую продукцию, особенно на внешних рынках, и увеличения экспортных возможностей. В статье также рассматривается усилия правительство России по совершенствованию и увеличению производство ковровых изделий,

имеющие большое экономическое значение в условиях растушего спроса в зарубежных рынках,в Азербайджане, главном центре ковроткачества на Кавказе, в начале XX века. Отмечается, что создание в 1899 году Каквказского Кустарного Комитета и открытие первой передвижной ковровой мастерской в г. Шуша в 1907 году, были важными шагами в этом напрвлении. Но из-за финансовых трудностей, межэтнической напряженности в регионе и связи с началом Первой мировой войны шушинская ковровая мастерская вынуждена была прекращять свою деятельность.

## ORGANIZATION OF THE FIRST MOBILE CARPETWORKSHOP OF THE CAUCASUS IN THE CITY OF SHUSHA

**Telman Farman Musayev**

**Key words:** *Azerbaijan, Karabakh, Shusha, carpet weaving, handicraft, mobile carpet workshop*

The article explores the conditions that led to the accelerated development of carpet weaving in Azerbaijan in the late 19th - early 20th centuries, including in the Karabakh region. It is indicated that the reason for this was a sharp increase in demand for carpet products, especially in foreign markets, and an increase in export opportunities. The article also examines the efforts of the Russian government to improve and increase the production of carpet products, which are of great economic importance in the face of growing demand in foreign markets, in Azerbaijan, the main center of carpet weaving in the Caucasus, at the beginning of the twentieth century. It is noted that the establishment in 1899 of the Kakvkaz Handicraft Committee and the opening of the first mobile carpet workshop in Shusha in 1907 were important steps in this direction. But due to financial difficulties, interethnic tensions in the region and the connection with the outbreak of the First World War, the Shusha carpet workshop was forced to cease its activities.

***

Azərbaycan əsrlər boyu özünün nəfis xalça məmulatları ilə məşhur olmuşdur. İstehsal edilən xalça məmulatları təkcə əl işi, göz nuru olmayaıb, həm də yüksək sənət nümunəsi olaraq toxunma keyfiyyətinə və bədii tərtibatının zənginliyinə görə həm ölkə daxilində, həm də xarici bazarlarda böyük şöhrət qazanmışdı.Natural təsərrüfatın üstünlük təşkil etdiyi şəraitdə

xalça məmulatı istehsalı əgər təkcə daxili tələbatın ödənilməsinə yönəlmişdisə, XIX əsrin ortalarından başlayaraq Azərbaycanın xalça məmulatlarına həm Rusiya, həm də Avropa bazarlarında tələbatın kəskin artması istehsalın kustar sənətkarlıq xarakteri almasına və daha çox bazarın tələbatını ödəməyə istiqamətlənməsinə səbəb olmuşdu. Bu prosesdəBakı-Tiflis vəBakı-Dərbənd dəmir yollarının istismara verilməsi ilə xalça məmulatlarının daha qısa və ucuz yolla ixracının da mühüm əhəmiyyəti olmuşdu[1, s.77,89]. Nəticədə, XIX əsrin sonlarında xalça məmulatı istehsalının həcmi digər sənətkarlıq məhsulları üzərində üstünlük təşkil etməyə, Rusiyaya və xarici bazarlara məhsul ixracı ildən-ilə artmağa başlamışdı. Belə ki, 1886-1900-cu illərdə Rusiyadan ildə orta hesabla 33120 pud xalça ixrac edilmişdi ki, bunun da 30259 pudu və ya 90%-i Cənubi Qafqazınpayına düşmüşdü. 1900-1914-cü illərdə isə Rusiyadan 52004 pud xalça ixrac edilmişdi və bunun 49193 pudu və ya 94%-i Cənubi Qafqazın payına düşmüşdü. Bu dövrdə ixrac olunan xalça məmulatlarının dəyəri orta hesabla 1-2 milyon rubl təşkil etmişdi [2, s.74-79]. Sovet hakimiyyətinin ilk illərində aparılmış tədqiqatlar bütün Cənubi Qafqazda bazar üçün istehsal edilən xalça məmulatlarının 71%-nə qədərinin Azərbaycanda istehsal edildiyini müəyyən etmişdi [7, s.104].

XIX əsrin sonu – XX əsrin əvvəllərində ölkədə xalça məmulatı istehsalı daha kütləvi xarakter almış və bu dövrüxalçaçılığın çiçəkləndiyi dövr adlandırmaq da olar. Tədqiqatçılardan biri hətta qeyd edir ki, daxili və xarici bazarlarda xalça məmulatlarına olan tələbat o qədər artmışdı ki, xalçaçılar bu tələbatı ödəməkdə çətinlik çəkirdilər [10, s.84-85].Qeyd etmək lazımdır ki, bu dövrdə Qarabağ bölgəsi Azərbaycanın əsas xalçaçlıq mərkəzlərindən biri olmuşdur. 1900-ci ilin məlumatına görə Şuşa, Cavanşir, Zəngəzur qəzalarında Yelizavetpol qəzası ilə birlikdə 100 min xalçaçı qadın bu sənətlə məşğul idi və istehsal edilmiş məhsulun həcmi 1 milyon rubldan çox idi [22, v.5-6].Təkcə bölgənin mərkəzi Şuşa şəhərindəXIX əsrin sonlarında satışa ildə 200 min rubl xalça məmulatları çıxarılırdı[15, s.97]. XX əsrin əvvəllərində isə Şuşa Qafqazda böyük xalça istehsalı mərkəzinə çevrilmiş və burada istehsal edilmiş məhsullar quberniyanın sərhədlərindən kənara çıxarılaraq, Moskva və Peterburqa göndərilirdi[3, s.121].

XX əsrin əvvəllərindən Azərbaycanın xalçaçılıq sənətində tənəzzül əlamətləri görünməyə başlamışdı. Bu ilk növbədə XIX əsrin 80-ci illərindən başlayaraq ölkədə, xüsusilə də Qarabağ bölgəsində, əsasən də kütləvi xalça istehsalında ucuz və keyfiyyətsiz kimyəvi boyaq maddələrinin istifadəsinin geniş yayılması ilə bağlı olmuşdu. Xalça satışnın yaxşı təşkili böyük gəlir gətirmək imkanında olduğu halda, bu sahə uzaq bazarlar haqqında təsəvvürü olmayan və onların ehtiyaclarını bilməyən cahil dəllalların əlində idi[17, s.62].Məhz onların məhsulun maya dəyərini aşağı salmaq üçün ucuz kimyavi boyaqları israrlayayması xalçaçılığa böyük zərbə vuraraq xalçaçı qadınların

toxuduğu xalçaları həddən artıq dəyərdən salırdı. Digər tərəfədən Azərbaycan, o cümlədən Qarabağ xalçalarının Rusiya və xarici bazarlara çıxması ilə yerli xalçaların bədii tərtibatında da özgə – "avropalaşdırılmış" realist motivlər meydana çıxmağa, xalçalarda qədim orjinal naxışlar itməyə başlamışdı[8, s.86].Belə xalça məmulatları əsasən Rusiya bazarı üçün istehsal edilirdi. Orada xalçanın keyfiyyətinə xarici bazarlarala müqayisədə elə də tələbkarlıqla yanaşılmırdı [7, s.87].

Bütün bu çətinliklərə baxmayaraq istər daxili, istərsə də xarici bazarlarda bitgi mənşəli boyaqlarla boyanmış və qədim naxış elementləri ilə bəzədilmiş Azərbaycan xalçaları öz iqtisadi və ixrac potensialını hələ də qoruyub saxlayırdı. Belə ki, 1914 ilin məlumatına görə, Şuşa şəhəri,hətta bu dövrdə də Cənubi Qafqazın kustar üsulu ilə xalça məmulatı istehsalı üzrə ən böyük mərkəzlərindən biri olaraq qalırdı və burada toxunan xalçalar kənara – paytaxt şəhərlərinə və xaricə çıxarılırdı[13, s.379].

Rusiya hökuməti kustar sənət sahələri içərisində xalçaçılğın dəstəklənməsinə xüsusi önəm verirdi. Bu təsadüfi deyildi, belə ki, Rusiya xüsusilə Azərbaycanın Rusiya tərəfindən işğalından sonra bu sənət sahəsindən –Azərbaycan xalçaçılığından böyük gəlir əldə edirdi [9, s. 5].

XIX əsrin sonlarından dünya bazarlarında xalça məmulatlarına olan tələbatın ciddi surətdə artması Rusiya hökumətini ilk olaraq Qafqazda xalq əməyinin böyük sahəsini təşkil edən və mühüm iqtisadi əhəmiyyəti olan xalça sənətinin tədqiqinə başlamağa və istehsal həcminin artırılması yollarını aramağa sövq etmişdi [4, s.240]. Bunun üçün 1880-1899-cu illərdə yerli sənət sahələrinin, xüsusilə də xalçaçılığın iqtisadi potensialını, gəlirliliyini, xammal bazasını öyrənmək məqsədi ilə Qafqaza ekspedisiyalar təşkil edilmişdi. Qafqazda xalçaçılıq sənəti başda olmaqla digər kustar sənət sahələrinin dirçəldilməsi və xarici valyuta əldə etmək üçün onların məhsullarının ixracı məqsədi ilə 1899-cu ildə Rusiya Əkinçilik və Dövlət Əmlak Nazirliyi, Kənd İqtisadiyyatı və Kənd Təsərrüfatı Statistikası şöbəsinin nəzdində Tiflisdə Qafqaz Kustar Komitəsinin yaradılması qərarlaşdırılmışdı[4, s.236]. Komitə qarşısında kustar sənət sahələrinin vəziyyətnin tədqiqi, yerli kustarların praktiki ehtiyaclarını öyrənmək, kustarları istehsalın təkmilləşdirilmiş texniki üsullarla tanış etmək, kustarlara sərfəli şərtlərlə xammal, əmək alətləri əldə etməkdə və məhsulun satışında yardım etmək kimi vəzifələri qoyulmuşdu [18, v.111].Arxiv materiallarından məlum olur ki, Komitə 1900-1903-cü illərdə tədqiqatçılar A.Piralov, İ.Kara-Murza və L.Loykonun iştirakı ilə Azərbaycanın xalçaçılıq mərkəzlərindəxalçaçılığın vəziyyətini araşdıraraq tədqiqat əsərləri nəşr etdirmişdilər. Komitənin tədqiqatçısı M.Kara-Murza tərəfindən QarabağınŞuşa qəzasının 23, Zəngəzur qəzasının 27, Cavanşir qəzasının 14 və Cəbrayıl qəzasının 18 kəndindəaparılmış tədqiqatlar Qarabağ bölgəsində əhalinin böyük hissəsinin bu sənətlə məşğul olduğunu müəyyən etmişdi[21, v.14-15].(Bu

materialları təqdim etdiyinə görə elmi rəhbərim, professor C.M.Mustafayevə təşəkkür edirəm). 1906-cı ildə erməni-azərbaycanlı milli qarşıdurmanın dayandırılması Qarabağ qəzalarında yarımçıq qalmış xalça istehsalının tədqiqatını sonlandırmağa imkan vermiş və M.Kara-Murza tərəfindən toplanmış statistik məlumatları zənginləşdirmək üçün bölgəyə A.Piralov və Komitənin tədqiqatçısı B.Rodzeviç-Beleviç tərəfindən yeni səfər təşkil edilmişdi. Onlar Qarabağın digər kəndləri ilə yanaşı Şuşada da olmuşdular [19, v.67-68]. Onların apardığı tədqiqatlar XX əsrin əvvəllərində xalçaçılığın Qarabağ bölgəsində, o cümlədən Şuşa şəhərində əhalinin əsas gəlir mənbəyi olaraq qaldığını və əhalinin xalis gəlirinin 38%-ni xalça istehsalının təşkil etdiyi müəyyən edilmişdi[19, v.132]. Təəssüf ki, aparılmış araşdırmanın bütün materialları nəşr olunmamışdır.

XX əsrin əvvəllərində xalça məmulatlarına xarici bazarlarda hələ də yüksək tələbatın qalması şəraitində yerli xalçaların dünya bazarında rəqəbət qabiliyyətini artırmaq üçün yerli xalçaçıları bazarın təlabatı ilə tanış edilməsi, kustarların keyfiyyətli xammalla təmin edilməsi, iş prosesində yeni xalça eskizlərinin, təkmil dəzgah və təkmil texniki üsulların tətbiqi bölgədə yığılan yunun hamısının yerlərdə emal edilərək hazır məhsul səviyyəsinə çatdırılmasına, xaricə daha çox hazır məhsul ixrac etməyə imkan verərədi. Bunun üçün isə yeni texniki üsulları və materialları tətbiq etməklə yüksək keyfiyyətli məhsul istehsal edə biləcək gənc toxucuların hazırlanmasına ehtiyac var idi. Bundan əlavə, hazır məhsulun satışını istesalçının maraqlarını nəzərə alaraq təkil etmək lazım idi. Elə buna görə də, 1902-ci ildə Qafqazın kustar sənaye xadimlərininTiflisdə çağrılmılş I Qurultayında yerlərdə tədris emalatxanalarının təşkil olunması və təlimatçı vəzifələrinin təsis edilməsi, eləcə də bölgələr üzrə xalça rəsmlərinin tərtib edəcək, boyaqlar haqqında məlumat verəcək və yeni boyama üsullarını öyrədəcək səyyar məktəblərinin yaradılması haqqında təkliflər verilmişdi[17, s.61,125-127].

Qafqazda kustar sənayenin dəstəklənməsi və inkişafı məsələləri nazirliyinKustar Komitəsinin iclaslarında da müzakirə olunmuş və Qafqaz Kustar Komitəsinə ünvanlanmış müraciətdə Şuşa şəhərində kustarlar üçün tədris emalatxanasının və emalatxananın nəzdində kustar məmulatlarının ən yaxşı nümunələrinin nümayiş olunacağı muzeyin açılması, eləcə də Komitə nəzdində kustarlara istehsalın müasir texniki üsullarını öyrətmək və onlara materalların əldə edilməsi üçün ssudanın ayrılması ilə məşğul olacaq təlimatçı vəzifələrinin təsis edilməsi tövsiyə edilmişdi[16, s.158].

Komitə fəaliyyətinin ilk günlərindən tədris kustar emalatxanalrının açılmasını planlaşdırmışdı. 1905-ci ildə Komitə 4 tədris emalatxanasının təşkili üçün smeta təqdimetmiş, lakin vəsait çatışmamazlığından müavinət ayrılmasına imtina edilmişdi[20, v.1].

Komitəsinin qərarı ilə 1 sentyabr 1907-ci ildə Şuşa şəhərində nəhayət ilk səyyar xalça emalatxanası açılır.Xalça emalatxanasının məhz Azərbaycanda, Qarabağ bölgəsində, xüsusi ilə də Şuşada təşkil olunması heç də təsadüfi deyildi.Bu qərarın verilməsində yuxarıda qeyd edilmiş səbəblərlə yanaşı A.Piralovun yazdığı kimi,Şuşa şəhərinin xalça sənətində bədii zövqün rəhbəri, sifarişçisi, alıcısı, kifayət qədər böyük satış yeri olması və şəhərdə nəinki bu rayonda, eləcə də bütün Cənubi Qafqazda xalça istehsalına yön verən ən yaxşı usta qadınların çalışmasının da böyük rolu olmuşdu [14, s.58-59]. Digər tərəfdən, şəhərdə xalçaçılıqla sıx bağlı olan boyaqçılıq sənəti də inkişaf etmişdi və 1900-cu ildə şəhərdə illik istehsal həcmi 4000 olan və 12 işçinin çalışdığı 8 boyaqxana var idisə [15, s.87], 1908-ci ildə onların sayı bir qədər azalaraq 6-ya düşsə də, illik istehsal həcmi artaraq 69500 rubla çatmışdı[11, cədvəl 1]

Komitənin qərarı ilə xalça tədris-nümayiş emalatxanasına xalça rəsmləri tərtib etmək üçün rəssam, bütün xalça toxuma üsullaırnı tədris etmək üçün 2 təlimatçı da dəvət olunmuşdi. Emalatxana təkcə kustarlara xalça toxuma, ipliyin boyanması və onları bədii xalça rəsmləri ilə tanış etməklə kifayətlənmirdi. Kustarların texniki ləvazimat və materiallarla normal qiymətə və güzəşli şərtlərlə təminatının təşkili də çox mühüm idi. Bunun üçün Komitənin və emalatxananın nəzdində anbarlar təşkil edilmişdi. Buradan əvəzinin nağd və ya hissə-hissə ödənilməsi yolu ilə, ya da xalça ilə ödənilməsi şərti ilə kustarlara dəzgah, boyaq maddələri satılırdı. İlk dövrdə emalatxanada tədrisin düzgün təşkil olunması üçün aylıq əmək haqqı 30 rubl təşkil edən təlimatçının xüsusi köməkçisi vəzifəsi təsis edilmiş və bu vəzifəyə rus, erməni və Azərbaycan dillərini bilən, 4 sinifli Şuşa peşə məktəbinin məzunu Pireulova familyalı qadın dəvət edilmişdi. Onun vəzifəsi emalatxanada şagirdlər üzərində nəzarəti təmin etmək və onlara təlimatçının yerli dillərə tərcümə edilmiş texniki gösətrişlərini çatdırmaqdan ibarət idi. Emalatxananın təchiz edilməsi Komitənin işçi üzvü və kustar sənət sahələrinin məşhur tədqiqatçısı A.Piralovun nəzarəti altında həyata keçirilirdi. Şuşaya gəlmiş A.Piralov emalatxanaya şagird qızların cəlb olunması məqsədi ilə şəhər rəhbərliyinin, eləcə də şəhərin icma nümayəndələri ilə müzakirələr aparmışdı. İlk mərhələdə emalatxanaya 15 şagird cəlb edilmişdi. Emalatxana toxuma, boyama və dəftərxana şöbələrindən ibarət idi. Toxuma şöbəsində3 xalça dəzgahı və 1 “samalyot”, boyama şöbəsində isə qazan və soba var idi. 1907-ci il üçün emalatxananının təchizinə 526 rubl 66 qəpik, cari xərclər üçün təlimatçıya 40 rubl, emalatxananın 5 ay saxlanmasına isə 860 rubl vəsait xərclənmişdi[19, v.65-66]. Bundan əlavə xalça emalatxanasına 500 rubl dövriyyə vəsaiti də ayrılmışdı [12, s.6].

Komitənin 1908-ci il hesabatında gösətrilir ki, Komitə əmək haqqı 60 rubl olmaqla 2 nəfəri təlimatçı vəzifəsinə qəbul edərək Tiflisə göndəmiş, oradan isə təlimatlandırılaraq Komitənin ilk səyyar xalça emalatxanasının təşkili üçün Şuşa şəhərinə ezam etmişdi.Şuşada səyyar xalça emalatxanasına xalça

eskizlərini tərtib etmək üçün rəssam, bütün xalça toxuma üsullarını tədris etmək üçün isə 2 təlimatçı dəvət olunmuşdu. Hesabatda həmçinin göstərilir ki, rəssam Y.Strume Komitəinin dəftərxanasında işçi xalça eskizlərinin hazırlanması üçün emalatxana təşkil etmiş və ilin sonunda natural ölçüdə 4 işçi xalça eskizləri tərtib edilərək Şuşadakı xalça emalatxanasının ehtiyacı üçün göndərmişdi [19, v.18-19,65].

Komitəsinin nəzdindəki anbardan Şuşa emalatxanasının nəzdindəki anbara kustarların ciddi ehtiyacı olan 210,90 rubl məbləğində boyaq və 50,87 rubl iplik olmaqla cəmi 261,77 qəpik həcimdə mal satılımışdı[12, s.6-7,10].

Komitənin nəzdində yaradılmış bədii emalatxana ən zəngin qədimi orjinal bədii motivləri olan məmulatları rəsimlərini toplamaqla yanaşı Komitənin rəssamı tərəfindən akvarel boyaqlarla rənglərinin bütün çalarlarının dəqiqliklə hazırlandığı işçi xalça eskizləri toxucu emalatxana vasitəsilə həm kustarlar arasında yayır, həm də albomlar tərtib edilirdi. Burada, xüsusilə Qarabağ xalça çeşnilərinin qorunub bu günlərə qədər gəlib çatmasında rəssam Y.Straumenin xidmətlərini qeyd etmək lazımdır. 1908-ci ildə Şuşaya ezam edilmiş Y.Straumeyerli bədii ənənlərin toplanması və qeydə alınması, xalçaçılıq sənətinin dirçəldilməsi sahəsində böyük tədqiqat işi aparmışdı. Onun fəaliyyəti nəticəsində ucqar kəndlərə çoxsaylı ekspedisiyalar təşkil edilmiş, ənənəvi xalça rəsmləri toplanmış və çoxu itməkdə olan ornament və kompazisiyalar bərpa edilmişdi. Yığılmış material ciddi analiz edilərək itməkdə olan ornamentlər və kompozisiyalar zərrə-zərrə bərpa edilmişdi.Qısa müddətdə Qarabağda 20 rəngli xalça rəsmi toplanmış və natural ölçüdə 10 işçi xalça rəsmi xalça toxunmasında istifadə üçün paylanmışdı. Rəsmi çəkilmiş xalçalar yerli tacir və bəylərə məxsus 6000 qədimi xalçalar arasından ciddi baxışdan sonra seçilmişdi[5, s.11].Şuşa tədris emalatxanası da hazırlanmış metodiki material, çertyoj, bərpa edilmiş xalça rəsmi və foto albomları ilə təmin edilmişdi.

Komitə nəzdində ən yaxşı ənənəvi xalça kompazisiyalarının bərpası üzrə elmi-yaradıcı labaratoriya da təşkil edilmişdi. Labaratoriyada bərpa edilmiş xalça kompozisiyaları ilk dəfə "millimetirlik kağız" üzərində texniki rəsmlər şəklində təsvir edilir, sonra bu rəsmlər əllə sürətçıxaran rəssamlar tərəfəindən çoxaldılırdı. Rəssam Y.Straume tərəfindən ilk dəfə ilmə-toxuma texnikasının 8 xanalı modullu millimetrlik kağızın xanalarına bağlanması yolu ilə ornamentlərin və mürəkkəb kompozisiyaların çertyojdan xalçaya dəqiq köçürülməsi metodu işlənib hairlanmışdı. "Millimetrlik kağız" üzərində çəkilmiş nümunə çertyoj sonralar yerli ustalar tərəfindın "çeşni" adlandırılmağa başlanmışdı. İstehsal üzrə usta-təlimatçının ciddi nəzarəti altında "millimetrlik kağız" üzərindəki nümunəyə dəqiq riayət olunması motivlərin və toxuma prosesinin səhv və təsadüfi təfsirini aradan qaldırıdı.Bu yolla hazırlanmış Qarabağ xalçalarının işçi rəsimləri və bu rəsmlər əsasında emalatxanada toxunmuş xalça

nümunələrini təkrarlanması üçün bölgənin digər xalçaçılıq ocaqlarına və digər toxucu emalatxanalarına da göndərilirdi.

Qafqaz Kustar Komitəsinin arxiv sənədləri ilə tanışlıq göstərir ki, eskizlərin hazırlanmasından nümunələrin yayılması, onların toxuculara çatdırılması, boyaqlarla təchizat və hazır məhsul alımına qədər bütün istehsal zənciri dəqiqliklə işlənmişdi. Mürəkkəb kompozisiya, keyfiyyətli boyaqlarla və texniki çertyoj əsasında ustalıqla toxunmuş böyük ölçülü xalçalar emalatxanada usta-təlimatçının nəzarəti altında hazırlanırdı.

Komitənin hesabatında Şuşa səyyar xalça emalatxanasının fəaliyyətinə toxunaraq qeyd olunur ki, 1907-1908-ci tədris ilində emalatxanaya 18 nəfər cəlb olunsada, il ərzində tədris kursunu yalnız 6 nəfər bitirmişdi. İmtahanın nəticəsinə görə onlardan 4 nəfəri yunun "Asiya üsulu ilə" çeşidlənməsi, yuyulması, daranması, ipliyin rənglənməsi və xalçanın toxunması, təkmilləşdirilmiş toxucu dəzgahın qurulması, işçi xalça rəsmlərinin oxunması ilə kafi dərəcədə tanış idilər. Lakin yunun əyrilməsi bilikləri, "samalyot" dəzgahlarının qurlması, toxuculuq nəzəriyyəsi, eləcə də rus dilində texniki terminələr üzrə bilikləri zəif olmuşdu. Digər ikisi isə qeyd olunanəməliyyatları qeyri kafi yerinə yetirmişdilər. İlk 4 nəfərin xahişi üzrə onlara emalatxanada birinci tədris kursunu müvəfəqiyyətlə bitirdikləri haqqında şəhadətnamə verilmişdi. Buraxılış imtahanları Komitənin təlimatçısı Y.İvanovtərəfindən Komitənin tədqiqatçısı və rəssamının iştirakı ilə keçirilmişdi. Bütün şagirdlərin iştirakı ilə il ərzində emalatxanada xüsusi tərtib edilmiş rəsmlər əsasında 2 xalça hazırlanmışdı. Şagirdlərin təcrübəsizlikləri səbəbindən hər iki xalçanın qüsurları var idi və bazara çıxarılıb normal qiymətə satıla bilmədiyindən Komitədə saxlanılmışdı[12, s.10-14].

Komitə Şuşa emalatxanasının ilk tədris ilinin qənaətbəxş olmamasını işin yeniliyi və emalatxana müdirinin təcrübəsizliyi ilə izah etmişdi. Xalça toxuculuğunun yaxşı bilən müsəlman qızların xalça istehsalının yeni texniki üsullarının öyrənmələri son dərəcə arzuolunandır. Burada ödəniş müqabilində 25 usta və 20 şagird işləyirdi. Emalatxanada 9 "samalyot" dəzgahı və 5 xalça dəzgahı var idi[12, s.3-4,15].

Yelizavetpol qubernatorunun və Şuşa müsəlmanlarının xüsusi tələbi ilə Komitə öz iclasında emalatxananın şəhərin müsəlman hissəsinə köçürmək haqqında qərar vermişdi, o ümidlə ki, bu halda müsəlman qızlar emalatxanaya gələr. 1908-ci ilin avqustunda emalatxana köçürülmüş, qəzetlərdə administrasiya tərəfindən emalatxanaya şagird qəbulu, təlimatçı köməkçisi vəzifəsinə və rus dilini bilən müsəlman tərcüməçi qadın dəvət edildiyi haqqında elan da verilmişdi. Həmin ilin noyabrnda Şuşa şəhərinin fəxri müsəlmanları, yerli qəza rəisinin və emalatxana müdirinin iştirakı ilə yığıncaq keçirilir. Yığıncağda məlum olur ki, 9 müsəlman qız əməkləri müqabilində gündəlik 20-30 qəpik ödənilməsi şərti ilə emalatxanada təhsil almaq istəyini bildirib. Qubernator

bildirir ki, "pulsuz şagird tapmaq mümkün görünmür, çünki, xalça istehsalı Şuşada müsəlman qadınlar arasında geniş yayılıb və onlar bu sənəti hələ uşaqlıqdan öyrənirlər" [12, s.15]. Komitədən bildirlmişdi ki, əmək haqqı ancaq o şagirdlərə ödənilə bilər ki, onlar materiallara ziyan vurmadan satış üçün məhsul istehsal etmək iqtidarındadırlar[6, s.4]. 1909-cu il 31 yanvarında Komitənin iclası bu yığıncağın nəticələri haqqında Yelizavetpol qubernatorunu dinlədikdən sonraqərara alır ki, Şuşa emalatxanası yenə 6 ay sınaq müddəti kimi şəhərdə saxlanılsın və gündəlik əmək haqqı 30 qəpikdən çox olmamaqla 5-6 təcrübəli xalça ustası dəvət edilsin və ya əgər şagirdlər istərlərsə özlərinin emalatxanada dövlət materiallarından hazırladıqları məmulatlar mükafat kimi onalara verilsin. [12, s.3-4,15].

Şuşa səyyar xalça emalatxanasına ayrılanmaliyə vəsaitinin azlığı və ayrılan vəsaitin əsasən inzibati məsələlərə sərf olunması səbəbindənfəaliyyətinin genişləndirilməsi mümkün olmamaışdı. Bunu Komitəsinin Şuşa emalatxanasının fəaliyyətinə təmin etmək üçün 1908-ci il üçün maliyyə hesabatından da görmək mümkündür. Bu hesabatda göstərilir ki,emalatxananın fəaliyyətinə cəmi 2145 rubl ayrılmışdı və ayrılan vəsaitin yalnız 1657 rublu istifadə olunmuşdu. İstifadə olunan məbləğin əsas hissəi isə inzibati məsələlərə xərclənmişdi [12, s. 13-14].

Beləliklə, tədqiqatçı F.Qalitsinin də qeyd etdiyi kimi, Komitənin qısa müddətdə fəaliyyətini qənaətbəxş və diqqətəlayiq hesab etməmək mümkün deyil. Lkin "cüzi büdcə şəraitində Komitənin hər hansı ciddi bir iş həyata keçirməsi çətin ki, mümkün olaydı. Qafqazda kustar sənayesinin inkişafı üçün hər şeydən əvvəl texniklər, texniki məktəblər və emalatxanalarlazımdır"[4, s.252-253]. Sonrakı illərdə Komitənin maliyyə sıxıntıları, bölgədə və Şuşa şəhərində millətlərarsı münasibətlərin gərginləşməsi, eləcə də əhali arasında emalatxananın fəaliyyətinə marağın azalması Şuşa emalatxanasının fəaliyyətinə mənfi təsir göstərmişdi. I Dünya müharibəsinin başlanması ilə nəqliyyat əlaqələrinin kəsilməsi, Qafqaz Kustar Komitəsi tərəfində yerli kommersiya şöbələrinin xalçaçılıq üçün zəruri olan yun ipliyi ilə təchizatı vəhazır məhsulun alınması tamamilə dayanmışdı. Bu isə öz növbəsində Komitə ilə yanaşı, nəzdində yaradılmış tədris emalatxanalarının, o cümlədən böyük ümidlərlə yaradılmış və xalçaçılığın inkişafinda yeni mərhələnin başlanğıcı ola biləcək Şuşa səyyar xalça emalatxanasının fəailyyətinin dayanmasına gətirib çıxarmışdı. [23, s.28-29].

## Ədəbiyyat

1. Əliyev Q. Azərbaycan nəqliyyatı və iqtisadiyyatı (XIX əsr - XX əsrin ilk onillikləri). Bakı: «Elm», 2001, 244 s.
2. Аббасов А .Азербайджансие ковры на внутренних и внешних рынках (в конце XIX - начале XX вв.) // Azərbaycan xalçaları. Cild 6, № 20, 2016, s. 74-79.
3. Брокгауз Ф.А., Эфрон И.А. Шуша // Энциклопедический словарь / Под редакции Е.Андреевского. СПб.: Типография Акц. Общ. Брокгауз-Ефрон, т. 40, 1904,489 с.
4. Голицын Ф.С. Кустарное дело в России. т. I, ч. 1, СПб.: Типография В.Ф.Кришбаума, 1904, 264 с.
5.Ежагодник кустарной промышленности: 1912 год. т. I, вып. 1 / Под редакцией Е.Д.Максимова. СПб.: Энергия, 1912, 332 с.
6. Журнал Кавказскокго Кустарного Комитета от 15 января 1909 года. Тифлис: Типография К.П.Козловского, 1909, 8 с.
7. Исаев М.Д. Ковровое производство Закавказья. Тифлис: Издание Научно-исследовательскогоинститута Кавказоведения АН СССР, 1932, 224 с.
8. «Кавказский календарь» на 1914 год. Тифлис, 1913, 985 с.
9. «Каспий». 1900, №165
10. Мучаидзе М.Е. Ковровый промысел курдов Сурмалинского, Эчмиадзинского и Александропольского уездов Эриванской губернии // Труды Кавказского Кустарного Комитета,Тифлис,1903, с. 72-96
11. Обзор Елизаветпольской губернии за 1908 год. Приложение № 10, Ведомость о числе фабрик, заводов и мастерских в Елизаветпольской губернии в 1908 году. Елизаветполь: Типография Ахмеда Гаджи-Гасанова, 1909, 32 с.
12. Отчет о деятельности Кавкаского Кустарного Комитета на 1908 год. (денежный отчет) Тифлис:Типография Т.П.Козловского,1909, 34 с.
13. Памятная книга Елизаветпольской губернии на 1914 год. Тифлис: Типография Канцелярий Наместника Е.И.В. на Кавказе, 1914, 432 с.
14.Пиралов А.С. Краткий очерк кустарных промыслов Кавказа. СПб.: Типо-Литография «Якорь», 1913, 128 с.
15. Садыхова Г. История города Шуши (XIX – начало XX вв.). Баку: «Нурлан», 2004, 184 с.
16. Труды местных комитетов о нуждах сельскохозяйственной промышленности. т. LII. Кавказский край. СПб.: Типография В.Киршбаума, 1903, 289 с.

17. Труды Первого съезда деятелей по кустарной промышленности Кавказа в городе Тифлис. Тифлис, 1902, 267 с.
18. ЦГИА. ф.395, оп. 1, док. 302.
19. ЦГИА. ф. 395, оп. 1, док. 1828.
20. ЦГИА. ф. 395, оп. 1, док. 1829.
21. ЦГИА. ф. 395, оп. 1, док. 1393.
22. ЦГИА. ф.1276, оп. 17, док. 485.
23. Отчет о деятельности Кавказского КустарногоКомитета и учреждении по кустарной промышленности на Кавказе в 1915. Тифлис,64 с.

# ВНЕШНЕПОЛИТИЧЕСКАЯ КОНЦЕПЦИЯ ГЕЙДАРА АЛИЕВА

**Тюркан Ильгар кызы Гасымова**
Бакинский Государственный Университет
turkan.ilqar1990@mail.ru

**Ключевые слова:**Кавказ, Азербайджан, Гейдар Алиев, Карабах, внешняя политика, дипломатия, 44 дневная война, победа, Ильхам Алиев.

С возвратом к власти Гейдара Алиева произошел решительный поворот в жизни Азербайджана. После нескольких политических шагов мудрый политический деятель ликвидировал опасность гражданской войны. Общенациональный лидер - Гейдар Алиев, принял правильную позицию в вопросах войны. Как мудрый стратег, он просчитал реальное положение в стране, принял во внимание силы и планы наших коварных врагов и их международных покровителей, а также всю опасность кровавого водоворота, в который попал Азербайджан, правильно оценил обстановку.Но достойный продолжатель пути Гейдара Алиева президент Ильхам Алиев воплотил в жизнь основную цель внешнеполитического курса Гейдара Алиева и наконец27 сентября 2020 года стало переломным моментом в новейшей истории Азербайджана.

## HEYDAR ALIYEV'S FOREIGN POLICY CONCEPT

Yelisavetpol MüsəlmanXeyriyyə Cəmiyyətinin himayəçilik etdiyi qaçqınlar üçün sığınacaq evinin müdiri A.Naqiev (familya rus dilində yazılmışdır- Z.K.) göstərir ki, qaçqınlar üçün nəzərdə tutlmuş xəstəxanaya sığınacağın əmlakından əşyalar ayırmaq mümkün deyil. O, sığınacağda içməli suya, qaynanmış su ilə dolu kranı olan çəlləyə, bərbərxanaya, aptekdən alınacaq tibb preparatlarına ehtiyac olduğunu bildirir ( v.3, v.3 a.).

Xəstəxana üçün lazım olan 34 adda əşyanın adı da sənəddə göstərilir: çarpayı (30), təzə döşək (30), odeyal (30), balınc (30), döşək üzü (90), əl-üz dəsmalı (90), qab qacaq, sabun və s. (4, v.4).

Yelisavetpol Müsəlman Xeyriyyə Cəmiyyətinin əczaçı cənab N.Qelbuxa ünvanladığı məktubda (28 mart 1918, №2) ondan xahiş olunur ki, sığınacaq üçün lazım olan tibb preparatlarını oraya göndərəsiniz və bizdən onun pulunu almaq üçün hər ay hesabı Cəmiyyətə təqdim edəsiniz (4,v.5).Cəmiyyətin mühasibatının məlumatından aydın olur ki,N.Qelbux bu xahişi yerinə yetirmişdir.Lakin Cəmiyyət ona çatası 1470 rubl.65 qəpik məbləğin hələlik 9/VII-1918-cı il tarixdə 270 rublunu ödəmişdir( 4,v.4

Xalqımız naminə geniş fəaliyyət göstərmiş Yelisaetpol Müsəlman Xeyriyyə Cəmiyyətinin fəaliyyətini əlimizdəki arxiv materialları əsasında qısaca işıqlandırdıq,yeni məqalələrdə bu iş davam etdiriləcək.

## Ədəbiyyat

1.Cavadov C.Azərbaycanda xeyriyyəçilik.Bak,1999

2.Азәрбаусан ССР Mərkəzi Dövlət Tarix Arxivi,ф.421,оп.1,д.1,

3.Азәрбаусан ССР Mərkəzi Dövlət Tarix Arxivi.ф.421 ,оп.1,ед.хр18. Дело Елисаветпольского Мусульманскаго Благотворительнаго общества обь устройствь катафалки.Дело началось 6.IV.1917

4. Азәрбаусан ССР Mərkəzi Dövlət Tarix Arxivi, ф.421, оп.1, ед.хр.19

5. Азәрбаусан ССР Mərkəzi Dövlət Tarix Arxivi. Елисаветпольская губернская Продовольственная Управа отдель бухгалтерии 10 апреля 1918, № 550

6 Азәрбаусан ССР Mərkəzi Dövlət Tarix Arxivi, ф.421,оп.1,ед.хр 21,v.97

**UOT 94(479.24)**

# MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN "MUZEY PEDAQOGİKASI" ƏNƏNƏLƏRİ

**Ləman Musayeva**
**AMEA Milli Azərbaycan Tarixi Muzeyinin**
**Azərbaycan tarixinin elmi tədqiqi və təqdimi**
**şöbəsinin elmi işçisi;**
**lemanmemmedovamusayeva@gmail.com**

**Açar sözlər:** *Muzey pedaqogikası, tarix muzeyi, elmi-kütləvi iş, təhsil, "insan kapitalı"*

*Məqalədə müəllif Azərbaycanda muzeylərin muzey pedaqogikası haqqında ümumi məlumatlarla yanaşı, Milli Azərbaycan Tarixi Muzeyinin sovet dövründən 2021-ci ilə qədər olan hesabatları əsasında ətraflı material təqdim edir. Muzeyin tarixində ilk dəfə olaraq "muzey pedaqogikası" xronoloji ardıcıllıqla öyrənilir, onun pedaqoji fəaliyyətinin təcrübəsi o dövrün ictimai-siyasi xüsusiyyətlərinin fonu ilə müqayisə edilir, tətbiqi yeniliklərin əhəmiyyəti vurğulanır. Burada muzey pedaqogikasının beynəlxalq təcrübədə çoxşaxəli tətbiqinin səmərəliliyi qeyd edilməklə yanaşı, müəllifin yerli muzeylərlə bağlı fikir və təklifləri də öz əksini tapıb. Belə ki, Prezident İlham Əliyevin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri" Sərəncamını və "XXI əsr Təhsilin tələblərinə uyğun təhsil" sənədini rəhbər tutaraq, muzey pedaqogikası vasitəsilə "fasiləsiz" təhsilin tətbiqi metodu təklif olunur".*

# TRADITIONS OF "MUSEUM PEDAGOGY" OF THE NATIONAL MUSEUM OF THE HISTORY OF AZERBAIJAN.

**Lyaman Musaeva**

**Key words:** *museum pedagogy, historical museum, mass scientific work, education, "human capital".*

The author provides general information about the museum pedagogy of museums in Azerbaijan, as well as detailed material based on the reports of the National Museum of the History of Azerbaijan from Soviet times to 2021 In the article. For the first time at the history of the museum, "museum pedagogy" is studied in chronological order, the experience of pedagogical activity is

compared with the background of the socio-political peculiarities of that time, emphasizing the importance of applied innovations. It notes not only the effectiveness of the multifaceted application of museum pedagogy in international practice, but also sets out the views and proposals of the author for local museums. Thus, a method is proposed for the application of "continuous" education through museum pedagogy, guided by the order of President Ilham Aliyev "Azerbaijan 2030: National priorities of socio-economic development" and the document "Education in accordance with the requirements of the XXI century"

## ТРАДИЦИИ «МУЗЕЙНОЙ ПЕДАГОГИКИ» НАЦИОНАЛЬНОГО МУЗЕЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА.

**Ляман Мусаева**

**Ключевые слова:** *музейная педагогика, исторический музей, научно-массовая работа, образование, «человеческий капитал»*

.

В статье автор приводит общие сведения о музейной педагогике музеев Азербайджана, а также подробный материал, основанный на отчетах Национального Музея Истории Азербайджана с советских времен до 2021 года. Впервые в истории музея «музейная педагогика» изучается в хронологическом порядке, опыт ее педагогической деятельности сопостовляется с фоном общественно-политической особенности того времени, подчеркивая важность прикладных инноваций. В нем не только отмечается эффективность многогранного применения музейной педагогики в международной практике, но и излагаются взгляды и предложения автора для местных музеев. Таким образом, предлагается способ применения «непрерывного» образования через музейную педагогику, руководствуясь распоряжением президента Ильхама Алиева «Азербайджан 2030: Национальные приоритеты социально-экономического развития» и документом «Образование в соответствии с требованиями XXI века»

Muzey pedaqogikası bir təhsil sistemi kimi muzeyşünaslığın, pedaqogikanın və psixologiyanın kəsişməsindəki bir elmdir, muzey mühitində pedaqoji proses vasitəsilə mədəni (bədii) təcrübənin ötürülməsinə yönəlmiş müasir muzeyin elmi və praktiki fəaliyyət sahəsidir. Muzeylər tarix, mədəniyyət, təhsil fəaliyyətinin xüsusiyyətlərini, ziyarətçilərin müxtəlif

kateqoriyalarına təsir üsullarını və qarşılıqlı əlaqələrini tədqiq edir. Muzeylərin əsas ziyarətçi kateqoriyası gənclər olduğundan, bu məqalədə ilk dəfə olaraq muzey pedaqogikasının obyekti olan gənclərin muzey təhsili işi araşdırılır. Onun vasistəsi ilə gənclərə aşılanan bilik və bacarıqlar tədrisinin formaları öyrənilir, eyni zamanda Dövlətin gənclər siyasəti ilə mütanasibliyinə diqqət yetirilir.

Ölkə əhalisinin 23,6 faizini təşkil edən gənclərə qayğı dövlət siyasətinin mühüm tərkib hissəsidir. Dövlət səviyyəsində gənclərin milli-mənəvi dəyərlər əsasında yetişdirilməsi ilə bağlı bir sıra proqram və sərəncamlar hazırlanmışdır. 2005-2009, 2011-2015 və 2017-2021-ci illəri əhatə edən "Azərbaycan Gəncliyi Dövlət Proqramı" bu qəbildəndir. Ölkə prezidentinin "2015–2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"[25] haqqındakı sərəncamı vətənpərvərlik ruhu və vətəndaş mövqeyinin möhkəmləndirilməsi, eləcə də XXI əsrin bacarıqları və davamlı inkişaf məqsədini daşıyır.

Prezident İlham Əliyevin gənclərin təhsilini də əhatə edən son qərarı 2 fevral 2021-ci ildə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncamı oldu [27]. Sənəddə xüsusilə qeyd olunur ki, dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Məhz təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payı davamlı şəkildə artırılmalıdır.

Bu Sərəncam hələ 1960-80 -ci illərdə Amerikalı iqtisadçılar Hari Beker və Teodor Şultz tərəfindən sübut edilmiş və Nobel mükafatına layiq görülmüş ""insan kapitalı"-təhsilə qoyulan investisiyalar ilə şəxsin yüksəltdiyi dəyərli keyfiyyətlər (təcrübə və bacarıqlar) nəticəsində iqtisadiyyatın da irəlilədiyi" [28] aksiomunu bir daha təsdiqlədir.

Bu müstəvidə ölkəmizdə indiyədək həyata keçirilən ümumtəhsil sisteminin mühüm qolu olan muzey təhsili də bu mərama xidmət edir. Muzey təhsili özündə"...məlumat, təlim, yaradıcılığın inkişafı, ünsiyyət və istirahət" [22, səh 5-7] kimi sahələri də ehtiva edir.

Mədəniyyət Nazirliyinin tabeliyində olan paytaxt muzeylərinin əksəriyyətində məktəblilərlə iş təkcə ənənəvi iş formatı: ekskursiya, rəsmi və qeyri-rəsmi tədbirlərin keçirilməsi, mühazirə, viktorinalar və s. ilə yekunlaşmır, eyni zamanda qismən müasir tendensiyalara uyğunlaşıb, müxtəlif ustad dərsləri, profilə uyğun uşaq tamaşaları, nağıl saatları, kvestlər də təşkil edirlər. Məsələn, Azərbaycan Milli Xalça Muzeyinin tərkibində 2009-cu ildən yaradılmış "uşaq muzeyi" şöbəsi uşaqlar üçün müxtəlif mövzulu ustad dərsləri, ənənəvi kukla tamaşaları və "nağıl saatı" təşkil edir [29].

Milli İncəsənət Muzeyi 3 yaşından 15 yaşına kimi uşaqlar üçün tanınmış yazıçıların əsərlərinə həsr olunmuş "Kölgə tamaşası" və incəsənətin müxtəlif

növlərini özündə cəmləyən art-terapiya, müxtəlif "ustad dərsləri" və əyləncəli kvestlər, növbənöv viktorinalar təqdim edir [30].

Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksində uşaqlar üçün qədim el sənətlərindən olan toxuculuq, dulusçuluq, dəmirçilik ənənələrinin öyrənilməsi və milli mətbəxin nümunələrinin hazırlanması ilə bağlı ustad dərsləri keçirilir.

Təəssüf ki, bölgələrdə olan tarix və tarix-diyarşünaslıq muzeylərində bu fəallıq şəhər muzeyləri ilə müqayisədə demək olar ki, heç nəzərə çarpmır, dolayısı ilə kütlə ilə olan iş- məktəblilərin standart ekskursiya və ya tədbirlərdə iştirakı ilə yekunlaşır. Belə ki, apardığımız müşahidə və tədqiqatlar göstərir ki, tarix-diyarşünaslıq muzeylərində şagird və gənclərlə iş əsasən məlumatlandırma xarekteri daşıyır. Bu isə əsaslı biliyin qazanılmasını təmin etmir.

Sevindirici haldır ki, pandemiya dövründə tarix-diyarşünaslıq muzeyləri öz fəaliyyətini həmin dövrün tələblərinə qismən uyğunlaşdırdı. Hər bir tarix-diyarşünaslıq muzeyi həm facebook sosial şəbəkəsində öz səhifələrində, həm də "Azərbaycan muzeyləri" səhifəsində özlərində mövcud olan eksponatları və vətənpərvərlik ilə bağlı video-çarxları yerləşdirirdilər.

Mədəniyyət Nazirliyinin maarifləndirmə işindən fərqli olaraq Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində olan 4 muzey (Milli Azərbaycan Tarixi Muzeyi, Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Həsən bəy Zərdabi adına *Təbiət Tarixi Muzeyi* və Hüseyn Cavidin ev muzeyi) əsasən Elmi-tədqiqat və elmi-maarifləndirmə profilli olduğundan öz strukturuna müvafiq fəaliyyətlə məşğul olurlar. Məsələn: N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Elmi inkişaf və tədris layihələri şöbəsi gənc elmi kadrlarının yetişdirilməsi üçün mərkəzləşdirilmiş qaydada zəruri tədbirlərin görülməsi, muzeyin məktəb və tədris ocaqları ilə əlaqələrinin təmin edilməsi, muzeydaxili, eləcə də ölkə və beynəlxalq səviyyəli elmi məclisləri təşkil edir[31].

Təbiət tarixi Muzeyinin elmi-tədqiqat işi ilə yanaşı təhsil və maarifçilik bölməsi də mövcuddur. Bu bölmə ekskursiyaların keçirilməsi ilə yanaşı muzey pedaqogikasının bir qolu kimi müəllimlərin pedaqoji fəalliyyətinə muzeyin dəstəyi olaraq biologiya üzrə testlərin yazılması və məktəb dərsliklərin monitorinqini də həyata keçirir [32].

Hüseyn Cavid ev muzeyinin Elmi-kütləvi işlər şöbəsi H.Cavid və ümumiyyətlə, cavidlər irsinin təbliği, sərgilərin nümayişi və tədbirlərin təşkili ilə məşğul olsa da[33], muzey pedaqogikasına dair fəaliyyəti çox məhduddur.

Bu muzeylərin elmi-kütləvi iş və təhsil fəaliyyəti də demək olar ki, əsasən ekskursiya, muhazirə və məktəblərin öz təşəbbüsü ilə hazırladığı bədii-yaradacılıqla yekunlaşır. Fikrimizcə, muzeylərin gənclərlə iş proseduru qarşılıqlı maraqları ehtiva edən mükəmməl proqram əsasında formalaşmalıdır. Məhz bu yolla- təcrübə, bilik və yaradıcılıq fəalliyyəti ilə təcəssüm etdirilən intellektual kapital insan kapitalına çevrilir. Dolayısı ilə dövlətin gənclərlə bağlı strategiyası təcrübədə də tətbiq olunmuş olar.

Akademiya sistemində və ümumiyyətlə, Respublikada muzey sahəsində yalnız Milli Azərbaycan Tarixi Muzeyi müasir muzey tendensiyaları ilə ayaqlaşmaq üçün “İnnovasiyalar və təhsil proqramları şöbəsi”ni yaratmaqla muzeyin elmi- tədqiqat sahəsində fəaliyyəti ilə paralel kreativ təhsilin əhəmiyyətini də önə çəkərək, elmi-tədqiqat ilə elmi-təbliğat işinin ortaq tələbatına diqqət yönəldir. Muzey arxivində olan hesabatlara əsasən əminliklə qeyd edə bilərik ki, bu şöbənin yaradılması üçün Sovet dövründən indiyədək müxtəlif adlarda fəaliyyətini davam etdirən əhəmiyyətli bir təhsil təcrübəsi mövcuddur. Hələ Sovetlər İttifaqının tərkibində olarkən Muzeyin “Məktəb kabineti”, müstəqilliyin bərpasından sonra isə “Elmi-kütləvi işlər” şöbəsi bu gün yenilik kimi təqdim edilən bir sıra muzey-təhsil proqramlarını həyata keçirirdi. 1958-ci ilə kimi olan hesabatların müəyyən səbəblərdən muzey arxivində olmaması ilə əlaqədar “məktəb kabineti”nin öz fəaliyyətinə nə vaxtdan başlaması dəqiq təyin olunmasa da, güman olunur ki, 50ci illərin son rübündən bu iş həyata keçirilmişdir. [1] “Ən məhsuldar yenilik unudulmuş köhnənin tətbiqidir!” fikri ilə ilk öncə Sovetlər dövründə istifadə olunan muzey-məktəb təcrübəsinin metod və resurslarını qeyd etmək olar. Belə ki, XX əsrin 60-cı illərindən etibarən Muzeydə 4 dərnək (arxeoloji, etnoqrafik, tarixi və bədii-tarixi) [3], kinozal [2] və “Qırmızı Qərənfil” klubu (1965-ci ildə yaradılıb [4]) fəaliyyət göstərirdi. Bununla yanaşı, tədbir, sərgi, mühazirə, ekskursiya, eləcə də görüşlər və tematik ekskursiyalar həyata keçirilirdi. Muzey işçilərinin, konkret olaraq “məktəb kabineti” əməkdaşlarının təşkilatçılığı ilə məktəblərdə ardıcıl olaraq muzey güşələri açılırdı. Muzeyin məktəb kabinetinin fəallığı tək yuxarıda sadalananlar ilə məhdudlaşmırdı. Eyni zamanda KİV ilə müxtəlif gənc məktəbli klublarına onların işini asanlaşdıra biləcək layihələrdə kömək edə biləcəkləri ilə bağlı müraciətlər də yerləşdirmişdir[5].

1970-ci illər məktəb kabinetinin ən məhsuldar dövrüdür. Bu onillik daha çox dərnəklərin sistemli şəkildə işləməsi, “Qırmızı qərənfil” və “Qızıl ləpirlər” klubları ilə sıx əməkdaşlığın həyata keçirilməsi, şəhər və rayon məktəblərində diyarşünaslıq klublarının və muzey güşələrinin yaradılması, müəllimlərlə qarşılıqlı əməkdaşlıq etmək üçün konfransların keçirilməsi, muzeyə kütləvi axını təmin edən “açıq qapı” günlərinin baş tutması və Sovet İttifaqının müxtəlif bölgələrinin məktəbliləri ilə intensiv məktublaşmanın aparılması ilə yadda qaldı. Məhz bu baxımdan, 1970-ci illər sovetlərin ideoloji tərbiyəsində muzey pedaqogikası əhəmiyyətli yer tutmuşdur .

Sovet dövründə təlim-tərbiyə işinin nəticəsi olaraq əldə olunan bu nailiyyətlər heç də təsadüfi olmayıb, keçmiş Sovet İttifaqının apardığı məqsədyönlü və sistemli siyasətin davamı idi. Məsələn, 1931-ci ilin avqustunda KP MK-nin “ibtidai və orta məktəb haqqında” və “ibtidai və orta məktəbin təhsil proqramı və rejimi haqqında”kı (1932, avqust) fərmanları məktəblərə tədrisin tarixiliyi prinsipinə, təhsildə əyaniliyin artırılmasına

yönəlməyin vacibliyini göstərdi. Yəni məktəbin qarşısında tək şagirdlərə müəyyən bilik verməklə kifayətlənməyib, eyni zamanda bu biliyin konkret bacarıqlarda əks etdirilməsinin öyrədilməsi məqsədi qoyulmuşdur. Zaman-zaman verilən bu kimi fərmanlar ona gətirib çıxartdı ki, muzeylərdə şagirdlərin sayı artdı, bir sıra muzeylərdə dərs proqramının daha da dərindən öyrədilməsi üçün xüsusi məktəb kabinetləri yaradıldı.

80-ci illərdə Sovet İttifaqında siyasi təlatümlərin başlandığı dövr Azərbaycan Tarixi Muzeyinin işinə də təsirsiz ötüşmədi. 70-ci illərin fəallığından sonra 80-ci illərdə görülən işlər kölgədə qalma təəssüratını bağışlayır.

90-cı illərdə SSRİ-də baş verən dağıdıcı proseslər, sosial-iqtisadi böhran, Azərbaycanın Ermənistanla müharibəyə cəlb olunması, ictimai şüurun transformasiyası və bunun nəticəsi kimi bir çox mənəvi dəyərlərin itirilməsi cəmiyyətin bütün sahələrinə neqativ təsir göstərmişdir.

1991-ci ilin 18 oktyabrında yenicə öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı nankor qonşu Ermənistanın elan olunmamış müharibəyə başlaması, cəbhədə minlərlə Azərbaycan övladının itirilməsi, qaçqın və məcburi köçkün seli ilə üzləşməsi, iqtisadiyyatının iflic vəziyyətə düşməsi bütövlükdə muzey işini axsatdı və bütün bunlar muzey pedaqogikasının inkişafında da fasilə yaratdı.

"...Əminliklə demək olar ki, Azərbaycan Tarixi Muzeyi zamanın sürətlə dəyişən ab-havasına hazır deyildi. Uzun illər ərzində sovet dövrünün nailiyyətlərini işıqlandırmağa xidmət edən ekspozisiya zamanın tələbatına cavab vermirdi. İnsanların bir çoxunun ağır maddi vəziyyəti, Qarabağ müharibəsinin ağrılı nəticələri, cəmiyyətdə qeyri-sabitlik və digər səbəblər muzeyin öz tamaşaçılarını itirməsinə gətirib çıxarırdı"[19].

Lakin, mövcud olan çətinliklərə baxmayaraq iqtisadiyyatını yenidən dirçəldən müstəqil Azərbaycan Respublikası səhiyyə, təhsil, elm, mədəniyyət və idman sahəsində bir sıra qərarlara imza atdı, əldə etdiyi nailiyyətlərlə keçid dövrünün çətinliklərini geridə qoydu. Müstəqilliyini bərpa edən dövlət elm, təhsil və gənclərin potensialının idarə edilməsi ilə bağlı bir sıra sərəncamlar verdi ki, bunlara əsasən muzey də öz işini formalaşdırdı.

2000-2010-cu illər Muzeyin əsaslı bərpası və təmirdən sonrakı ilk illəri olduğundan Elmi-kütləvi iş şöbəsinin əməkdaşları 2005-ci ilə kimi məktəblərdə (1,6,244 və s. saylı məktəblər) muzey materiallarının kataloqları əsasında silsilə tarix dərsləri və əlamətdar tarixlərə həsr olunmuş tədbirlər keçirmiş, elmi məsləhət masası təşkil etmişlər[10].

2001-ci ildə muzeyin müvafiq şöbəsi 1,7,8,16,132,160 və 189 saylı məktəblərdə tarix kabinetlərinin yaradılmasında yaxından iştirak etmişdi[10].

Muzeyin təmirə bağlanması ilə müəllim və şagirdlər nəinki əyanilikdən uzaqlaşmış, məktəb mühitindən uzaq, asudə vaxtlarının səmərəli keçirilməsini

təmin edən fərqli elmi-mədəni mühitdən də məhrum olmuşdular. 2003-cü ildə muzey kollektivinin fədakar əməyi ilə qurulmaqda olan yeni ekspozisiyanın İbtidai icma quruluşunu əhatələyən beş zalı ziyarətçilərin ixtiyarına verildi. Elə həmin il 18 may-Beynəlxalq Muzeylər günündə 244 saylı məktəb şagirdləri tərəfindən həmin zallarda " İbtidai icma quruluşu" mövzusunda səhnələşdirilmiş tematik tamaşa nümayiş edilib [11, səh.54]. Bu tədbir məktəblilərin muzey kollektivinə və onların fədakar əməyinə özünəməxsus şəkildə göstərilən minnətdarlığın ifadəsi idi.

Diqqətəlayiq haldır ki, 2005-ci ildən Elmi-kütləvi iş şöbəsində ayrıca "məktəb kabineti"nin iş planının məqalə müəllifi tərəfindən hazırlanması ilə bu sahənin kütləvi işdən ayrı daha sürətli inkişafı baş verdi. Belə ki, ekspozisiyanın hələ tam qurulmamasına, yalnız 30 ekskursiyanın keçirilməsinə baxmayaraq muzey-məktəb əlaqələri 19 illik fasilədən sonra, (məktəb kabinetinin son fəaliyyəti 1986-cı ilə təsadüf edir.) məhdud imkanlara baxmayaraq, yenidən bərpa edildi və o dövr üçün yenilik olan müxtəlif mövzulu kvest-dərslərin mütamadi olaraq keçirilməsinə start verildi.

2006-cı ildə muzey təhsili sahəsində yuxarıda sadalanan işlərlə yanaşı 244 saylı orta məktəbdə VII-IX siniflər (15 sinif) arasında muzey eksponatlarını müvafiq bölmələrində əks etdirən kataloqları əsasında "Səfəvilər dövləti" mövzusunda sistematik olaraq viktorinalar keçirilib.

2009-cu ildə əvvəlki illərə əlavə olaraq Qadın, Sülh və İnkişaf Mərkəzinin nəzdində olan istedadlı uşaqlar üçün müəllif tərəfindən muzey marşrutu üzrə on mövzuda (ən qədim dövrlərdən AXC-nin süqutuna qədər) kvest-dərslər hazırlanmış və 25 şagirdə Muzeyin "Sertifikatı" verilmişdir[11]. Bundan başqa Muzeyin Elmi-maarif və Etnoqrafiya elmi-fond şöbələrinin (ideya müəllifi şöbə müdüri G.Abdulova) təşkilatçılığı ilə fevralın 10-da Nəsimi rayonu 1 saylı orta məktəbin və Respublika İncəsənət Gimnaziyasının şagird və müəllimlərinin, "Səma" rəqs qrupunun iştirakı ilə unudulmaqda olan və ilk dəfə muzey tərəfindən ictimailəşdirilən "Xıdır Nəbi" [11] etno-folklor bayramı keçirilmişdir. Bu yeniliklər 2010-cu ildə də tətbiq edilmişdir.

Göründüyü kimi müstəqilliyini yenidən bərpa etdikdən sonra keçid dövrünün problemləri ilə üzləşən ölkədə və muzeydə Elmi- kütləvi iş şöbəsinin fədakar əməkdaşlarının əməyi sayəsində gənclərlə aparılan pedaqoji iş nəinki axsadı, tam tərsinə, Dünya muzeylərində tətbiq olunan əyləncəli-intellektual oyunlarla zənginləşdi. 2000-2010-cu illər muzeyin gənclərlə iş proqramı ənənəvi iş formatları ilə yanaşı abunəçilik yolu ilə kvest-dərslərin tətbiq olunması kimi yeniliklərdən də istifadə etdi. Muzey kvestlərin özəlliyi ondadır ki, ziyarətçilərin müstəqil olaraq muzey kolleksiyaları ilə maneəsiz tanışlığı baş tutur, mövzu ilə bağlı biliklər dərinləşir, şəxsi kəşflər baş verir. Bununla da muzey məktəblilərin zehniyyətində nəinki tarixə sevgi və marağı artırdı, eyni zamanda oyunla idrakın unikal birləşməsindən irəli gələn tədqiqatçılıq

həvəsini üzə çıxartdı. Şagirdlərin hələ o dövrdə muzeyin məhz bu proqramına abunəçiliyə yazılması dediklərimizi təsdiq edir.

“...2010-ci ildən etibarən Prezident İlham Əliyevin ifadəsiylə Azərbaycanda keçid dövrü başa çatmış və ölkə yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur”[24,səh13]. Bu dövrdə “...Azərbaycanın qarşısında duran əsas məsələ dünya ölkələrinin inkişaf sürəti ilə müqayisədə geriliyə yol verməməkdir....Ənənəvi iqtisadiyyatdan “bilik iqtisadiyyatına” keçidin əsası qoyulmalı, bunun üçün həlledici olan insan kapitalının adekvat inkişafı ön plana çəkilməlidir”[18, səh8].

2011-2020 ci illərdə muzeyin bütün iş fəaliyyəti bu konsepsiyaya əsaslanaraq elmi nailiyyətlərini və beynəlxalq əlaqələrini yüksəltdi, yeni kitab və albomlar nəşr etdirdi. Əldə edilən elmi uğurlar muzeyin pedaqoji işinə də təsir etdi.

2011-ci ildən 2020-ci ilədək muzeyin məktəblilərlə iş fəaliyyəti Elmi-kütləvi iş şöbəsi tərəfindən bir neçə istiqamətdə həyata keçirilirdi: artıq ənənəvi hal almış intellektual oyunlar, əlamətdar günlərə həsr olunmuş tədbirlər, bayramlar, açıq dərslər, kvestlər, ustad dərsləri, yaradıcı insanlarla görüş, rəsm müsabiqələri, viktorinalar, ekskursiyalar, mühazirələr, təcrübə məşğələləri ilə yanaşı müxtəlif layihələr (“Elm-Təhsil-Muzey vəhdətinə məntiqi yanaşma”), “Məktəblilər üçün Muzey həftəsi- Muzeylər və Ekologiya”, “Muzeylər və Multikulturalizm”[13], “Gözəl mədəniyyət”[13], “Tarix fənninin başqa fənlərə inteqrasiyası”[14], “Sənət barəsində söhbət”[14], “Muzey eksponatları şagirdlərin rəngli dünyasında” [16] və klublar da(“H.Z.Tağıyev”[12], “Gənc muzeyşünaslar və muzeysevərlər” “Kinoklub” və “Arxeoklub”) fəaliyyət göstərirdi.

2020 -ci ildə Respublikanın flaqman muzeyi AMEA – nın Milli Azərbaycan Tarixi Muzeyinin 100 yaşı oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin MATM-nin 100 illik yubileyi münasibəti ilə imzaladığı sərəncama əsasən muzeyin müxtəlif istiqamətlərdə bir fəaliyyət planı hazırlanmışdır.

Yubileyin qeyd edilməsinə hazırlıq işlərini 2 il əvvəl başlayan muzey həmin dövrdə təmir işlərini aparırdı, yeni ekspozisiyanın qurulması pandemiyanın Azərbaycanda yayılması səbəbi ilə təxirə salındı və 2020 -ci ilin mart ayının sonundan etibarən muzey tamamilə onlayn iş rejiminə keçdi. MATM Akademiya sistemindəki muzeylər içərisində ilk olaraq onlayn formata keçərək həm dinləyicilər ilə, həm də muzey kollektivinin özü arasında ünsiyyəti davam etdirməklə bərabər, bir sıra virtual layihələrin internet məkanınında həyata keçirməyə nail oldu.

Muzey Zoom platformasından istifadə edərək məktəblilər üçün tədbir, mühazirə, müsabiqə, viktorina və ekskursiyalar, onlayn eksponat-pazlların yığılması, fənn testləri təşkil etdi. Eksponatların mütamadi olaraq virtual

nümayişini və annotasiyasını özünün sayt və sosial şəbəkə səhifələrinində maraqlı şəkildə təqdim etməklə izləyicilərin daimiliyinə və kəskin artımına rəvac verdi. Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı [26] Muzeyin də könüllülük fəaliyyətinin aktivləşməsinə səbəb oldu. Yay ərzində muzeyin H.Z. Tağıyev klubunun müəllimi və "Güc birlikdədir " Gənc Könüllülər Cəmiyyətinin üzvləri Azərbaycanın muzey işi tarixində ilk dəfə olaraq H.Z.Tağıyevin xeyriyyəçiliyinə, o zaman işğal altında olan Qarabağ torpaqlarına və mətbuat gününə həsr olunmuş 12 və 15 dəqiqəlik maarifləndirici animasiyalar təqdim etdi. Yenə də ilk dəfə 27 sentyabrda "Muzeylərimizi tanıyaq və təqdim edək" layihəsi çərçivəsində Karlar və Lallar Cəmiyyəti ilə birlikdə ilə "H.Z.Tağıyevin Xatirə Evi" surdo tərcüməli video tur hazırlanıb izləyicilərin ixtiyarına verildi[23].

Bütün bunlar muzeyin reytinqini nəinki sosial şəbəkələrdə və ictimaiyyət arasında qaldırdı, həm də MATM –nin MDB -nin tarix və mədəniyyət muzeyləri içərisində "ən yaxşı ziyarətlər və virtual ekskursiyalar" sıralamasında altıncı yeri tutması ilə nəticələndi." Muzeyin facebook səhifəsinin auditoriyası 115% artdı [23, səh429-436].

Göründüyü kimi, muzeyin 2010-2020-ci illərdə elmi-kütləvi iş və təhsil sahəsindəki fəalliyyəti əvvəlki illərilə müqayisədə yüksəlmiş, fəalliyyət növü artmış, ustad dərsləri, onlayn layihələr, maarifləndirici animasiyalar, surdo tərcüməli video-turlar kimi yeniliklər tətbiq olunmuşdur.

Muzeyin müasir pedaqoji fəalliyyətinin Sovet dövrü ilə müqayisədə bir özəlliyini də qeyd etmək yerinə düşərdi. Əgər Sovet dövründə görülən işlər KP-nın birbaşa diqtə və nəzarəti altında aparılırdısa, verilən standartlardan kənara çıxmamağı tələb olunurdusa, müstəqilliyin bərpasından sonra həyata keçirilən bütün bu işlər muzey rəhbərliyinin zamanın tələbinə uyğun formalaşdırdığı təhsil strategiyasının və işçilərə öz kreativliyini nümayiş etdirmək üçün verdiyi sərbəstliyin nəticəsidir.

Müqayisə üçün demək olar ki, dünya muzeylərinin təcrübəsində də təhsil şöbələri işçilərinin əsas vəzifəsi müəllimlər üçün təhsil prosesinin əyaniliyini gücləndirən "tədris vasitələri hazırlamaq, müəllimə bacarıqlı şəkildə hazırlaşmağa və dərsi aparmağa imkan verən ixtisaslaşdırılmış bələdçi kitabları, "iş dəftərləri", illüstrativ materiallar paketi, video və internet proqramları yaratmaqdır" [21, səh 17-25].

Müəllimləri öz tərəfdaşı kimi görən Amerika muzeyləri xüsusi olaraq onlar üçün: "mühazirə salonları, müəllim emalatxanaları, kredit kursları, tədqiqat və muzeydə staj proqramları hazırlayırlar. Müəllimlər nəinki muzey kolleksiyaları haqqında yeni məlumatlar əldə edir, həm də onları təhsil sahəsində necə istifadə etməyi öyrənirlər. Muzeylər həm də müəllimlərə məktəb dərsliklərini muzey eksponatları ilə təsvir etməyi deyil, onun vasistəsi ilə öz

mövzularını açaraq uşaqlara bilik əldə etməyin yeni bir yolunu mənimsəmələrinə kömək edirlər" [20, səh 36-39].

Danimarkada da dövlət səviyyəsində, 2007 -ci ildən bəri, muzeylərin Təhsil Sisteminə daxil edilməsi üçün Milli Proqram qəbul edilmişdir. Proqram, xüsusən, muzeylərə və müəllimlərə onlayn mənbələrdən məcburi istifadə etməklə təhsil pillələrində olan bütün məktəblər üçün birgə fənlərarası tədqiqat və təcrübə yönümlü proqramlar hazırlamağı tövsiyə edir. Milli İrs Agentliyi, Təhsil Nazirliyi və muzey ictimaiyyəti ilə birlikdə (Danimarkada 117 dövlət muzeyi var) mövcud muzey təhsil proqramları izlənildi və Milli Muzey Təhsil Şəbəkəsi yaradıldı. [45, səh 17-25] Məktəbə ünvanlanan muzey proqramları bütün məktəb müəllimləri üçün əlçatan olan www.e-museum.dk internet saytında dərc olunur

Yuxarıda sadalanan, muzey pedaqogikası sahəsində yeniliklərə imza atmış dövlətlərin təcrübəsinə əsasən, belə nəticəyə gəlirik ki, son dövrlərdə muzey pedaqogikası yeni mərhələyə qədəm qoymuşdur. Onun inkişaf istiqamətləri ilə ayaqlaşmaq üçün MATM-ın muzey pedaqogikası işi dövrün tələblərinə daha da yaxınlaşmalı, bir sıra yeni addımlar atılmalıdır. İlk növbədə məktəb proqramının müxtəlif fənləri üzrə şagirdlərin biliklərinin dərinləşdirilməsi, mədəni təcrübənin yayılması və dəyərlər sisteminin formalaşdırılması üçün muzey proqramlarının Təhsil Nazirliyi ilə birgə hazırlanması təmin edilməlidir. Bu, həm tarix fənninin digər fənlərlə sıx inteqrasiyasına, həm muzey pedaqogikasının təhsilin əsas tərkib hissəsinə çevrilməsinə, həm də əyanilin verdiyi məziyyətlər nəticəsində məktəblilərin qlobal dünyagörüşünün formalaşmasına xidmət edəcəkdir. Keçirilən dərslərin səmərəliliyinə də diqqət ayırmaq vacibdir. Həm məktəbdə, həm də muzey təhsilində ən çox üstünlük verilən, məktəbliləri məlumatlandırmağa deyil, müzakirəyə səbəb olan dialoqa əsaslanan təhsilə yönləndirməkdir. Yalnız məlumatlandırma ilə bilik əldə olunmur, müzakirə əsnasında fikir ayrılıqları, ziddiyyətlər, dilemmalar meydana çıxdıqca, real qavrayışın və biliklərin dərin mənimsənilməsi prosesi bir o qədər sürətlənir.

Muzey öz təhsil proqramlarını elə səpkidə qurmalıdır ki, sərgilərdə müstəqil işləmək üçün hazır materiallar, müasir təhsilin ehtiyaclarını ödəyən interaktiv sərgi sahələri, habelə məktəb proqramının müxtəlif mövzuları üçün seçilmiş "muzey çamadanları"(muzey materialları üzərində qurulan təhsil proqramlarının konkret, yığcam, səyyar istifadəyə məqbul iş paketi) vasitəsi ilə bu iş öz arealını genişləndirsin. Muzey pedaqogikası Muzeydə tətbiq olunduğu kimi tək şagird ilə işləmək deyil, daha çox pedaqoq ilə də işləməlidir. Muzeyin pedaqoji işi bütün Bakı və Bakı ətrafı məktəbliləri muzeyə sistematik dərslərə cəlb edə bilməz, amma pedaqoqlarla əsaslı və məqsədyönlü iş getsə bu istəyə nail oluna bilər. Bunun üstünlükləri ondan ibarətdir ki, professional pedaqoq formalaşdırmaqla yanaşı, həm də muzey pedaqogikası vasistəsi ilə innovativ

təhsil imkanları genişlənir, məktəblilərin vətənpərvərliyi artır. Çünki Vətənə olan sevgi onu dərk etməkdən keçir. Müstəqil olaraq gündəlik və geridönüşlü dərsləri, məşğələləri həyata keçirdən müəllim öz uşaqları ilə dərsləri təkcə muzeylərin sərgi salonlarında deyil, həm də fondlarda, muzey kitabxanasında və həmçinin onlayn keçirə bilər. Hal-hazırda muzeylərdə keçirilən bir dəfəlik dərslər bu üstünlüyü vermir, ən yaxşı halda xoş təəssürat və qismən bilik verir. Muzey pedaqoqu tərəfindən dərsə qoyulan əmək izlənilməmiş qaldığından, zamanla xoş təəssüratdan başqa heç nə yadda qalmır.

Bu əsnada qeyd etmək yerinə düşər ki, pedaqoqlarla iş muzeyə yad deyil, 1970-ci ildə müəllimlər üçün keçirilən 3 günlük konfransda 120 müəllim iştirak edib, 1973-cü ildə IV-VIIsiniflər üçün köməkçi dərs vəsaitləri hazırlanıb, 1973-cü ildə muzeyin 50 illiyi ilə əlaqədar müəllimlər üçün yenə də 3 günlük konfrans keçirilib. Müəllim və məktəb direktorları dəyirmi masa müasir dövrdə də keçirilib, 2010-2020-ci il pedaqoji iş fəaliyyətində öz əksini tapıb.

Ümid edirik ki, göstərilən təkliflər Azərbaycanın muzey təhsili sahəsində keçdiyi dövrlərin bəzi müsbət ənənələrindən, xarici ölkələrin müasir standartlara cavab verən yeni metodlarından və müstəqillik qazanıldıqdan sonra əldə etdiyimiz yeni təcrübədən istifadə edərək, Azərbaycan muzeylərinin yeni dünya təhsil standartlarına keçməsi üçün bir başlanğıc kimi əhəmiyyətli olacaqdır.

Məqalədə Milli Azərbaycan Tarixi Muzeyinin muzey pedaqogikası sahəsindəki fəalliyyətinin tarixi-statistikası və bu sahədə digər muzeylərlə müqayisəsi ilk dəfə araşdırılır, dövrün ictimai-siyasi qərarı ilə mütanasibliyinə diqqət yetirilir.

## ƏDƏBİYYAT


1. Milli Azərbaycan Tarixi Muzeyinin Elmi Arxivi, Академия Наук Азербайджанской ССР. Музей Истории Азербайджана Отчет о научно-иследовательской деятельности за 1958-ой год .inv №444
2. Milli Azərbaycan Tarixi Muzeyinin Elmi Arxivi, Академия Наук Азербайджанской ССР. Музей Истории Азербайджана Отчет о научно-иследовательской деятельности за 1959-ый год inv №445
3. Milli Azərbaycan Tarixi Muzeyinin Elmi Arxivi, Академия Наук Азербайджанской ССР. Музей Истории Азербайджана Отчет о научно-иследовательской деятельности за 1960-ый год inv №446
4. Milli Azərbaycan Tarixi Muzeyinin Elmi Arxivi, Академия Наук Азербайджанской ССР. Музей Истории Азербайджана Отчет о научно-иследовательской деятельности за 1965-ый год inv №550

5. Milli Azərbaycan Tarixi Muzeyinin Elmi Arxivi, Академия Наук Азербайджанской ССР. Музей Истории Азербайджана Отчет о научно-иследовательской деятельности за 1966-ой год inv №551
6. Milli Azərbaycan Tarixi Muzeyinin Elmi Arxivi, Академия Наук Азербайджанской ССР. Музей Истории Азербайджана Отчет о научно-иследовательской деятельности за 1967-ой год inv №552
7. Milli Azərbaycan Tarixi Muzeyinin Elmi Arxivi, Академия Наук Азербайджанской ССР. Музей Истории Азербайджана Отчет о научно-иследовательской деятельности за 1969-ый год inv №553
8. Milli Azərbaycan Tarixi Muzeyinin Elmi Arxivi, Академия Наук Азербайджанской ССР. Музей Истории Азербайджана Отчет о научно-иследовательской деятельности за 1970-ый год inv №556
9. Milli Azərbaycan Tarixi Muzeyinin Elmi Arxivi, Академия Наук Азербайджанской ССР. Музей Истории Азербайджана Отчет о научно-иследовательской деятельности за 1985-ый год inv №572
10. Milli Azərbaycan Tarixi Muzeyinin Elmi Arxivi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Tarixi Muzeyi Elmi-tədqiqat və Elmi-kütləvi işlər haqqında hesabat 2000-2005-ci illər inv№454
11. Milli Azərbaycan Tarixi Muzeyinin Elmi Arxivi, Azərbaycan Milli Elmlər Akademiyası,
Azərbaycan Tarixi Muzeyi Elmi-tədqiqat və Elmi-kütləvi işlər haqqında hesabat 2009-cu il inv№457
12. Milli Azərbaycan Tarixi Muzeyinin 2013-cü ildə gördüyü elmi-ekspozisiya,elmi-tədqiqat,elmi-kütləvi və fond işlərinin HESABATI/ Azərbaycan Milli Elmlər Akademiyası /Milli Azərbaycan Tarixi Muzeyi-2013-, Bakı 2013, səh 355-365
13. Milli Azərbaycan Tarixi Muzeyinin 2016-cı ildə gördüyü elmi-ekspozisiya,elmi-tədqiqat,elmi-kütləvi və fond işlərinin HESABATI/ Azərbaycan Milli Elmlər Akademiyası/ Milli Azərbaycan Tarixi Muzeyi-2016-, Bakı 2016, səh 493-502
14. Milli Azərbaycan Tarixi Muzeyinin 2017-cı ildə gördüyü elmi-ekspozisiya,elmi-tədqiqat,elmi-kütləvi və fond işlərinin HESABATI/ Azərbaycan Milli Elmlər Akademiyası /Milli Azərbaycan Tarixi Muzeyi-2017-, Bakı 2017, səh 419-427
15. Milli Azərbaycan Tarixi Muzeyinin 2018-ci ildə gördüyü elmi-ekspozisiya,elmi-tədqiqat,elmi-kütləvi və fond işlərinin HESABATI/Azərbaycan Milli Elmlər Akademiyası/ Milli Azərbaycan Tarixi Muzeyi-2018-, Bakı 2018, səh 322-332
16. Milli Azərbaycan Tarixi Muzeyinin 2019-cu ildə gördüyü elmi-ekspozisiya,elmi-tədqiqat,elmi-kütləvi və fond işlərinin HESABATI/

Azərbaycan Milli Elmlər Akademiyası /Milli Azərbaycan Tarixi Muzeyi-2020-, Bakı 2020, səh 490-498

17. Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyi Azərbaycan Milli Elmlər Akademiyasının 60 illiyinə həsr olunur. Bakı-2004 səh 56
18. "AZƏRBAYCAN 2020: GƏLƏCƏYƏ BAXIŞ" İNKİŞAF KONSEPSİYASI https://president.az/files/future_az.pdf
19. *Cabbarov Fərhad* Milli Azərbaycan Tarixi Muzeyinin 2000-2020-ci illərdə fəaliyyətinə dair MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ – 2020 /Bakı – 2020 səh 13
20. Макарова-Таман. Н. Сотрудничество с учителем. Из опыта США //Музей. - №1. – 2015.- с. 36-39.
21. Медведева Елена. Школа & Музей: зарубежный опыт. // «Урок в музее»: проект единого образовательного пространства музея и школы. М., 2016, с. 17-25.
22. Музейная педагогика: из опыта методической работы / под ред. А. Н. Морозовой, О. В. Мельниковой. – М.: ТЦ Сфера, 2006. – 416 с.
23. Мусаева Л. Успехи виртуальных проектов национального музея истории Азербайджана в период пандемии // " замонавий дунёда музейшуносликнинг долзарб масалалари", Тошкент – 2021 с. 429-436
24. Azərbaycan iqtisadiyyatının keçid dövrü /Keçid dövrünün ümumi qiymətləndirilməsi //http://lib.bbu.edu.az/read.php?item_type=lecture&file_type=pdf&file=18
25. "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 26 yanvar 2015, https://president.az/articles/14132
26. Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 30 dekabr 2019 https://president.az/articles/35533
27. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər 02 fevral 2021,https://president.az/articles/50474
28. Роль культуры в формировании человеческого капитала №3 (27) Июль-Сентябрь 2021 http://edu.e-history.kz/ru/contents/view/1152
29. Azərbaycan Milli Xalça Muzeyi //maarifləndirici proqramlar https://azcarpetmuseum.az/front/az/more_eduPrograms/234
30. Azərbaycan Milli İncəsənət Muzeyi // uşaqlar üçün// http://nationalartmuseum.az/pages/77/for-kids

31. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi //Muzeyin strukturu //http://www.nizamimuseum.az/
32. Museum of Natural History //https://science.gov.az/az/forms/organizatsii-pri-prezidiume/3800
33. AMEA Hüseyn Cavidin ev muzeyi //Muzey haqqında// struktur https://www.huseyncavid.az/az.php?go=tarix

# MÜNDƏRİCAT


**Afiq Abdullayev.** HERALDİKANIN DİGƏR PREDMETLƏRİ : KARTUŞLAR……………………………………………………….....3-14
**Ağca Baxşaliyeva.** Müasir mərhələdə Azərbaycanın Dağıstanla iqtisadi—ticarət əlaqələrində Azərbaycanın iş adamlarının rolu................................15-22
**A.B. Təhməzova.** Zəngəzur dəhlizi və Qafqazda geosiyasi rəqabətin transformasiyasi .........................................................................23-31
**Anar Bəşir oğlu Həmidov.** AZƏRBAYCAN SSR-DƏ MİLLİ HƏRBİ KADRLARIN HAZIRLANMASINDA C.NAXÇIVANSKİ ADINA HƏRBİ LİSEYİN ROLU (XX ƏSRİN 70-80-Cİ İLLƏRİNİN ƏVVƏLLƏRİ) .....32-37
**Orucova Aynur .** XV ƏSRİN II YARISINDA VENESİYALI SƏFİR-DİPLOMATLARIN SƏFƏRNAMƏLƏRİNDƏ AZƏRBAYCAN ...........38-47
**Аббас Сеидов, Деюш Мусаев**. НОВЫЕ АРХЕОЛОГИЧЕСКИЕ ОТКРЫТИЕ В ХАЧМАССКОМ РАЙОНЕ В 2021 Г............................48-55
**Fərhadov Əli Rizvan.** QACARLAR DÖVRÜNDƏ SUFİZM: ZEYNALABDİN ŞİRVANİ NÜMUNƏSİ...............................................56-64
**Фуад Агаев**. ТЕХНИЧЕСКИЕ ИННОВАЦИИ И АЗЕРБАЙДЖАНСКИЙ СОЦИУМ В КОНЦЕ XIX – НАЧАЛЕ XX ВВ...............................................................................................65-73
**İradə Hacıəli qızı Əliyeva.** ÇAR RUSİYASININ ŞİMALİ AZƏRBAYCANDAKI MÜSTƏMLƏKƏÇİLİK SİYASƏTİNDƏ UDİNLƏR (XIX ƏSRİN I YARISI).......................................................74-85
**Nəsibə Mustafayeva.** Antik dövr metallurgiyası və metal istehsalının öyrənilmə tarixi.........................................................................................86-95
**Telman Fərman Musayev.** ŞUŞA ŞƏHƏRİNDƏ QAFQAZIN İLK SƏYYAR XALÇA EMALATXANASININ TƏŞKİLİ HAQQINDA.....96-106
**Тюркан Ильгар кызы Гасымова.** ВНЕШНЕПОЛИТИЧЕСКАЯ КОНЦЕПЦИЯ ГЕЙДАРА АЛИЕВА...................................................107-119
**Zakir Kərimov.** Yelisavetpol Xeyriyyə Cəmiyyətinin tarixi izləri.........120-126
**Ləman Musayeva.** MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN “MUZEY PEDAQOGİKASI” ƏNƏNƏLƏRİ.......................................127-140

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – jhhsadpu@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2021, 3 (33)*

**Çapa imzalanmış 13.12.2021-ci il**
**Kağız formatı 60x84 1/16, çap vərəqi 8**
**Sifariş 75, sayı 100**

**Bakı, Ü.Hacıbəyli küçəsi, 68**
**Telefon: (+994 12)493 05 85**
**E-mail:** *jhhsadpu@mail.ru*
**www.adpu.edu.az**